# VCT ÖLÇÜ MEYARI

## VCT-lərə əlverişli mühitin yaradılması və onların imkanlarının genişləndirilməsi üçün kompas

## AZƏRBAYCAN 2022

ÖLKƏ HESABATI

BAKI

Funded by
the European Union

European Center for
Not-for-Profit Law

CONSULTING
Law and project management

# VCT Ölçü Meyarı 2022: Azərbaycan Ölkə Hesabatı

# Hesabat dövrü: Yanvar – noyabr 2022

Müəllif: Emin Rzayev, baş hüquqşünas, MG Consulting MMC

MG Consulting MMC Azərbaycanda qeyri-kommersiya hüququ üzrə ixtisaslaşmış, yerli və xarici müştərilərinə, o cümlədən diplomatik nümayəndəliklərə və beynəlxalq təşkilatlara müxtəlif hüquqi xidmətlər göstərən qeydiyyatdan keçmiş konsaltinq şirkətidir. MG Consulting QHT, kənd təsərrüfatı və sahibkarlıq, o cümlədən sosial müəssisələrlə bağlı qanunvericiliyin təkmilləşdirilməsi sahəsində ekspert xidmətləri təqdim edir. Şirkət təlimlərin keçirilməsində, ölkə hesabatlarının, o cümlədən qanunu oxucuya aydın şəkildə izah edən müxtəlif nəşrlərin hazırlanmasında geniş təcrübəyə malikdir. Bundan əlavə, 1400-dən çox QHT fəalı olan "QHT qanunverciliyi" adlı feysbuk səhifəsini və qrupunu idarə edir.

Qeyri-Kommersiya hüququ üzrə Avropa Mərkəzi (ECNL) vətəndaş cəmiyyətinə təsir edən siyasət və qanunlar sahəsində qabaqcıl Avropa mənbəyi və tədqiqat mərkəzidir. ECNL bilik bazası yaratmaqla yanaşı, tərəfdaşların imkanlarını genişləndirir , vətəndaş azadlıqlarını yaradan, qoruyan və genişləndirən standartların müəyyən edilməsinə kömək edir.

Müəlliflər bu nəşrə yardım göstərənlərə səmimi minnətdarlıqlarını ifadə edirlər.

"VCT Ölçü Meyarı: VCT-lərə əlverişli mühitin yaradılması və onların imkanlarının genişləndirilməsi üçün kompas" layihəsi Qeyri-Kommersiya hüququ üzrə Avropa Mərkəzi (ECNL) və onun aşağıdakı tərəfdaşları tərəfindən həyata keçirilir: Ermənistanda – Beynəlxalq Şəffaflıq Təşkilatının Antikorrupsiya Mərkəzi; Azərbaycanda – MG Consulting MMC; Gürcüstanda – Vətəndaş Cəmiyyəti İnstitutu; Moldovada – Promo-LEX Assosiasiyası; və Ukraynada – Ukrayna Müstəqil Siyasi Araşdırmalar Mərkəzi (UCIPR).

Bu nəşr Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanmışdır. Nəşrin məzmununa görə yalnız müəlliflər məsuliyyət daşıyırlar və heç bir halda Avropa İttifaqının mövqeyini əks etdirən sənəd kimi qəbul edilə bilməz.

© 2023 – Müəlliflik hüquqları ECNL və MG Consulting MMC-yə məxsusdur. Bütün hüquqlar qorunur.

# MÜNDƏRİCAT


ABREVİATURALAR 3

I. QISA İCMAL 4

II. AZƏRBAYCAN RƏQƏMLƏRDƏ 9

III. QƏNAƏTLƏR 10

3.1 Birləşmək azadlığı 10
3.2 Bərabər rəftar 16
3.3 Maliyyəyə çıxış 18
3.4 Dinc toplaşmaq azadlığı 22
3.5 Qərarların qəbulunda iştirak etmək hüququ 26
3.6 İfadə azadlığı 32
3.7 Şəxsi həyatın toxunulmazlığı hüququ 35
3.8 Dövlətin müdafiəni təmin etmək vəzifəsi 39
3.9 Dövlətin dəstəyi 42
3.10 Dövlət-VCT əməkdaşlığı 50
3.11 Rəqəmsal hüquqlar 54

IV. ƏSAS PRİORİTETLƏR 59

V. METODOLOGİYA 61

VI. İSTİNADLAR

# ABREVİATURALAR

| | |
|---|---|
| ASAN | Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi |
| VCT | Vətəndaş cəmiyyəti təşkilatı |
| AŞ | Avropa Şurası |
| ŞT | Şərq Tərəfdaşlığı |
| İHAK | İnsan hüquqları haqqında Avropa Konvensiyası |
| AİHM | Avropa İnsan Hüquqları Məhkəməsi |
| EWMI | Şərq-Qərb İdarəetmə İnstitutu |
| FATF | Maliyyə Tədbirləri üzrə İşçi Qrupu |
| MSHBP | Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt |
| ICNL | Qeyri-Kommersiya Hüququ üzrə Beynəlxalq Mərkəz |
| MK | Məcburi köçkün |
| MN | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi |
| ƏN | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi |
| QHT-lərə Dövlət Dəstəyi Şurası | Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası |
| QHT-lərə Dövlət Dəstəyi Agentliyi | Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi |
| AHT | Açıq Hökumət Tərəfdaşlığı |
| ATƏT | Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı |
| BMT | Birləşmiş Millətlər Təşkilatı |
| USAID | Amerika Birləşmiş Ştatları Beynəlxalq İnkişaf Agentliyi |

# I. QISA İCMAL

## Ölkə konteksti və vətəndaş cəmiyyəti mühiti üçün aktual olan mühüm tendensiyalar

2022-ci ildə ümumilikdə Azərbaycan kontekstində vətəndaş cəmiyyəti mühiti üçün aktual olan əsas hadisələr "Media haqqında" qanunun[1] qüvvəyə minməsi, "Siyasi partiyalar haqqında" qanun layihəsinin[2] təqdim edilməsi və Ermənistanla Azərbaycan arasında sərhəddə gərginlik və iki ölkə arasında sülh danışıqları olmuşdur.
2022-ci il sentyabrın 13-də Ermənistan və Azərbaycan sərhədində hər iki tərəfdən 280-dən çox əsgərin öldürülməsi ilə nəticələnən gərginlik[3] yaranmış və bu, gələcək sülh prosesinə xələl gətirmək riskini daşımışdır ki, bu da yerli və erməni VCT-lərin əməkdaşlığına başlanılması işini və iki ölkənin vətəndaş cəmiyyətləri arasında qarşılıqlı sülh quruculuğu layihələrini irəliyə aparmaq potensialına zərər yetirmişdir. Toqquşmadan sonra iki ölkə başçıları potensial sülh sazişi üzrə danışıqlar prosesini aparmaq üçün əvvəlcə 6 oktyabr 2022-ci ildə Praqada,[4] daha sonra 31 oktyabr 2022-ci ildə Rusiyanın Soçi şəhərində[5] görüşdülər.
"Media haqqında" qanun və "Siyasi partiyalar haqqında" qanun layihəsi vətəndaş cəmiyyətində müsbət qarşılanmadı. "Media haqqında" yeni qanun VCT toplumunda müxtəlif müzakirələrə, o cümlədən yeni qanunun onlayn mediaya nəzarət etmək üçün istifadə oluna biləcəyi qorxusuna səbəb oldu. "Siyasi partiyalar haqqında" qanun layihəsində də yeni məhdudiyyətlər müəyyən edilib. Qanun layihəsində əsasən siyasi partiyaların yaradılması, qeydiyyatı və fəaliyyətinə xitam verilməsində, habelə siyasi partiyaların fəaliyyətinə nəzarət qaydalarında yeni dəyişikliklər təklif edilir. Tənqidçilər qanunu vətəndaşların siyasi hüquqlarını həyata keçirmək imkanlarını pisləşdirən amil kimi qiymətləndirsə də,[6] hökumətyönlü məmurlar qanun layihəsini mütərəqqi və beynəlxalq sənədlərin tələblərinə uyğun hesab edirlər.[7]
COVID-19 ilə bağlı məhdudiyyətlər 2022-ci il ərzində də qüvvədə qalır. 1 may 2022-ci il tarixindən etibarən xüsusi karantin rejimi çərçivəsində tənəffüs orqanlarının fərdi mühafizəsi vasitələrindən (tibbi maska, respirator və s.) istifadə tələbi ləğv edilmişdir.[8]

---

[1] https://www.e-qanun.az/framework/49124
[2] https://www.meclis.gov.az/news-layihe.php?id=1749&lang=az&par=4
[3] https://www.bbc.com/russian/features-63872328
[4] https://www.consilium.europa.eu/en/press/press-releases/2022/10/07/statement-following-quadrilateral-meeting-between-president-aliyev-prime-minister-pashinyan-president-macron-and-president-michel-6-october-2022/
[5] https://president.az/en/articles/view/57744
[6] https://www.amerikaninsesi.org/a/6736321.html
[7] https://azertag.az/xeber/Milli_Meclisde_Siyasi_partiyalar_haqqinda_yeni_qanun_layihesi_ile_bagli_ictimai_dinleme_kechirilib-2347994
[8] https://nk.gov.az/az/article/2131/

Bununla belə, qonşu dövlətlərlə Azərbaycan Respublikası arasında quru sərhədləri bağlı qalmaqda davam etmişdir.

## Vətəndaş cəmiyyəti mühitində əsas dəyişikliklər

Ümumilikdə, 2021-ci illə müqayisədə 2022-ci ildə Azərbaycanda VCT mühitində ciddi dəyişiklik olmamışdır. Bununla belə, ümumi ölkə balı 2021-ci ildəki 4,2-dən 2022-ci ildə 4,1-ə enmişdir. Bu, böyük ölçüdə regional səviyyədə bütün ölkə ballarının yenidən nəzərdən keçirilməsi prosesinin nəticəsi olmuşdur. 2021-ci ildə bütün ölkələr üzrə təqdim edilən bütün ballarla bağlı vəziyyətin qiymətləndirilməsindən sonra tədqiqatçılardan bəzi sahələr üzrə balları yenidən qiymətləndirmələri xahiş edilmişdir, çünki Azərbaycanda vəziyyət digər ŞT ölkələrindəki vəziyyətdən daha yaxşı hesab edilməmişdir. Bu cür yenidən qiymətləndirmə ən çox 6-cı sahəyə (İfadə azadlığı), 9-cu sahəyə (Dövlətin dəstəyi) və 10-cu sahəyə (Dövlət-VCT əməkdaşlığı) təsir göstərmişdir.

Ən yüksək bal (hər biri müvafiq olaraq 4,6 bal) toplayan ilk üç sahə 2021-ci ildə olduğu kimi qalır və bunlar 5-ci sahə (Qərarların qəbulunda iştirak hüququ), 8-ci sahə (Dövlətin müdafiəni təmin etmək öhdəliyi) və 11-ci sahədir (Rəqəmsal hüquqlar). Ən az bal toplayaraq ən aşağıda qərarlaşan üç sahə də olduğu kimi qalır və bunlar 2-ci sahə (Bərabər rəftar – 3.6 bal), 3-cü sahə (Maliyyəyə çıxış – 3.0) və 4-cü sahədir (Dinc toplaşmaq azadlığı – 3.8). 5-ci sahə (Qərarların qəbulunda iştirak hüququ), 8-ci sahə (Dövlətin müdafiəni təmin etmək öhdəliyi) və 11-ci sahə (Rəqəmsal hüquqlar) ən yüksək bal toplayan sahələr olsa da, onların şkala üzrə 7 baldan 4,6-sını almasının səbəbi qanunvericilikdə təminatların qismən yer alması və qanunların praktikada qismən icrasından ibarətdir. Belə ki, 2014-2015-ci illərdən bəri hökumət tərəfindən VCT sektorunda aparılmış repressiyalardan sonra illər ərzində VCT sektorunun tənqidi rəylər bildirən təmsilçiləri ölkəni tərk etmiş və əsas VCT-lər sərt məhdudiyyətlərlə, o cümlədən cinayət və inzibati sanksiyalarla üzləşmişlər ki, bu da ölkədə zəif və məhdudlaşdırıcı VCT mühitinin olmasına və maliyyə imkanlarının məhdudluğuna gətirib çıxarmışdır. Mövcudluqlarını saxlamaq üçün Azərbaycanda VCT-lərin əksəriyyəti 2014-cü ildən bəri hökumətyönlü və ya ən azı bitərəf olaraq qalmışlar. Buna görə də, bu sahələrin nisbətən yüksək bal toplaması hökumətin belə şəraitdə hələ də qalan və fəaliyyət göstərə bilən VCT-lərə formal dəstəkləyici münasibətinin nəticəsidir. 2014-cü ildə VCT-lərə qarşı repressiyalardan bəri praktika və qanunvericilik sahəsində davamlı olaraq məhdudlaşdırılan mühit illər ərzində 2-ci (Bərabər rəftar – 3.6), 3-cü (Maliyyəyə çıxış – 3.0) və 4-cü (Dinc toplaşmaq azadlığı – 3.8) sahələrdə ümumi balların ən aşağı səviyyədə olmasına gətirib çıxarmışdır. VCT-lər kommersiya qurumları ilə müqayisədə bərabər rəftar baxımından hələ də böyük maneələrlə üzləşirlər, maliyyəyə çıxış imkanı həm praktiki, həm də hüquqi çətinliklər səbəbindən məhduddur və dinc toplaşmaq azadlığı təkcə VCT-lər üçün deyil, ümumilikdə bütün vətəndaşlar üçün hələ də olduqca problemlidir.

Ümumi ballarda azalma 5 sahədə qeydə alınmışdır ki, bunun da səbəbləri aşağıda göstərilir: 4-cü sahə (Dinc toplaşmaq azadlığı – ümumi bal 3,8) – əsasən ölkədə olduqca məhdud mühitin və VCT-lərin regionlarda toplantılar keçirməsinə qeyri-rəsmi icazə sisteminin illər ərzində dəyişməz qalması səbəbindən; 6-cı sahə (İfadə azadlığı – ümumi bal 4,2) – yeni qəbul edilmiş "Media haqqında" qanun və ifadə azadlığını davamlı olaraq məhdudlaşdıran mühit səbəbindən; 9-cı sahə (Dövlətin dəstəyi – ümumi bal 4,2) – əsasən könüllülərin fəaliyyəti üçün davamlı əlverişsiz şəraitin olması və vergi güzəştlərinin olmaması səbəbindən; 10-cu sahə (Dövlət-VCT əməkdaşlığı, ümumi bal – 4,1) və 11-ci sahə (Rəqəmsal hüquqlar, ümumi bal – 4,6) – müxalif tənqidi fikirlər səsləndirən subyektlər kimi tanınan media subyektlərinə münasibətdə rəqəmsal məhdudiyyətlərin tətbiqi və bəzi müxalif VCT üzvlərinin rəqəmsal hüquqlarının məhdudlaşdırılması və paralel olaraq "Media haqqında" yeni qanunun onlayn mediaya aid tələblərinin nəticə etibarı ilə VCT-lərə mane olan mövcud problemləri həll etməməsi və Azərbaycanda VCT mühitində illər ərzində əhəmiyyətli yaxşılaşmanın olmaması səbəbindən. Bundan əlavə, 6-cı sahədə (İfadə azadlığı) ümumi balın azalması media mühitinin məhdudlaşdırılması ilə bağlı beynəlxalq və yerli səviyyədə tənqidlərlə üzləşən yeni qəbul edilmiş "Media haqqında" qanunla əlaqələndirilə bilər.

Keçən il parlamentdə müzakirə edilən "Xeyriyyəçilik fəaliyyəti haqqında" qanun layihəsinin sonrakı taleyindən ictimaiyyət məlumatlı olmasa da, 2022-ci ildə Ədliyyə Nazirliyi VCT-lərə "fərdi elektron pəncərə sistemi" təqdim edib ki, bu da VCT-lərin hesabat öhdəliklərini onların qeydiyyat sənədlərində dəyişiklikləri və elektron qrantları qeydiyyata aldırmasına imkan verib.

Bundan başqa, VCT-lərlə bağlı bəzi tənzimləyici tədbirlər həyata keçirilib ki, bu da onların mühitinə həm müsbət, həm də mənfi təsir göstərəcək.

Hesabat dövründə VCT-lərə təsir edə biləcək bir neçə qanunvericilik aktı qəbul edilmişdir.

Həmçinin müsbət məqam ondan ibarətdir odur ki, hökumət Ədliyyə Nazirliyində VCT-lərə "fərdi elektron pəncərə sistemi" tətbiq etməklə VCT-lərin qrantlarının, xidmət müqavilələrinin, ianələrin qeydiyyatını, habelə reyestr məlumatlarında dəyişiklikləri (məsələn, sədrin dəyişməsini və ya idarə heyətində dəyişiklikləri) rəqəmsallaşdırılmaq səylərini davam etdirmişdir.

Bundan əlavə, 2022-ci ildə QHT-lərə Dövlət Dəstəyi Agentliyi tərəfindən keçirilən kiçik qrant müsabiqəsində 400 VCT-yə ümumi məbləği 3.259.000 manat (1.844.727 avro) təşkil edən vəsait verilib və 2022-ci ildə keçirilən "Şuşa ili" adlı xüsusi qrant

müsabiqəsində QHT-lərə Dövlət Dəstəyi Agentliyi ümumilikdə 23 VCT-yə ümumi məbləği 619.000 manat (350.379 avro) təşkil edən vəsait təqdim edib.[9]

Bununla belə, Azərbaycan mediasının VCT-lərlə əlaqələri arzuolunan səviyyədə deyil və media VCT-lərin fəaliyyətini işıqlandırmaqda maraqlı deyil.

Digər tərəfdən, hökumət məcburiyyət tədbirlərini həyata keçirməyə davam etmiş və həmçinin VCT-lərə mənfi təsir göstərəcək bir sıra qanunvericilik aktları/dəyişikliklər qəbul etmişdir.

Azərbaycan hökuməti xaricdən maliyyələşməyə şübhə ilə yanaşır və VCT sektoruna sərt dövlət nəzarəti həyata keçirməkdə davam edir. Azərbaycanda fəaliyyət göstərən əksər VCT-lər hələ də maliyyələşmə imkanından məhrumdur, çünki dövlət onların xarici donorlara çıxışını məhdudlaşdırır, yerli maliyyə mənbələri isə məhduddur. Belə vəziyyət bəzi müxalif siyasi partiyaların və jurnalistlərin hakimiyyətə qarşı səsləndirdiyi əsas tənqidi və müxalif fikirlərin səbəbidir. VCT sektoru əsasən neytraldır və dövlətə yaxın VCT-lər adətən müstəqil və ya hökuməti tənqid edən VCT-lərdən daha yaxşı imkanlara malikdir.

1 yanvar 2022-ci il tarixindən etibarən Vergi Məcəlləsində edilmiş bir çox yeni dəyişikliklər qüvvəyə minib və bu dəyişikliklərin bəziləri VCT-lərə mənfi təsir göstərir və onlar üçün əlavə öhdəliklər yaradır, belə ki, dəyişikliklər VCT-lərdən bank ödəniş tapşırıqlarında əlavə məlumat təqdim etmələrini tələb edir, həmçinin VCT-lər mühasibat uçotunun aparılması üçün mütəxəssis cəlb etməlidirlər (əks halda onlar mənfəət vergisi üzrə güzəşt əldə edə bilməyəcək və 5% vergi əvəzinə 20% ödəyəcəklər) və s.,[10] bu isə VCT-ləri qanunun tələblərinə cavab vermədiklərinə görə əlavə cəzalara məruz qoyur, çünki onlar adətən fəaliyyət göstərməkdən ötrü mühasibləri və digər mütəxəssisləri işə götürmək üçün maliyyə vəsaitinə malik deyillər.

## Əsas prioritetlər

Hökumət 2021-ciu il üçün VCT Ölçü Meyarı sənədində yer alan ölkə hesabatında müəyyən edilmiş əsas prioritetlərin yaxşılaşdırılması istiqamətində heç bir mühüm addım atmamışdır. Bunu nəzərə alaraq, VCT mühitini yaxşılaşdırmaq üçün hökumət və müvafiq qurumlar VCT-lər və bütün digər maraqlı tərəflərlə birlikdə qarşıdakı dövrdə keçən il olduğu kimi 11 sahədə 39 tövsiyədən yeddisinə prioritet verməlidirlər:

[9] QHT-lərə Dövlət Dəstəyi Agentliyinin məktubu.
[10] https://static.president.az/upload/Files/2021/12/29/1z1b02gfc5_QANUN_VERG_M_C_LL_YENI.pdf

1. Ədliyyə Nazirliyi, Nazirlər Kabineti və Parlament müddətləri azaltmaqla və Ədliyyə Nazirliyi tərəfindən subyektiv yanaşmanı aradan qaldırmaqla VCT-lərin qeydiyyatı prosedurunu sadələşdirməlidirlər;
2. Ədliyyə Nazirliyi və Parlament VCT-lərin qeydiyyatı prosesində və fəaliyyəti zamanı kommersiya qurumları ilə müqayisədə onlara münasibətdə bərabər rəftarı təmin etməlidirlər;
3. Parlament VCT-lərin hesabat öhdəliklərini onların ölçüsünə və dövriyyəsinə görə sadələşdirməlidir;
4. Prezident Administrasiyası VCT-lərin regionlarda tədbirlər keçirmək üçün icazə alması tələbini ləğv etməlidir;
5. Ədliyyə Nazirliyi və Nazirlər Kabineti qrantların və ianələrin qeydiyyatını sadələşdirməlidirlər (məsələn, qeydiyyatla bağlı qərarlarda subyektivliyi aradan qaldırmalı və prosesi asanlıqla əlçatan və sürətli etmək üçün rəqəmsallaşdırmalıdırlar və s.);
6. Parlament və Nazirlər Kabineti VCT-lərin xidmət müqavilələrini qeydiyyata alması tələbini ləğv etməlidirlər; və
7. Parlament və Nazirlər Kabineti kiçik ianələr (məsələn, hər il hər donor üçün 200 AZN/110 avro tələbi) haqqında hesabat vermək zərurətini aradan qaldırmalıdırlar.

# II. Azərbaycan rəqəmlərdə

## Əsas məlumatlar

Əhali (1 yanvar 2022-ci il tarixinədək olan məlumat): 10.156.400[11] | Adambaşına düşən ÜDM (2021): 5.384$[12] | VCT-lərin sayı (avqust 2021): 4.766[13] | Əhalinin hər 10.000 nəfərinə düşən VCT-lərin sayı: 4,7 | VCT-lərin qeydiyyat rüsumu (sentyabr 2020): 11 manat[14] (təxminən 6 avro) | "Dünyada azadlıq" hesabatında statusu (2022): 9 (qeyri-azad)[15] | "Dünya mətbuat azadlığı indeksi"ndə göstəricisi (2022): 39.40[16] (180 ölkə arasında 154-cü)

| | | |
|---|---|---|
| Ölkə üzrə bal: | 4.1 | ↓ |
| Qanunvericilik: | 4.5 | |
| Praktika: | 3.7 | ↓ |

*Ballar 1-7 aralığındadır, 1 mümkün ən aşağı balı (extremal əlverişsiz – avtoritar mühit) və 7 mümkün ən yüksək balı (extremal əlverişli mühit) göstərir.*

| Sahələr | Ümumi | Qanunvericilik | Praktika |
|---|---|---|---|
| Birləşmək azadlığı | 4.0 | 4.5 | 3.4 ↓ |
| Bərabər rəftar | 3.6 | 3.8 | 3.4 |
| Maliyyəyə çıxış | 3.0 | 3.2 | 2.8 |
| Dinc toplaşmaq azadlığı | 3.8 ↓ | 4.4 | 3.2 ↓ |
| Qərarların qəbulunda iştirak hüququ | 4.6 | 5.0 | 4.1 |
| İfadə azadlığı | 4.2 ↓ | 4.8 | 3.5 |
| Şəxsi həyatın toxunulmazlığı hüququ | 4.4 | 4.9 | 3.8 |
| Dövlətin müdafiəni təmin etmək vəzifəsi | 4.6 | 5.0 | 4.2 |
| Dövlətin dəstəyi | 4.2 ↓ | 4.4 ↓ | 3.9 ↓ |
| Dövlət-VCT əməkdaşlığı | 4.1 ↓ | 4.3 ↓ | 3.9 ↓ |
| Rəqəmsal hüquqlar | 4.6 ↓ | 4.8 ↓ | 4.3 ↓ |

[11] Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/source/demoqraphy/ap/.
[12] Dünya Bankı, https://data.worldbank.org/indicator/NY.GDP.PCAP.CD?locations=AZ.
[13] Report.az, https://report.az/daxili-siyaset/azerbaycandaki-siyasi-partiya-qht-ve-kiv-lerin-sayi-aciqlanib/.
[14] "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu, http://www.e-qanun.az/framework/2860.
[15] "Freedom House" təşkilatı, https://freedomhouse.org/country/azerbaijan/freedom-world/2022
[16] "Sərhədsiz Reportyorlar" təşkilatı, Ümumdünya Mətbuat Azadlığı İndeksi 2022, https://rsf.org/en/country/azerbaijan

# III. Qənaətlər

## 3.1 Birləşmək azadlığı

Sahə üzrə ümumi bal: 4.0 /7

| Qanunvericilik: 4.5 /7 | Praktika: 3.4 /7 |
|---|---|

Azərbaycanda birləşmək azadlığı Konstitusiya səviyyəsində təmin edilir. Müvafiq qanunvericilik VCT-lər üçün aydın qeydiyyat qaydalarını nəzərdə tutur və tələb olunan sənədləri müəyyən edir, amma eyni zamanda qeydiyyat prosesi kommersiya təşkilatları ilə müqayisədə uzun, bürokratik və ayrı-seçkilik xarakterli prosesdir. Bundan əlavə, Ədliyyə Nazirliyi praktikada qeydiyyata qanunsuz maneələr yaradır və çox zaman VCT-ləri qeydiyyata almaqdan imtina edir. Rəsmi statistikaya görə, Azərbaycanda qeydiyyatdan keçmiş 4.766 VCT var.

Ümumən birləşmək azadlığı sahəsinin balı eyni qalmışdır. Bu hesabat dövründə birləşmək azadlığı ilə bağlı hüquqi mühitdə ciddi irəliləyişlər müşahidə edilməmişdir. Həmçinin VCT-lərin ağır hesabat yükü və sərt cəzaların tətbiq edilməsi məsələsi yenidən nəzərdən keçirilməmişdir. Ədliyyə Nazirliyi tərəfindən VCT-lərin qeydiyyatından qeyri-qanuni imtina məktubları təqdim edilməklə praktikada davamlı maneələrin yaradılması praktika sahəsi üçün balı 2021-ci ildəki 3,5-dən 2022-ci ildə 3,4-ə endirmişdir.

Hökumət əvvəlki VCT Ölçü Meyarı hesabatında qeydiyyat və hesabat prosedurlarının təkmilləşdirilməsi ilə bağlı əsas tövsiyələr kimi qeyd olunan heç bir tövsiyəni nəzərə almamış və VCT-lərin birləşmək azadlığı istiqamətində heç bir müsbət dəyişiklik həyata keçirməmişdir. Buna görə də, 2021-ci il üçün verilmiş tövsiyələr 2022-ci il üçün eyni olaraq qalır.

**Standart I. Hər kəs sərbəst surətdə VCT yarada, VCT-yə qoşula və ya VCT-nin fəaliyyətində iştirak edə bilər.**

Bu azadlıqları təmin etmək üçün bir sıra qanunlar qəbul edilmişdir: “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Qanun; “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” Qanun; Mülki Məcəllə; “Qrant haqqında” Qanun; “Könüllü fəaliyyət haqqında” Qanun və s.

Beynəlxalq standartlara və təcrübəyə uyğun olaraq, Azərbaycan Respublikasının qanunvericiliyi qeydiyyatdan keçməmiş VCT-lərin fəaliyyətini qadağan etmir,[17] lakin onlar  qrant müsabiqələrində birbaşa iştirak edə və ya məhkəmə çəkişmələrində iddiaçı və ya cavabdeh ola, əmlak sahibi ola, öz adına bank hesabı aça və ya vergi ödəyicisinin eyniləşdirmə nömrəsini ala bilməzlər. Onlayn qaydada birləşmək nə tənzimlənir, nə də məhdudlaşdırılır.

Azərbaycan vətəndaşları üçün VCT-nin yaradılması, ona qoşulma və ya onun fəaliyyətində iştirakla bağlı prinsipcə heç bir ciddi problem yoxdur. Bununla belə, Qeyri-Kommersiya Hüququ üzrə Beynəlxalq Mərkəzin (ICNL) bildirdiyinə görə, "yalnız Azərbaycanda daimi yaşayan əcnəbi vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə birlik yaratmaq hüququnun təmin edilməsi beynəlxalq hüququn pozulmasıdır".[18] Eyni zamanda, əcnəbi vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin VCT-lərə üzv olması üçün heç bir məhdudiyyət yoxdur. Daimi yaşayış tələbi təsisçilərə, həmçinin VCT-lərin qanuni nümayəndələrinə (yəni, sədrlərinə) şamil edilir. Analoji olaraq, Azərbaycanda VCT-lər öz əcnəbi könüllüləri üçün rezidentliyi təmin edə bilməzlər, çünki miqrasiya qanunvericiliyində Azərbaycanda müvəqqəti və ya daimi yaşamaq üçün könüllülük əsas kimi qəbul edilmir.[19] Buna baxmayaraq, "Könüllü fəaliyyət haqqında" Qanun VCT-lərə xarici könüllülərə malik olmaq hüququ verir. VCT-lərin onlayn birləşmək hüququna gəldikdə, bunun üçün heç bir maneə yoxdur və VCT-lər öz fəaliyyətlərinin ərazi sərhədlərini seçməkdə sərbəstdirlər.

Qanunvericilik həmçinin hüquqi şəxslərə VCT yaratmaq və ya onlara qoşulmaq imkanı verir. Eynilə, VCT-lər sərbəst şəkildə koalisiya və ya hər hansı digər platformalar yarada bilərlər. Hökumət VCT-ləri nə koalisiyaya qoşulmağa, nə də koalisiyaları qeydiyyatdan keçirməyə məcbur edir. Koalisiyalar qeydiyyatdan keçməyən sərbəst birliklər kimi fəaliyyət göstərə bilərlər.[20]

27 fevral 2020-ci il tarixində "Açıq Hökumətin Təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı" qəbul olunsa da, hökumət birləşmək azadlığı ilə bağlı vəziyyəti yaxşılaşdırmaq üçün heç bir tədbir görməyib, Planda qeyd olunan bütün tədbirlər və VCT Ölçü Meyarında qeyd olunan birləşmək azadlığına dair tövsiyələr 2022-ci ildə əsasən həyata keçirilməmiş qalıb.

---

[17] QHT-lər haqqında qanun, 15-ci maddə.
[18] Azərbaycanda QHT-lər üçün hüquqi bazanın qiymətləndirilməsi, 2017, ICNL.
[19] Hədəf qrupu.
[20] Hədəf qrupu.

Ümumilikdə hökumət VCT-lərin yaradılmasında əcnəbilərə qarşı ayrı-seçkiliyin aradan qaldırılması və qeydiyyatdan keçməmiş VCT-lərin fəaliyyətinin asanlaşdırılmasına maneələrin azaldılması istiqamətində hələ də heç bir müsbət addım atmayıb.

### Standart II. VCT-ni hüquqi şəxs kimi qeydiyyatdan keçirmək proseduru aydın, sadə, tez baş verən və ucuzdur.

VCT-lərin qeydiyyatı üçün rəsmi qeydiyyat rüsumu ucuz olsa da, qanunda və praktikada prosedurun özü operativ deyil. Eynilə, VCT-lər üçün öz reyestr məlumatlarını yeniləmək və ya nizamnamədə dəyişiklik etmək asan deyil ki, bu da ümumilikdə onların fəaliyyətinə mane ola bilər.

VCT-lər uzun müddət davam edən (bəzən bir neçə il çəkən) proseslərdən, müxtəlif əsaslarla verilən imtina cavablarından, müxtəlif dövlət orqanlarından və ya yerli icra hakimiyyətlərindən dəstək məktubları təqdim etmək barədə yazılmamış tələblərdən və s.-dən şikayət edirlər.[21] Əvvəlki illərdə Azərbaycan VCT-lərin qeydiyyatı ilə bağlı problemlərə görə AİHM-də bir sıra işləri uduzmuşdur.[22] AİHM-in 2021-ci ilin may ayında bu məsələ ilə bağlı çıxardığı ən son qərarlarda Azərbaycanın 25 VCT-nin birləşmək azadlığı hüququnu pozduğu müəyyən edilib.[23] "Mehman Əliyev və başqaları Azərbaycana qarşı" (ərizə № 46930/10) işdə 12 QHT-nin, "Abdullayev və başqaları Azərbaycana qarşı" (ərizə № 69466/14) işdə isə 13 QHT-nin qeydiyyatından imtina edilməsi pozuntu kimi qəbul edilib.[24]

Standart qeydiyyat prosedurlarına əlavə olaraq, xarici VCT-lər Azərbaycanda ofisini qeydiyyata almaq üçün Ədliyyə Nazirliyi (ƏN) ilə razılığa gəlməlidirlər.[25] 2017-2021-ci illər ərzində Azərbaycanda xarici VCT-nin qeydiyyatdan keçməsi faktı barədə məlumat yoxdur.

Hökumət VCT-lərin ƏN-nin regional bölmələrində qeydiyyata alınmasına imkan verir. Lakin VCT-lər hələ də bu mexanizmin işləmədiyini bildirirlər və onlar qeydiyyat üçün ƏN-ə müraciət etməkdən ötrü Bakıya gəlməli olurlar.[26]

VCT-lər üçün qeydiyyat rüsumu aşağıdır (təxminən 6 avro), lakin qeydiyyatdan keçmək üçün fondların 10.000 AZN (təxminən 5.600 avro) kapitalı olmalıdır.

---

[21] Hədəf qrupu.

[22] Bax: *İsmayılov Azərbaycana qarşı, 17 yanvar 2008-ci il, ərizə № 4439/04, sayt: http://hudoc.echr.coe.int/sites/eng/pages/search.aspx?i=001-84461. Ramazanova və başqaları Azərbaycana qarşı, AİHM (ərizə № 44363/02, 1 fevral 2007-ci il).*

[23] https://csometer.info/updates/azerbaijan-european-court-human-rights-declares-refusal-register-25-ngos-illegal.

[24] https://csometer.info/updates/azerbaijan-european-court-human-rights-declares-refusal-register-25-ngos-illegal.

[25] "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 27 avqust tarixli Fərmanının 2.2-ci bəndi.

[26] Hədəf qrupu.

Hökumətin həm qanunvericilikdə, həm də praktikada VCT-lərə mənfi və bürokratik yanaşması əvvəlki illərdə olduğu kimi qalır.

Azərbaycanda bir çox VCT-lər onlarla əlaqəli olan kommersiya qurumları yaradıb və kommersiya fəaliyyəti üçün əlverişli mühit olduğuna görə bu qurumlar vasitəsilə fəaliyyət göstərirlər. Belə hallarda sahibkarlıq subyektinin təsisçisi(ləri) ya VCT-nin təsisçisi(ləri) və ya sədri(ləri), ya da VCT-nin özüdür.

Kommersiya qurumlarının regionlarda qeydiyyata alınması adi bir təcrübə olduğu halda, regionlarda VCT-lərin qeydiyyatı mümkün deyil. Eynilə, VCT-lərin onlayn qeydiyyatı mümkün deyil, kommersiya qurumları isə onlayn qeydiyyatdan keçə bilər.

### Standart III. VCT-lər öz məqsəd və vəzifələrini müəyyən etməkdə və yaradıldıqları ölkələr daxilində və xaricində fəaliyyət göstərməkdə sərbəstdirlər.

VCT-lər "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında"qanuna uyğun olaraq öz məqsəd və fəaliyyətlərini müəyyən etməkdə sərbəstdirlər. Praktikada qeydiyyat orqanı bunu heç də həmişə dəstəkləmir (məsələn, VCT Gənclər Fondundan qrant almaq hüququ əldə etmək üçün öz nizamnaməsinə "gənclər" sözünü əlavə etmək istədikdə). İnsan hüquqları, məcburi köçkünlər, qaçqınlar, qadın hüquqları, uşaq hüquqları, sosial təminat, təhsil, səhiyyə, idman və s. kimi məqsədlər yüzlərlə qeydiyyatdan keçmiş VCT-lər üçün ümumi məqsədlərdir.

VCT-lərin fəaliyyətini ölkə daxilində və xaricdə aparması ilə bağlı heç bir problem yoxdur. Azərbaycan VCT-lərinin bölmələrinin Gürcüstanda yaradılması ilə bağlı uğurlu nümunələr var.[27] Həmçinin 2018-2021-ci illərdə VCT nümayəndələri üçün səfər qadağası ilə bağlı heç bir hal qeydə alınmayıb.[28]

VCT-lərin əsas problemlərindən biri regionlarda tədbirlərin keçirilməsi üçün Prezident Administrasiyasından icazə almaq kimi yazılmamış prosedurdur. Regional VCT-lərin bildirdiyinə görə, Prezident Administrasiyasının təsdiqi kifayət qədər tez ola bilər, amma onlar hələ də yerli icra hakimiyyətləri səviyyəsində çətinliklərlə üzləşə bilərlər. Şübhəsiz ki, bu, onların benefisiarları ilə ünsiyyət qurmaq və yaxşı planlaşdırılmış, yüksək keyfiyyətli tədbirlər keçirmək imkanlarını məhdudlaşdırır. Müsbət hal olaraq bir sıra regional VCT-lər təsdiqlədilər ki, hökumət çox vaxt onların öz tədbirləri üçün təmtəraqlı ictimai məkanlardan ödənişsiz və ya xüsusi güzəştli qiymətə istifadə etmələrinə icazə verir.[29]

VCT-lərin regionlarda tədbirlər keçirmələri üçün qanunvericilikdə mövcud olmayan qeyri-rəsmi "icazə" sistemi aradan qaldırılmayıb və beləliklə, bu standart üzrə dəyişikliyin olmaması və statik vəziyyətin qalması ilə yanaşı, bu məsələ cari hesabat ilində də aktualdır.

---

[27] Hədəf qrupu.
[28] Hədəf qrupu.
[29] Hədəf qrupu.

**Standart IV. Tətbiq olunan istənilən sanksiya açıq və mütənasiblik prinsipinə uyğundur və istənilən məqsədə çatmaq üçün ən az müdaxilə vasitəsidir.**

VCT-lərə kommersiya hüquqi şəxsləri ilə bərabər qaydada tətbiq olunan müəyyən cəzalar vardır: vergi, sosial sığorta, lisenziyalaşdırma qanunvericiliyinin və digər qanunvericiliyin pozulmasına görə cərimələr. Digər cəzalar VCT-lər üçün spesifik cəzalardır: qrantların, ianələrin və ya xidmət müqavilələrinin qeydiyyatdan keçirilməməsi; illik maliyyə hesabatının təqdim edilməməsi; könüllülərlə müqavilə imzalanmaması; nağd pul ianələri üçün müəyyən edilmiş həddin aşılması və s. Adətən belə pozuntulara görə cəza çox yüksək olur. Məsələn, VCT-nin qrantı qeydiyyata aldırmaması 5000-7000 AZN-ə qədər (təxminən 2800-3900 avro)[30] cərimə ilə, ianənin məbləği və ianənin mənbəyi haqqında məlumatların Maliyyə Nazirliyinə (MN) təqdim edilən maliyyə hesabatına daxil edilməməsi isə 5000-8000 manat (təxminən 2800-4400 avro)[31] məbləğində cərimə ilə cəzalandırılır. VCT-yə 200 AZN-dən (təxminən 110 avro) artıq nağd pul ianə verən hər hansı fiziki şəxs 250-500 AZN (təxminən 140-280 avro), hüquqi şəxsin rəhbəri 750-1500 AZN (təxminən 420-830 avro), hüquqi şəxs isə 3500-7000 AZN (təxminən 1950-3900 avro) məbləğində cərimə ilə cəzalandırılır.[32] Hüquqi şəxslərin dövlət qeydiyyatı üçün yalan məlumatların təqdim edilməsinə görə fiziki şəxslər 700 manat (təxminən 390 avro), hüquqi şəxslər 4000 manat (təxminən 2200 avro) məbləğində cərimə ilə cəzalandırılır və s.[33] Üstəlik, bu sanksiyalar tətbiq olunmazdan əvvəl heç bir xəbərdarlıq edilmir.

VCT-lər belə yüksək cəzalardan narazıdırlar və bu, şübhəsiz ki, onların fəaliyyətinə mane olur. Eyni zamanda, bir çox VCT-lər təsdiqlədilər ki, adətən bu cəzalar VCT-lərə tətbiq edilmir.[34] 2018-ci ildə VCT-nin illik maliyyə hesabatını təqdim etməməsinə görə cərimələndiyi bir işdən sonra (həmin işdə MN-in qərarı sonradan məhkəmələrdə ləğv edildi),[35] ƏN hesabat dövründə heç bir VCT-ni cəzalandırmamışdır.[36]

Qanunvericilik VCT-nin məhkəmə qaydasında məcburi ləğvi üçün müəyyən əsasları nəzərdə tutur. Bu əsaslara, məsələn, VCT-nin Ədliyyə Nazirliyi tərəfindən göstərilən nöqsanı aradan qaldırmaması və bir il ərzində təşkilata iki dəfədən çox xəbərdarlıq edilməsi[37] daxildir. Ədliyyə Nazirliyinin rəsmi statistikasına görə, 2017-2021-ci illərdə VCT-nin məcburi ləğvi halları qeydə alınmayıb.[38] Həmçinin Ədliyyə Nazirliyi

---

[30] İnzibati Xətalar Məcəlləsinin 432-ci maddəsi.
[31] İnzibati Xətalar Məcəlləsinin 465-ci maddəsi.
[32] İnzibati Xətalar Məcəlləsinin 466.1-ci maddəsi.
[33] İnzibati Xətalar Məcəlləsinin 403-cü maddəsi.
[34] Hədəf qrupu.
[35] Məlumat Məşvərət Şurasının üzvlərindən biri tərəfindən təqdim edilmişdir.
[36] 2019 və 2020-ci illər üçün VCT-lərin Dayanıqlılıq İndeksi; Ədliyyə Nazirliyindən MG Consulting MMC-yə 03 dekabr 2021-ci il tarixli məktub (müəlliflərin sərəncamındadır).
[37] VCT qanunvericiliyin tələbini pozduqda, məsələn, ünvan dəyişikliyi barədə Ədliyyə Nazirliyinə məlumat verilməməsi, təşkilatın illik toplantısının keçirilməməsi və s. kimi hallar olduqda ƏN tərəfindən xəbərdarlıq edilə bilər.
[38] Ədliyyə Nazirliyindən 25 aprel 2019-cu il tarixli məktub (müəlliflərin sərəncamındadır); həmçinin VCT-lərin Dayanıqlıq İndeksi, 2020.

tərəfindən VCT-nin fəaliyyətinin dayandırıldığı barədə (yəni, üzvlər şikayət etdiyi təqdirdə üzvlərin hüquqlarının pozulmasına görə) heç bir məlumat qeydə alınmayıb. Məcburi ləğvetməyə dair qanunvericiliyə 2009-cu ildə *Təbiəti Mühafizə Cəmiyyəti Azərbaycana qarşı* işdən sonra yenidən baxılıb və o, hazırda VCT-lər üçün ciddi problem yaratmır.

VCT-lər müvafiq qərarı Ədliyyə Nazirliyinə təqdim etməklə könüllü olaraq öz fəaliyyətlərini dayandırmaq barədə qərar verə bilərlər. Bu, onları müxtəlif dövlət orqanlarına müvafiq hesabatlar təqdim etmək vəzifəsindən azad edir.

Bu standart üzrə vəziyyət eyni olaraq qalır və qanunvericilikdə VCT-lər üçün yüksək cəzaların ləğv edilməsi və ya azaldılması istiqamətində pozitiv mövqe müşahidə olunmayıb.

### Standart V. Dövlət VCT-lərin daxili işlərinə və fəaliyyətinə qarışmır.

İdarə heyətində dəyişiklik olduqda və ya sədr seçkiləri keçirildikdə hər dəfə hüquqi şəxslərin dövlət reyestrindən yeni çıxarışın alınması tələbi bu sənədin əldə edilməsində yaranan çətinliklər səbəbindən VCT-lərin fəaliyyətinə mane olmaqda davam edir. Ədliyyə Nazirliyi, digər xidmətlərlə yanaşı, VCT-lərin nizamnamələrində edilən dəyişikliklərin qeydiyyata alınması üçün fərdi elektron pəncərə (FEP) sistemi yaratmışdır ki, bu da VCT-lərin sənədlərini təqdim etmələrini asanlaşdırıb və sənədləşmə işlərinə az vaxt sərf etmələrinə şərait yaradıb.

ƏN VCT-lərin fəaliyyətinin öyrənilməsi qaydalarının,[39] habelə çirkli pulların yuyulması ilə bağlı qanunvericiliyin[40] şamil olunduğu VCT-lərdə yoxlamalar aparmaq səlahiyyətinə malikdir. VCT-ləri araşdırmaq səlahiyyətinə malik olan digər dövlət orqanları sırasına Vergilər Nazirliyi, Prokurorluq və Dövlət Məşğulluq Agentliyi daxildir. Ədliyyə Nazirliyi hər il yoxlanılacaq VCT-lərin siyahısını təsdiq edir və adətən qrantların, xidmət müqavilələrinin və ianələrin qeydiyyatını, çıxarışların etibarlılığını və digər məsələləri yoxlayır. Belə yoxlamalardan sonra Ədliyyə Nazirliyi VCT-yə xəbərdarlıq edə və ya cəza tətbiq edə bilər. 2020-ci ildə Ədliyyə Nazirliyi yalnız bir xəbərdarlıq edib ki,[41] bu da bütün əvvəlki illərlə müqayisədə ən aşağı rəqəmdir. 2021-ci il üçün heç bir məlumat yoxdur.

VCT-lərin fəaliyyəti üçün digər ciddi maneə ağır hesabat yüküdür. Məhdud maliyyə resursları və xarici qrantların qeydiyyatının çətinliyi səbəbindən VCT-lər bütün hesabat öhdəliklərinin yerinə yetirilməsini təmin etmək üçün daimi işçiləri (məsələn, hüquqşünaslar, mühasiblər, qaydalara riayət edilməsinə məsul işçilər və s.) işə götürə

---

[39] "Qeyri-hökumət təşkilatlarının, xarici qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin fəaliyyətinin öyrənilməsi Qaydaları", Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin (ƏN) Kollegiyası tərəfindən 28 dekabr 2015-ci ildə təsdiq edilmişdir.
[40] "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu, 2009-cu il.
[41] 2019 və 2020-ci illər üçün VCT-lərin Dayanıqlılıq İndeksi.

bilmirlər.[42] Beləliklə, VCT-lər yoxlamalar və onların fəaliyyətinin dayandırılmasına səbəb ola biləcək sonrakı cəzalar qarşısında köməksiz durumdadırlar.

Baxmayaraq ki VCT-lər üçün fərdi elektron pəncərə (FEP) sisteminin yaradılması səyləri VCT-lərin fəaliyyətini asanlaşdırmağa yönələn kiçik bir müsbət dəyişiklik kimi qəbul edilə bilər, VCT-lər üçün ağır hesabat öhdəlikləri hələ də mövcuddur ki, bu da VCT-lərin fəaliyyəti üçün hər hansı texniki dəyişikliyin VCT mühiti üçün əhəmiyyətsiz olmasına gətirib çıxarır. Buna görə də, bu standart üzrə də müsbət dəyişiklik baş verməyib.

**1-ci sahə üzrə xüsusi tövsiyələr:**

- Parlament əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin VCT-lər təsis etmək və onları idarə etmək hüquqları təmin etməlidir;
- Ədliyyə Nazirliyi, Nazirlər Kabineti və Parlament müddətləri azaltmaqla və ƏN tərəfindən subyektiv yanaşmanı aradan qaldırmaqla VCT-lərin qeydiyyat proseduru sadələşdirməlidir;
- Parlament ölçüsü və dövriyyəsindən asılı olaraq VCT-lərin hesabat öhdəlikləri sadələşdirməlidir;
- Prezident Administrasiyası regionlarda tədbirlərin keçirilməsi üçün icazə almaq tələbini ləğv etməlidir.

## 3.2 Bərabər rəftar

**Sahə üzrə ümumi bal: 3.6 /7**

**Qanunvericilik: 3.8 /7** | **Praktika: 3.4 /7**

Bərabər rəftar problemli sahələrdən biri olmaqda davam edir. Həm qanunvericilikdə, həm də praktikada VCT-lərə qarşı ayrı-seçkilik mövcuddur. Məsələn, VCT-nin qeydiyyat proseduru kommersiya qurumlarına nisbətən daha ləng, daha mürəkkəb və daha az əlçatandır. Eynilə, VCT-lərin hesabat yükü kommersiya qurumlarının yükündən xeyli ağırdır.

Hesabat dövründə bu sahədə ballarda heç bir dəyişiklik olmayıb və vəziyyət əvvəlki dövrdə olduğu kimi eyni olaraq qalır.

Hökumət əvvəlki hesabatda qeyd edilən tövsiyələrin və qeydiyyat prosesində və fəaliyyət zamanı kommersiya qurumlarına nisbətən VCT-lərə münasibətdə bərabər rəftarın təmin edilməsi kimi əsas tövsiyələrin nəzərə alınması istiqamətində heç bir addım atmayıb və

[42] Ətraflı müsahibə, №4.

qərar qəbul edənlərlə məsləhətləşmə proseslərində bir çox VCT-lərin bərabər əsasda iştirakı məsələsi hələ də aktualdır.

### Standart I. Dövlət bütün VCT-lərə kommersiya qurumları ilə bərabər münasibət göstərir.

Dövlət qeydiyyatı üçün dövlət rüsumuna gəldikdə, dövlət VCT-lərə kommersiya qurumları ilə bərabər münasibət göstərir. Təəssüf ki, qeydiyyat müddətinə gəlincə, burada bərabər rəftar yoxdur: kommersiya qurumlarının Vergi Xidmətində qeydiyyatı 1-3 gün, VCT-lərin isə Ədliyyə Nazirliyində qeydiyyatı 30 günə qədər vaxt aparır (hərçənd ki, praktikada bu, illərlə davam edə bilər). Kommersiya qurumlarının qeydiyyatından imtina yalnız nadir hallarda baş verir (məsələn, eyni hüquqi adı olan qurum artıq mövcud olduqda). Lakin VCT-lər üçün qeydiyyatdan imtinanın səbəbləri saysız-hesabsızdır (idarə heyətinin formalaşdırılması, VCT-nin missiyası, gəlir mənbələri və s. ilə bağlı məsələlər).

Bərabərsizliyin başqa bir nümunəsi hesabatlardır: VCT-lər üçün hesabat yükü kommersiya qurumlarına nisbətən xeyli ağırdır (məsələn, kommersiya qurumlarından fərqli olaraq, VCT-lərdən xidmət müqavilələrini qeydiyyata aldırmaq və ya MN-ə illik maliyyə hesabatı təqdim etmək tələb olunur). Qeyd etmək lazımdır ki, VCT-lər ianə almaq və könüllülərin xidmətlərindən istifadə etmək hüququna malikdir, kommersiya qurumları isə bu hüquqlara malik deyil.

Hesabat dövründə VCT-lər üçün yoxlamaların tezliyi kommersiya qurumları ilə eyni olmuşdur. Eyni zamanda, VCT-lər kredit əldə etmək imkanından məhrumdurlar və bəzi banklar VCT-lər üçün biznes (debet və ya kredit) bank kartları vermir, kommersiya qurumları üçün isə bu məsələdə heç bir məhdudiyyət yoxdur.[43]

Dövlət satınalmalarına gəldikdə, VCT-lər dövlət satınalmalarında kommersiya qurumları ilə bərabər şərtlərlə iştirak edə bilərlər. Məhdud maliyyə resurslarına görə VCT-lər bəzən dövlət satınalma tenderlərində iştirak üçün tələb olunan depoziti qoya bilmirlər.[44]

Narahatlıq doğuran digər məsələ ondan ibarətdir ki, İnzibati Xətalar Məcəlləsinə əsasən, VCT-lər üçün cərimələr kommersiya qurumları və fiziki şəxslər üçün analoji hüquqpozmalara görə cərimələrlə müqayisədə xeyli yüksəkdir. VCT-lər barəsində yüksək cəzalar hüquqpozmaların xarakteri ilə müqayisədə həddindən artıq və qeyri-mütənasib görünür. Şübhəsiz ki, bu cür cəzalar kommersiya qurumları və fiziki şəxslər tərəfindən törədilən oxşar hüquqpozmalara görə cəzalarla müqayisədə ayrı-seçkilik xarakterli cəzalar kimi görünür.

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər kommersiya qurumlarında təsisçi ola bilərlər, lakin VCT-nin təsisçisi olmaq üçün onların Azərbaycanda daimi yaşayış yeri olmalıdır. Analoji olaraq, istənilən əcnəbi vətəndaş kommersiya qurumlarına sərmayə

---

43 Hədəf qrupu.
44 Məlumat Məşvərət Şurasının üzvlərindən biri tərəfindən təqdim edilmişdir.

qoya bilər, halbuki əcnəbinin VCT-yə ianə şəklində xaricdən maliyyə vəsaiti verməsi qadağandır. Eynilə, VCT-lərin xarici mənbədən alınan bütün gəlirlərini qeydiyyata aldırmaları tələb olunur, kommersiya qurumlarının isə yalnız qrantları qeydiyyata aldırmaları tələb olunur.

Bu standart üzrə təsvir olunan vəziyyət dəyişməyib və hesabat dövründə VCT-lər üçün eyni olaraq qalır.

**Standart II. Dövlət bütün VCT-lərlə onların yaradılması, qeydiyyatı və fəaliyyətlərinə münasibətdə bərabər rəftar edir.**

Sosial xidmətlər göstərən təşkilatlar və gənclər təşkilatları hökumət tərəfindən insan hüquqları sahəsində fəaliyyət göstərən VCT-lərdən daha yaxşı münasibət görürlər. Bu cür əlverişli rəftar yerli VCT-lərlə müqayisədə xarici VCT-lərin timsalında o qədər də nəzərə çarpmır. Bunu Azərbaycanda fəaliyyət göstərən xarici VCT-lərin çox az olması ilə izah etmək olar.

Hökumət bəzi VCT-lərə digərlərindən daha müsbət yanaşır. Nəticədə bu qrup hökumətlə məsləhətləşmələrə daha tez-tez dəvət olunur və ya regionlarda tədbirlərin keçirilməsində daha az problemlə üzləşir.[45] Bəzi VCT-lər dövlət orqanları nəzdində yaradılmış çoxsaylı ictimai şuralarda təmsil olunur, digər VCT-lər isə heç birində təmsil olunmurlar. VCT-lərə münasibətdə bu cür xoşagəlməz rəftar və ümumi ayrı-seçkilik münasibəti hələ də mövcuddur və hesabat dövründə heç bir müsbət dəyişiklik baş verməyib.

### 2-ci sahə üzrə xüsusi tövsiyələr:

- Ədliyyə Nazirliyi və Parlament VCT-lərə münasibətdə qeydiyyat prosesində və fəaliyyətləri zamanı kommersiya qurumları ilə müqayisədə bərabər rəftarı təmin etməlidirlər;
- Hökumət və Parlament məsləhətləşmə proseslərində müxtəlif VCT-lərin bərabər iştirakını etməlidirlər.

## 3.3 Maliyyəyə çıxış

**Sahə üzrə ümumi bal: 3.0 /7**

**Qanunvericilik: 3.2 /7** | **Praktika: 2.8 /7**

VCT-lərin xarici maliyyəyə çıxış imkanları məhdud olaraq qalır. Maliyyə vəsaitlərinin qeydiyyatı ilə bağlı qanunvericilikdə və praktikada həddindən artıq tələblər var. Xarici

[45] Hədəf qrupu.

mənbədən alınan hər hansı gəlirin ƏN-də qeydiyyatdan keçməsi tələb olunur. Bu, VCT-lərin xarici müştərilərlə xidmət müqavilələrinə də aiddir ki, bu da Azərbaycana xas olan tələbdir. Azərbaycanda bir sıra dövlət maliyyələşdirmə mexanizmləri, o cümlədən birbaşa subsidiyalar, sosial müqavilələr və müxtəlif dövlət orqanlarının qrantları mövcuddur. Həmçinin VCT-lərə iqtisadi fəaliyyətlərdən gəlir əldə etməyə, ianələr və üzvlük haqları almağa icazə verilir.

Əvvəlki illə müqayisədə bu sahədə ciddi dəyişiklik baş verməyib və bu səbəbdən 2022-ci il üçün bu sahələr üzrə ballar dəyişməyib.

Əvvəlki VCT hesabatında qeyd olunan heç bir tövsiyə hökumət tərəfindən nəzərə alınmayıb və VCT-lərin maliyyəyə çıxışı üçün mühit hələ də məhdudlaşdırıcıdır və dəyişməmişdir. Yuxarıda göstərilən səbəblərə görə əvvəlki il üçün tövsiyələr 2022-ci il üçün də aktualdır. Bu sahə üzrə əsas tövsiyələr qrantların və ianələrin qeydiyyatının sadələşdirilməsi, xidmət müqavilələrinin qeydiyyata alınması tələbinin ləğvi və kiçik məbləğlər üçün anonim ianələrə qoyulan qadağanın aradan qaldırılmasıdır.

**Standart I. VCT-lər öz məqsədlərinə çatmaq üçün maliyyə və maddi mənbələr axtarmaqda, əldə etməkdə və istifadə etməkdə sərbəstdirlər.**

2014-2015-ci illərdən bəri xarici maliyyə mənbələrinə çıxışlarının məhdudlaşması VCT-lərə hələ də potensiallarını həyata keçirməyə imkan vermir. VCT-lərin bacarıqları daimi maliyyə yoxluğundan ciddi şəkildə məhdudlaşır. Mövcud qrantlar, VCT-lərin davamlılığını və professional inkişafını təmin etmək üçün kifayət etmir.

2021-ci ilin oktyabr ayına olan məlumata görə, Azərbaycanda VCT-lər üçün artıq 18 dövlət donoru var (yeniləri bunlardır: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Səhiyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi və s.). Onların arasında ən iriləri QHT-lərə Dövlət Dəstəyi Şurası[46] (onun yenidən təşkil edildiyi 2021-ci il istisna olmaqla – həmin il Prezidentin fərmanı ilə onun hüquqi statusu dəyişdirildi, öhdəlik və hüquqları genişləndirildi[47] və müvafiq olaraq, qrantların verilməsi 2021-ci ilin dekabrınadək dayandırıldı), Gənclər Fondu,[48] Kütləvi İnformasiya Vasitələrinə Dəstək Fondu[49] və Elmin İnkişafı Fondudur.[50] Digər dövlət donorları sırasına, məsələn, Təhsil Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Mədəniyyət Nazirliyi və s. daxildir.

VCT-lərə "sosial sifarişlər" yalnız Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən verilir ki, bu da əsasən bəzi sosial xidmətlərin VCT-lərə həvalə edilməsindən ibarətdir. 2020-ci ildə sosial xidmət müqavilələri bağlamaq üçün ən azı üç təklif olmuşdur. Məhdud sayda VCT adətən bir sahəyə (məsələn, qayğı mərkəzləri) yönələn bu cür müqavilələrdən faydalanır. Bu "sifarişlərin" məbləğləri adətən keçmiş QHT-lərə Dövlət Dəstəyi Şurasının verdiyi orta qrant məbləğindən yüksək olmuşdur.

---

[46] O, 2018-ci ildə 576, 2019-cu ildə 568, 2020-ci ildə isə 505 layihəni maliyyələşdirib; bax: http://cssn.gov.az/news.php?id=3648&lang=az and CSOSI 2019 and 2020. (keçidə sonuncu dəfə 02 noyabr 2021-ci ildə baxılmışdır)

[47] https://president.az/articles/51178.

[48] O, 2018-ci ildə VCT-lərə ümumi büdcəsi 683,500 AZN təşkil edən 99 qrant vermişdir (burada fiziki şəxslərə verilən qrantlar nəzərə alınmır); bax: https://youthfoundation.az/42251.

[49] http://kivdf.gov.az/.

[50] http://www.sdf.gov.az/az/generic/news/Detail/238.

İctimai birliklər üzvlük haqlarından gəlir əldə edə bilər, lakin üzvlük haqlarının gəlir vergisindən azad edilməsinə baxmayaraq, nadir hallarda bundan istifadə edirlər.

İanələrlə bağlı məhdudiyyətlər bəzi VCT-lərin fəaliyyətinə ciddi şəkildə mane olur, belə ki: a) anonim ianələr qadağandır; b) əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ianələri qadağandır; c) 200 AZN-dən artıq nağd pul ianələri qadağandır; d) hər donorun pasport məlumatları hətta 20 sentlik ianə üçün də qeyd olunmalı və Maliyyə Nazirliyinə təqdim edilməlidir; və e) qanunda xeyriyyə təşkilatı statusunun əldə edilməsi üçün aydın prosedurun olmamasına baxmayaraq, yalnız xeyriyyə təşkilatları[51] nağd ianə ala bilərlər.[52] 2020-ci ildə parlament komitəsində "Xeyriyyəçilik fəaliyyəti haqqında" qanun layihəsinin hazırlanması üçün işçi qrupu yaradılsa da, sonrakı müzakirələrdən ictimaiyyət məlumatlı deyil, qanun layihəsi ictimaiyyət üçün açıq olmayıb və bununla bağlı heç bir əlavə qərar qəbul edilməyib.[53]

Üzvlük haqları, ianələr və qrantlar Vergi Məcəlləsinə uyğun olaraq gəlir vergisindən azaddır. Bu azadolmadan yararlana bilmək üçün ianələr və qrantlar Ədliyyə Nazirliyində qeydiyyata alınmalıdır ki, bu da ən azı xarici qrantlarla bağlı asan deyil. Eyni zamanda, onların qeydiyyata alınmamasına görə yüksək cərimələr var. Qanunvericilikdə natural formada ianələrin adekvat tənzimlənməsi mövcud deyil.

İanə qutuları və kraudfandinq (kütləvi maliyyələşmə) vasitəsilə ianələrin alınması Azərbaycan qanunvericiliyində tənzimlənmir və bu mexanizmlər Azərbaycanda VCT-lər üçün əsasən naməlumdur. VCT-lər xarici kraudfundinq platformalarında vəsait toplaya bilər, lakin praktiki problemlərə və marağın olmamasına gətirib çıxaran qeyri-müəyyənliklər səbəbindən onları yerli istifadə üçün qeydiyyatdan keçirə biləcəklərinə zəmanət yoxdur. Həmçinin SMS-xeyriyyəçilik də olduqca nadir haldır. Azərbaycanda faiz xeyriyyəçiliyi və ya lotereyalardan gəlir kimi məsələlər barədə müddəalar yoxdur.

VCT-lərin xaricdə bank hesabları açmasına heç bir maneə yoxdur. Yerli banklara gəldikdə isə, onlar VCT-lərə öz qrant vəsaitlərinə çıxış imkanı verməzdən əvvəl qrantın qeydiyyatını yoxlayırlar. Bu, təkcə xarici qrantlara deyil, bütün qrantlara aiddir.

Vurğulamaq lazımdır ki, 200 AZN-dən (təxminən 110 avro) çox nağd ianələrin alınmasına görə cərimələr VCT-lərin belə ianələr vasitəsilə topladıqları məbləğlərə qeyri-mütənasibdir (cərimə 10.000 AZN-ə qədərdir, təxminən 5.600 avroyadək).[54] Son üç ildə buna görə heç bir cəza tətbiq edilməmişdir.[55] Qeydiyyatdan keçmiş VCT-

51 Azərbaycanda xeyriyyə təşkilatı statusunun alınması proseduru yoxdur. Praktikada nizamnamə məqsədləri "xeyriyyəçiliyi" özündə ehtiva edən VCT-lər "xeyriyyə təşkilatı" adlanır.

52 QHT-lər haqqında qanunun 24-1-ci maddəsi, İnzibati Xətalar Məcəlləsinin 465-ci maddəsi.

53 https://apa.az/az/xeber/daxili-siyaset/Xeyriyycilik-faliyyti-haqqinda-haqqinda-qanun-layihsinin-hazirlanmasi-ucun-Isci-Qrupu-yaradilib-604584.

54 İnzibati Xətalar Məcəlləsi, 2015-ci il, 466.2-ci maddə.

55 Ədliyyə Nazirliyindən MG Consulting MMC-yə 03 dekabr 2021-ci il tarixli məktub (müəlliflərin sərəncamındadır).

lərin öz adlarına bank hesabları açmaqda heç bir problemləri yoxdur. Təcrübədə bəzi özəl banklar VCT-lər üçün bizneslə müqayisədə daha yüksək haqq alırlar.[56] Digər çətinlik bütün hüquqi şəxslərə şamil olunan kassa əməliyyatları üçün ayda 15.000 AZN (təxminən 8.300 avro) məbləğində limitdir.[57]

VCT-ləri narahat edən məsələlərdən biri Gənclər Fondunun qrant müsabiqələrinin qaliblərini ictimaiyyətə təqdim etmək istəməməsi idi. Gənclər Fondunun saytında yalnız qaliblərin sayı göstərilir.[58]

Azərbaycanda fəaliyyət göstərən VCT-lər yuxarıda təsvir olunan qanunlardakı qaydalara praktikada əməl edirlər və hesabat ili də bu baxımdan fərqlənmir. Bu standart üzrə hələ də dəyişiklik yoxdur.

### Standard II. Yerli mənbələrlə müqayisədə xarici və beynəlxalq mənbələrdən əldə edilmiş maliyyə və maddi resurslara fərqli yanaşma mövcud deyil.

2014-cü ildən bəri qanunvericilikdə bir sıra məhdudlaşdırıcı müddəalar (yəni donorun Azərbaycanda nümayəndəliyi olmalı, ƏN ilə xüsusi müqavilə imzalamalı, layihənin maliyyə-iqtisadi əsaslandırılmasını təqdim etməlidir) VCT-lərin xarici qrant, ianə və xidmət müqavilələrinə çıxışına ciddi şəkildə maneə yaradıb. Hesabat dövründə Azərbaycanda yalnız bir neçə xarici qrant, o cümlədən Yaponiya səfirliyi, Aİ, BMT, ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID) və digər donorların qrantları qeydə alınıb.

Xidmət müqaviləsinin qeydiyyatı qrantdan daha asan olsa da, Avropada belə bir tələb olduqca qeyri-adi haldır. Belə müqavilələrdə yalnız sübutlarla təsdiqlənən xərclərdən sonrakı məbləğ vergiyə cəlb edilir. Azərbaycanda qeydiyyatı olmayan əcnəbi vətəndaşların və ya xarici hüquqi şəxslərin ianələri qadağandır.

Qeyd etmək lazımdır ki, Azərbaycan qanunvericiliyində xaricdən maliyyə almağa görə cinayət təqibi nəzərdə tutulmayıb. Eyni zamanda, xarici qrantları alanlara adətən mənfi münasibət bəslənilmir. 2017-2022-ci illər ərzində xaricdən maliyyələşən təşkilatların dövlət tərəfindən dəstəklənən mediada və ya hökumət tərəfindən damğalanması və ya hücuma məruz qalması halları baş verməyib. Bununla belə, hökumətin xarici maliyyələşdirməyə münasibəti dəyişməyib və hesabat dövründə bu standart üzrə kiçik də olsa müsbət irəliləyiş baş verməyib.

---

[56] Məşvərət Şurası Müzakirəsi, 19 yanvar 2022-ci il.
[57] Eyni mənbə.
[58] Məşvərət Şurası üzvlərinin iclası.

**3-cü sahə üzrə xüsusi tövsiyələr:**

• Ədliyyə Nazirliyi və Nazirlər Kabineti qrant və ianələrin qeydiyyatını sadələşdirməlidir (məsələn, qeydiyyat üçün qərarlarda subyektivlik aradan qaldırılsın, asanlıqla əlçatan olması üçün prosesin rəqəmsallaşdırılması və s.);
• Parlament və Nazirlər Kabineti xidmət müqavilələrinin qeydiyyata alınması tələbini ləğv etməlidirlər;
• Parlament əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin VCT-lərə ianə vermək hüququnu təmin etməlidir;
• Parlament və hökumət ianə qutularının istifadəsinin tənzimlənməsi üçün hüquqi bazanı təmin etməli və donorun müəyyən edilməsini çətin və ya qeyri-mümkün edə biləcək digər mexanizmlərin istifadəsinə icazə verməlidirlər;
• Parlament və Nazirlər Kabineti kiçik ianələr (məsələn, hər donor və hər il üzrə 200 AZN (təxminən 110 avro) və ya daha artıq) barəsində hesabat vermək tələbini aradan qaldırmalıdırlar;
• Parlament kiçik ianələrin (məsələn, hər donor və hər il üzrə 200 AZN) anonim qaydada verilməsinə qoyulan qadağanı ləğv etməlidir, hər donor və hər il üzrə 200 AZN).

## 3.4 Dinc toplaşmaq azadlığı

Sahə üzrə ümumi bal: 3.8 /7

| Qanunvericilik: 4.4 /7 | Praktika: 3.2 /7 |
|---|---|

Azərbaycanda dinc toplantılar üçün konstitusiya təminatı var. Buna baxmayaraq, bu məsələ beynəlxalq təşkilatların nöqteyi-nəzərinə görə həssas mövzu olaraq qalır. VCT-lərin sərbəst toplaşmaq azadlığı qanunla məhdudlaşdırılmasa da, onlar praktikada ciddi maneələrlə üzləşirlər. VCT-lər paytaxt Bakıda dinc toplaşmaq hüququndan regionlara nisbətən daha çox istifadə edirlər. Bu, regionlarda tədbirlərin keçirilməsi üçün icazə almaq kimi qeyri-rəsmi tələblə bağlıdır. Eyni zamanda, həm Bakıda, həm də regionlarda dövlət məkanlarının VCT-lərə ödənişsiz və ya güzəştli qiymətlərlə icarəyə verilməsi təcrübəsi mövcuddur.

Hesabat dövründə bu sahə üzrə ümumi bal 2021-ci ildəki 3,9-dan 2022-ci ildə 3,8-ə düşüb. Konkret olaraq, dinc toplaşmaq azadlığı sahəsində statik və davamlı məhdudlaşdırma praktikası 2022-ci ildə praktikada balın 3,3-dən 3,2-yə düşməsinə səbəb olmuşdur.

Hökumət əvvəlki hesabatda qeyd olunan tövsiyələri nəzərə almayıb və Azərbaycanda sərbəst toplaşmaq azadlığı ilə bağlı əlverişsiz vəziyyət davam edir və ona görə də bu sahə üzrə tövsiyələrdə heç nə dəyişməyib.

### Standart I. Hər kəs toplantılar təşkil etmək və onlarda iştirak etməklə dinc toplaşmaq azadlığı hüququndan sərbəst şəkildə istifadə edə bilər.

Fərdlərin və qrupların, o cümlədən VCT-lərin ayrı-seçkilik qoyulmadan dinc toplaşmaq azadlığı hüququ Azərbaycan Respublikasının Konstitusiyası ilə (49-cu maddə), habelə ölkənin BMT, Avropa Şurası, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına (ATƏT) üzvlüyü və əsas beynəlxalq və regional insan hüquqları müqavilələrinə[59] qoşulması vasitəsilə üzərinə götürdüyü öhdəlikləri ilə, eləcə də "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanunun 1-ci maddəsi ilə təmin edilir.[60]

"Sərbəst toplaşmaq azadlığı haqqında" Qanunun 7-ci maddəsinə əsasən,[61] "sərbəst toplaşmaq azadlığı yalnız qanunda nəzərdə tutulan və demokratik cəmiyyətdə zəruri olan hallarda, milli təhlükəsizlik və ya ictimai təhlükəsizlik mənafeləri üçün, iğtişaşların və ya cinayətin qarşısının alınması, sağlamlığın və mənəviyyatın, digər şəxslərin hüquq və azadlıqlarının qorunması üçün məhdudlaşdırıla bilər". Göründüyü kimi, "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanunun 7-ci və 8-ci maddələri toplantının məhdudlaşdırılması, qadağan edilməsi və ya dayandırılmasının əsaslarını aydın şəkildə müəyyən edir.

Təsadüfi (spontan) toplantılara gəlincə, yazılı bildirişin təqdim edilməsi tələb olunmur ("Sərbəst toplaşmaq azadlığı haqqında" Qanunun 5-ci maddəsi), lakin onlar Qanunun 7 və 8-ci maddələrində göstərilən tələblərə uyğun olaraq məhdudlaşdırıla və ya dayandırıla bilər.

Praktikada sərbəst toplaşmaq azadlığı Azərbaycanda həssas məsələdir və BMT-nin İnsan Hüquqları Komitəsi[62] və BMT-nin İnsan hüquqları müdafiəçiləri üzrə xüsusi məruzəçisi[63] də daxil olmaqla beynəlxalq təşkilatlarda narahatlıq doğuran mövzudur, belə ki, onlar dinc toplantıların keçirilməsinə icazə verməkdən əsassız imtinalar və belə toplantıların dağıdılması halları barədə məlumat veriblər. Lakin bunlar əsasən siyasi partiyalara aiddir, vətəndaş cəmiyyətinə isə daha az dərəcədə aiddir, hərçənd ki, bu sahədə VCT-lər hələ də texniki problemlərdən azad deyillər. İcazəsiz mitinqlərdə iştirak edən insanlar dindirilmək üçün polis bölməsinə gətirilə bilər, lakin praktikada bu, məhdud sayda fəallara münasibətdə baş verir.

---

59 İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyası, 25 dekabr 2001-ci ildə ratifikasiya edilib, 10-cu maddə, https://www.echr.coe.int/Documents/Convention_ENG.pdf.

60 "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanun, 13 noyabr 1998-ci il, http://www.e-qanun.az/framework/3229.

61 "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanun, 13 noyabr 1998-ci il, http://www.e-qanun.az/framework/3229.

62 İnsan Hüquqları Komitəsinin Azərbaycanın dördüncü dövri hesabatı üzrə yekun qeydləri (CCPR/C/AZE/CO/4), noyabr 2016-cı il.

63 İnsan hüquqları müdafiəçilərinin vəziyyəti üzrə xüsusi məruzəçinin Azərbaycana səfərinə dair məruzəsi (A/HRC/34/52/Add.3), fevral 2017-ci il.

Hesabat dövründə Azərbaycanda hökumət tərəfindən icazə verilən dinc toplantıların hər hansı mühüm və geniş nümunəsi yoxdur və beləliklə bu standart üzrə qeyd edilən qanunvericilikdə və praktikada vəziyyət dəyişməmişdir.

### Standard II. Dövlət dinc toplantılara şərait yaradır və onları qoruyur.

Dinc toplantıların təşkilatçılarının toplantı barədə 5 iş günü qabaqcadan səlahiyyətli orqanlara məlumat verməleri tələb olunur ki, bu da praktikada icazənin alınması tələbi kimi şərh olunur (praktikada çox vaxt icazə verməkdən imtina edilir).[64] Eyni qanun icazə verməkdən imtina üçün əsasları nəzərdə tutur (7-9-cu maddələr), imtina qərarına riayət edilməməsi cinayət əməlidir və iki ilədək azadlıqdan məhrum etmə ilə cəzalandırılır.[65] "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanuna uyğun olaraq dövlət tərəfindən icazə verilmiş yığıncaq, mitinq, nümayiş, küçə etirazı və piketlərin keçirilməsinin qarşısının alınması İnzibati Xətalar Məcəlləsinin[66] 180-ci maddəsinə uyğun olaraq fiziki şəxslərə 500-3000 manat (təxminən 280 avrodan 1600 avroyadək), hüquqi şəxslərə isə 15.000 manatdan 30.000 manata qədər (təxminən 8.300 avrodan 16.600 avroyadək) cərimə tətbiq edilməsinə səbəb ola bilər. Dövlət orqanlarının dinc toplantılarla bağlı qərarlarına sonradan məhkəmə tərəfindən yenidən baxıla bilər ("Sərbəst toplaşmaq azadlığı haqqında" Qanunun 11-ci maddəsi). Məhkəmə prosesləri müəyyən vaxt apardığından, məhkəmə baxışının toplantının planlaşdırıldığı tarixdən əvvəl baş tutması ehtimalı azdır. Dinc toplantılarla bağlı dövlət orqanlarının qərarlarını mübahisələndirmək üçün müxtəlif hüquqi mexanizmlər mövcuddur.[67]

Aşağıda 3-cü standartla bağlı müzakirədə qeyd edildiyi kimi, VCT-lərin toplaşmaq hüququ böyük şəhərlərdə və toplaşmanın olduqca mürəkkəb prosedur olduğu bölgələrdə fərqli şəkildə şərh olunur. Həqiqətən də, bir çox regional VCT-lər təsdiq etdilər ki, Prezident Administrasiyasından regionlarda tədbir keçirmək üçün icazə kifayət qədər tez biz zamanda verilir, halbuki onun yerli hakimiyyət orqanları tərəfindən icra olunma səviyyəsində hələ də problemlər var. Toplantıların təşkil edilməsi və ya əlaqələndirilməsi üçün istifadə edilən internet rabitəsinə Qarabağ müharibəsi zamanı müvəqqəti məhdudiyyətlər qoyulmuşdu.

Bəzi fəallar hökuməti tənqid edənlərə, siyasi fəallara və jurnalistlərə qarşı cinayətlərə görə cəzasız qalmağa son qoyulması üçün həm onlayn çağırışlar etmiş, həm də küçə mitinqləri təşkil etmişlər.[68]

İllərdir Azərbaycan hökuməti dinc toplantıların keçirilməsinə şərait yaratmaqda və ya onları qorumaqda maraqlı olmayıb və bununla bağlı yeni heç nə baş verməyib.

---

64 "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanunun 5-ci maddəsi.
65 Cinayət Məcəlləsi, maddə 169.1.
66 İnzibati Xətalar Məcəlləsi, 29 dekabr 2015-ci il, http://e-qanun.az/code/24.
67 İnzibati Prosessual Məcəllə, 7 aprel 2017-ci ildə edilmiş son dəyişikliklərlə, http://e-qanun.az/code/20.
68 https://freedomhouse.org/country/azerbaijan/freedom-net/2022

### Standart III. Dövlət dinc toplantıların təşkilatçıları və ya iştirakçılarının üzərinə gərəksiz öhdəliklər qoymur.

Yuxarıda qeyd edilən (VCT-lərin iştirak etmədiyi) ictimai mitinqlərdən başqa, qanun VCT-lərin təşkil etdiyi tədbirlər barədə hökumətə məlumat verilməsini tələb etmir. Buna baxmayaraq, bütün rayonlarda icra hakimiyyətləri tərəfindən qeyri-rəsmi "icazə" sistemi tətbiq edilir. VCT-lər milli hakimiyyət orqanına və ya bəzi hallarda Prezident Administrasiyasına müraciət etmək məcburiyyətində qalırlar ki, o da sonradan VCT tədbirinin təşkilinə razılıq verdiyi barədə yerli icra hakimiyyəti orqanlarına məlumat verir. Bu müraciətləri dövlət orqanları öz mülahizələri əsasında rədd edə bilərlər. "İcazələr" sisteminin birbaşa təsiri ondan ibarətdir ki, bəzən cavab çox gec gəlir və bu, VCT-lərin fəaliyyətinə xələl gətirir və onların işinin keyfiyyətinə təsir göstərir.[69] Həmçinin VCT-lər tərəfindən verilən məlumatlara əsasən dövlət orqanlarının digər dövlət qurumlarına inamsızlığı mövcuddur, belə ki, regionlarda "icazə" praktikası hökumət donorları tərəfindən verilən və Ədliyyə Nazirliyi tərəfindən müvafiq qaydada qeydə alınan qrantlara da tətbiq edilir.[70]

VCT tədbirlərinin keçirilməsi üçün "icazələrin" alınması ilə bağlı heç bir xərc nəzərdə tutulmayıb və buna əməl edilməməsinə görə hər hansı hüquqi sanksiyalar tətbiq edilmir. Bununla belə, icazəsiz tədbirlər təşkilatçılara qarsı hüquqa zidd təzyiqlərlə nəticələnə bilər. Paytaxt Bakıda, Mingəçevir və ya Gəncə kimi  digər böyük şəhərlərdə bu təcrübə tətbiq edilmir və VCT-lər ünvanlı dəvətlərdən və ya sosial mediadan istifadə edərək ictimai tədbirlər təşkil etməkdə sərbəstdirlər.

Dövlət hələ də bu qeyri-qanuni "icazə" sistemindən praktikada istifadə edir və 2022-ci ildə bu məsələdə müsbət heç nə baş verməyib.

### Standard IV. Hüquq-mühafizə orqanları dinc toplantıları dəstəkləyir və nümayəndələrinin hərəkətlərinə görə cavabdehlik daşıyırlar.

"Sərbəst toplaşmaq azadlığı haqqında» Qanunda (14-cü maddə) dinc toplantılar zamanı güc tətbiq edilməsi ilə bağlı dəqiq qaydalar mövcuddur. Bununla belə, müvafiq "icazə" alınmadan keçirilən VCT tədbirlərinin hüquq-mühafizə orqanları tərəfindən dağıdılması halları qeydə alınmayıb. Adətən hüquq-mühafizə orqanlarının əməkdaşlarını geyimindən tanımaq olur, lakin mülki geyimdə olan əməkdaşlar da olur. Digər tərəfdən, Azərbaycan hökumətinin dinc toplantılara qarşı qeyri-dost münasibəti də dəyişməyib.

---

[69] Hədəf qrupu.
[70] Hədəf qrupu.

4-cü sahə üzrə xüsusi tövsiyələr:

- Parlament qanunvericilikdə dəyişikliklər etməli və dinc toplantıların keçirilməsinə icazədənsə, əvvəllcədən məlumatlandırma praktikası tətbiq edilməlidir; və
- Parlament VCT-lərə hakimiyyət orqanlarının dinc toplantılara icazə verməyən qərarlarından operativ şikayət etmək imkanı vermək üçün həmin qərarlara məhkəmə tərəfindən baxılması prosesini sürətləndirməlidir.

## 3.5 Qərarların qəbulunda iştirak hüququ

Sahə üzrə ümumi bal: **4.6** /7

Qanunvericilik: **5.0** /7 | Praktika: **4.1** /7

Azərbaycanda VCT-lərin qərarların qəbulunda iştirakı üçün çoxsaylı vasitələr mövcuddur. Bunların ən geniş yayılmış formaları işçi qruplarında, ictimai şuralarda və ictimai müzakirələrdə VCT-lərin iştirakıdır. Bununla belə, elə hallar olur ki, VCT-lərə birbaşa təsir göstərən qərarlarla bağlı onlarla məsləhətləşmələr aparılmır. Dövlət orqanları qanun layihələrini ictimaiyyətə açıqlamadıqda və ya VCT-lərlə paylaşmadıqda həmin layihələri əldə etmək, bir qayda olaraq, VCT-lər üçün asan olmur. Bu sahədə ayrı-ayrı dövlət orqanlarının təcrübəsi də fərqlənir. Nazirlər Kabinetinin qərarlarının qəbul edilməsi prosesinə VCT-lərin cəlb edilməsi ilə bağlı xüsusi problem mövcuddur, çünki bu prosesdə VCT-lərlə demək olar ki, heç vaxt məsləhətləşmələr aparılmır.

Hesabat dövründə bu sahədə ümumi bal dəyişməyib, qanunvericilik və praktika üzrə ballar da dəyişməz qalıb. İctimai şuraların üzvlərinin seçilməsində və fəaliyyətində problemlər hələ də qalmaqdadır.

Əvvəlki il üçün tövsiyələr hələ də aktualdır və onlar bu hesabat dövrü üçün də dəyişməyib.

**Standard I. Hər kəs qərarların qəbulunda iştirak etmək hüququna malikdir.**

Azərbaycan Respublikasının Konstitusiyası ölkə vətəndaşlarının qərarların qəbulu prosesində birbaşa və seçilmiş nümayəndələr vasitəsilə iştirak etmək hüququnu təmin edir.[71] Vətəndaşların "cəmiyyətin və dövlətin siyasi həyatında maneəsiz iştirak etmək hüququ vardır"[72] (maddə 54.1). "İctimai iştirakçılıq haqqında" qanunda vətəndaşların və vətəndaş cəmiyyəti institutlarının hökumət qərarlarının qəbulunda aşağıdakı

---

[71] Azərbaycan Respublikasının Konstitusiyası, 1, 2, 50, 54, 55, 57, 58, 94, 96 və 130-cu maddələr, 27 noyabr 1995-ci il, 26 sentyabr 2016-cı il tarixli referendumla edilmiş son dəyişikliklərlə, http://e-qanun.gov.az/framework/897.

[72] Konstitusiya, maddə 54. 1.

üsullarla iştirakı nəzərdə tutulur: 1) dövlət həyatının və ictimai həyatın müxtəlif sahələrində dövlət siyasətinin hazırlanması və həyata keçirilməsi; 2) ümummilli və yerli səviyyələrdə qərarların qəbul edilməsi; 3) mərkəzi və yerli icra hakimiyyəti və özünüidarə orqanlarının fəaliyyəti üzərində ictimai nəzarətin təşkil edilməsi; 4) dövlət orqanlarının cəmiyyətlə məsləhətləşmələri; 5) ictimai rəyin nəzərə alınması; 6) ictimai rəyin öyrənilməsi; 7) qanunvericilik layihələrinin ictimai müzakirəsi; və 8) yazılı məsləhətləşmələr.

Qanun dövlət orqanlarının ictimai şura yaratmasını onların vəzifəsi kimi deyil, hüququ kimi müəyyən edir; buna görə də, 19 dövlət orqanı ictimai şura yaradıb[73] və bundan əlavə regionlarda yerli icra hakimiyyəti orqanları yanında 10-dan artıq ictimai şura mövcuddur.[74] İctimai Şuraların yaradılması prosesinə başlayan dövlət orqanlarına ən son misal olaraq Dövlət Reklam Agentliyini və Mədəniyyət Nazirliyini göstərmək olar.

VCT-lərin məsləhətləşmələrə cəlb edilməsi praktikası tədricən genişlənir. Doğrudur, bəzi dövlət orqanları digərlərinə nisbətən müzakirələrə daha açıqdırlar[75] və geniş müzakirələr təşkil edirlər, həmin müzakirələr o cümlədən Azərbaycanın sınaqdan çıxmış mexanizmi olan Açıq Hökumətin Təşviqinə dair Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platforması (Açıq Hökumət Tərəfdaşlığı (AHT) Platforması) vasitəsilə keçirilir, bu platforma 2016-cı ilin sentyabrında yaradılıb və 10 dövlət orqanını və 44 VCT-ni,[76] məsələn, Dövlət Gömrük Komitəsini, Dövlət Miqrasiya Xidmətini və sairəni özündə birləşdirir.

Elə hallar olub ki, qanunvericilik aktı maraqlı tərəflərlə müzakirə aparılmadan qəbul edilib və sonradan ləğv olunub, çünki onun praktikada tətbiqi, demək olar ki, qeyri-mümkün olub.[77]

"Konstitusiya" Araşdırmalar Fondu və "Prioritet" Sosial İqtisadi Araşdırmalar Mərkəzi İctimai Birliyi tərəfindən həyata keçirilən layihələr çərçivəsində Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə 6 iyun 2022-ci il tarixində "Azərbaycanda ictimai iştirakçılıq təcrübəsi və mövcud qanunvericiliyin təkmilləşdirilməsi" mövzusunda dəyirmi masa keçirilmişdir. İctimai şuraların sədrləri və üzvləri də daxil olmaqla əllidən çox QHT nümayəndəsi,

---

[73] Məsələn, Ədliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Gənclər və İdman Nazirliyi, Daxili İşlər Nazirliyi, Səhiyyə Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Dövlət Miqrasiya Xidməti, Dövlət İmtahan Mərkəzi, ASAN və s.

[74] İctimai Şura, www.ictimaishura.az.

[75] Hədəf qrupu.

[76] AHT, "AHT Platformasına yeni üzvlər qəbul edilib", 3 yanvar 2019-cu il, http://ogp.org.az/az/index.php/2019/01/03/azerbaycan-aciq-hokumet-platformasina-yeni-uzvler-qebul-edilib/.

[77] Bu səbəbdən Nazirlər Kabinetinin 31 yanvar 2019-cu il tarixli 30 nömrəli qərarı ilə təsdiq edilmiş "Meşə təsərrüfatına dəymiş ziyana görə maddi məsuliyyətə cəlb edilmə qaydaları" (http://www.e-qanun.az/framework/28863) Nazirlər Kabinetinin 6 fevral 2019-cu il tarixli 41 nömrəli müvafiq qərarı ilə ləğv edilib, http://www.e-qanun.az/framework/41385.

Milli Məclisin, Nazirlər Kabinetinin, Ombudsmanın, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının, Ədliyyə Nazirliyinin, Baş Prokurorluğun, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın nümayəndələri tədbirdə iştirak etmişlər.[78]

Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi Azərbaycanın regionlarında "QHT-dövlət əməkdaşlığında yeni çağırışlar: ictimai nəzarət mexanizmlərinin gücləndirilməsi" mövzusunda zona konfransları təşkil edib.[79]

Bundan əlavə, VCT-lər ictimai şuralarda iştirakla bağlı narahatlıqlarını hökumətə təqdim ediblər və USAID-in ECSOFT layihəsi çərçivəsində "İnkişafa Doğru Qadın Təşəbbüsü" İctimai Birliyi 2022-ci ilin iyun ayında əsasən ictimai şuralarda iştirak edən 84 VCT nümayəndəsinin iştirakı ilə elektron sorğu keçirib ki, bunda da məqsəd ictimai şuraların fəaliyyətinin, ictimai şuralara seçkilər prosesinin qiymətləndirilməsi və bu istiqamətdə aparılan işlərin təkmilləşdirilməsindən ibarət olub. Sorğunun nəticəsi olaraq VCT-lər bir sıra tövsiyələr təqdim ediblər. Məsələn, ictimai şuralar müvafiq qurumlardan asılı olmamalı, tam müstəqil fəaliyyət göstərməli, monitorinqlərin nəticələrini ictimaiyyətə çatdıra bilməli, hesabatlılığın şəffaflığını təmin etməlidir. Seçkilər zamanı şəffaflığın qorunması üçün yüksək səviyyəli monitorinq qrupunun yaradılması zəruridir və s.[80]

Hökumətin təşəbbüsü ilə baş tutmuş yuxarıda qeyd olunan bütün müsbət irəliləyişlər hökumətin VCT-lərlə işləmək istəyində bir qədər yaxşılaşma olduğunu göstərir ki, bu da müsbət dəyişiklik kimi qeyd edilə bilər.

### Standart II. Dövlət siyasətinin hazırlanması, həyata keçirilməsi və monitorinqində VCT-lərin mütəmadi, açıq və səmərəli iştirakına şərait yaradan aydın, sadə və şəffaf mexanizmlər və prosedurlar mövcuddur.

Milli Məclis qanun layihəsinin parlamentdə birinci oxunuşuna qədər üç ay müddətində öz internet saytı vasitəsilə bütün maraqlı tərəflərin rəy və təkliflərini toplamaq vəzifəsini daşıyır.[81] Həmçinin "İctimai iştirakçılıq haqqında" Qanunda

---

78 https://ogp.org.az/az/index.php/2022/06/08/muzakire-edilib/

79 https://azertag.az/xeber/QHT_dovlet_emekdasliginda_yeni_chagirislar_ictimai_nezaret_mexanizmlerinin_guclendirilmesi_movzusunda_zona_konfransi_kechirilib_VIDEO-2143805

80 https://ictimaishura.az/details/az/6629

81 "İctimai iştirakçılıq haqqında" Qanunun 18-ci maddəsi. Həmçinin bax: "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə", Nazirlər Kabinetinin 30 may 2014-cü il tarixli 171 nömrəli qərarı ilə təsdiq edilib, http://e-qanun.az/framework/27803; "Mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin keçirilməsi Qaydası", Nazirlər Kabinetinin 30 may 2014-cü il tarixli 172 nömrəli qərarı ilə təsdiq edilib, http://e-qanun.az/framework/27804. Qanun layihələri ilə əlaqədar ictimai dinləmələrin keçirilməsi üçün qaydalar Milli Məclisin Daxili Nizamnaməsində müəyyən edilib.

siyasətin həyata keçirilməsi, monitorinqi və qiymətləndirilməsi prosesində məşvərətçi qurumlar vasitəsilə VCT-lərin iştirakının təmin edilməsi nəzərdə tutulur. Lakin bu qanunda ictimai iştirakçılığın səmərəliliyini azaldan bəzi müddəaların olması, eləcə də real mexanizmlərin təmin edilməsi üçün bir çox yardımçı normativ hüquqi aktların olmaması ictimai iştirakçılığın praktikada tətbiqinə çoxlu problemlər yaradır.[82]

2021-ci ilin dekabr ayında Nazirlər Kabinetinin qərarlarının qəbulu prosesində ictimai müzakirə təşkil olunmaması səbəbindən 140-dan çox VCT Baş nazirə məktubla müraciət etsə də,[83] 2022-ci il ərzində hökumət tərəfindən bununla bağlı heç bir müsbət addım atılmamışdır.

2021-ci ilin oktyabr ayından etibarən USAİD-in ECSOFT layihəsi çərçivəsində ictimai şuralar üçün yaradılmış onlayn platforma - "ictimaishura.az" hələ də fəaliyyət göstərir. Platformanın əsas məqsədi ictimai şuralar haqqında ictimaiyyətin məlumatlılığının artırılması və onların fəaliyyət göstərdiyi dövlət qurumlarının işində şəffaflığın artırılmasıdır. Platforma mərkəzi və yerli icra hakimiyyəti orqanları yanında 30 ictimai şuranı əhatə edir. İctimai şuraların sayı artdıqca paralel olaraq platformada şuraların sayı da artacaq. Sayt xəbərlər, elanlar, seçkilər, qanunvericilik, nəşrlər, hesabatlar, multimedia və ictimai şuralar bölməsindən ibarətdir.[84]

VCT-lər şikayət etmişlər ki, dövlət VCT-ləri dövlət tərəfindən təşkil edilən müzakirələrə dəvət edərkən selektiv yanaşma tətbiq edir və müzakirələrə əsasən dövlət rəsmilərinə yaxın VCT-lər dəvət olunur.[85]

Hökumət hələ də dövlət siyasətinin işlənib hazırlanması, həyata keçirilməsi və monitorinqinə VCT-ləri fəal surətdə cəlb etmir ki, bu səbəbdən də vəziyyət ötən ildəki kimi qalır.

### Standart III. VCT-lər onların səmərəli iştirakçılığı üçün zəruri olan məlumatlara çıxış əldə etmək imkanına malikdirlər.

Azərbaycan Respublikası dövlət idarəçiliyi sisteminin şəffaflığını təmin etmək öhdəliyini götürüb.[86] Qanunvericiliyə əsasən, mərkəzi və yerli icra hakimiyyəti orqanları öz internet saytlarında xüsusi bölmə ayıraraq normativ hüquqi aktların və qanunların layihələrini orada yerləşdirməli və saytlarında vahid "elektron hökumət"

---

[82] Sahib Məmmədov, İctimai iştirakçılıq, Monitorinq hesabatı, Bakı, 2017, http://ogp.org.az/wp-content/uploads/2017/02/PUBLIC-PARTICIPATION.pdf.

[83] https://www.qht.az/index.php?action=static_detail&static_id=48312

[84] https://www.qht.az/index.php?action=static_detail&static_id=46575&fbclid=IwAR0DXPV7oJRXKaqUwoNxas90Ig18_J-CzgXgOw3AxJ-vyMwUF7znKW0vcx0

[85] Məşvərət Şurası üzvlərinin iclası.

[86] Birləşmiş Millətlər Təşkilatının Korrupsiya əleyhinə Konvensiyası. Doc. A/58/422. 14 dekabr 2005-ci il. 2005-ci ildə ratifikasiya olunub. http://www.unodc.org/documents/treaties/UNCAC/Publications/Convention/08-50026_E.pdf.

portalı ilə əlaqələndirici linkin olmasını təmin etməlidirlər.[87] Həmçinin dövlət orqanlarının qərarların qəbulu prosesi ilə bağlı bütün informasiyaları dərc etmələrinin şərtləri və müddətləri (ictimaiyyətin rəy və təkliflərinin toplanması üçün 60 gün) nəzərdə tutulub.[88] Lakin *Milli Məclisin* bu sahədə fəaliyyətləri istisna olmaqla bu müddəalar az hallarda icra olunur.[89] Həmçinin vətəndaşların rəylərinin toplanması üçün vahid onlayn platforma da yoxdur.

İnformasiya ombudsmanının səlahiyyətləri İnsan hüquqları üzrə müvəkkilə (Ombudsman) həvalə edilmişdir.[90] Formal olaraq Ombudsman geniş səlahiyyətlərə malik olsa da, bütün müşahidəçilər razılaşırlar ki, Ombudsman Aparatı praktiki olaraq informasiyaların əldə edilməsini səmərəli şəkildə təmin etmək iqtidarında deyil, çünki bu qurum bu sahədə xüsusi səriştəyə malik deyil.[91]

Hesabat dövründə bir çox dövlət qurumları öz internet saytlarında çoxlu məlumatlar, o cümlədən ətraflı illik hesabatlar yerləşdirdiyi üçün məlumat əldə etməklə bağlı məsələlər təkmilləşməkdə davam etmişdir. Bununla belə, dövlət qurumları hansı məlumatları açıqlamaq məsələsində diskresion səlahiyyətə malikdirlər.[92] Praktikada yazılı sorğu əsasında məlumat əldə etmək çox çətindir,[93] belə ki, "İnformasiya əldə etmək haqqında" qanunun 21.2.3-cü maddəsində boşluq vardır ki, bu da dövlət orqanlarının məlumat verməkdən imtina etmələrini texniki səbəblərlə əsaslandırmalarına imkan verir.[94] Buna görə də respondentlərin təxminən yalnız yarısı (56 faiz) bildiriblər ki, qanun layihələrini əldə etməyi asan hesab edirlər. Digər çəkindirici element standart sorğu formalarında şəxsi məlumatların təqdim edilməsi tələbidir.[95] Həmçinin qeyd etmək lazımdır ki, bir çox hallarda VCT-lər informasiya sorğusu verməyə çox da maraq göstərmirlər.

Yuxarıda göstərilən tənzimləmə problemləri hələ də mövcuddur ki, bu da hesabat ili ərzində bu standart üzrə heç bir dəyişiklik baş vermədiyini göstərir.

---

87 "İnformasiya əldə etmək haqqında" qanun, 30 sentyabr 2005-ci il, maddə 29.1.10, http://www.e-qanun.az/framework/11142.

88 "İctimai dinləmə və ictimai müzakirələrin keçirilməsi Qaydası".

89 Hədəf qrupu.

90 *"Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda (28 dekabr 2001-ci il) dəyişikliklər edilməsi barədə Konstitusiya Qanunu (24 iyun 2011-ci il),* http://www.e-qanun.az/framework/22060.

91 Ətraflı müsahibə № 3.

92 Hədəf qrupu.

93 Hədəf qrupu.

94 "İnformasiya əldə etmək haqqında" Qanun, 30 sentyabr 2005-ci il, maddə 21. Sorğu edilən informasiyanın həcmi iri olduğundan sorğunun icrası informasiya sahibinin üzərinə qoyulmuş ictimai vəzifələrin yerinə yetirilməsinə ciddi maneə yaradırsa və ya əsassız böyük məsrəflərə səbəb olursa, sorğunun icrasından imtina edilə bilər, http://www.e-qanun.az/framework/11142.

95 Hədəf qrupu.

### Standard IV. Qərarların qəbulunda iştirak siyasi fəaliyyətlərdən və lobbiçilikdən fərqlənir.

"Qrant haqqında" Qanuna əsasən (maddə 1.4) aşağıdakı məqsədlər üçün istifadə edilən maddi yardım qrant sayılmır: 1) siyasi hakimiyyət uğrunda mübarizə məqsədləri; 2) qanunların və digər qanunvericilik aktlarının qəbul etdirilməsi üzrə lobbiçilik fəaliyyəti; 3) siyasi reklam 4) hər hansı siyasi təşkilatın (təşkilatların) və ya siyasi xadimin (xadimlərin) seçki kampaniyasının maliyyələşdirilməsi üçün.[96] VCT-lər prezident, parlament və bələdiyyə seçkilərində iştirak edə, habelə siyasi partiyalara maliyyə və digər maddi yardım göstərə bilməzlər (maddə 2.4). Praktikada VCT-lər lobbiçi və ya peşəkar vəkil qurumu kimi qeydiyyata alınmadan və ya hər hansı digər əlavə inzibati və ya maliyyə yükü tələb olunmadan ictimai maraqların müdafiəsi fəaliyyətləri ilə məşğul olmaqda sərbəstdirlər. Şübhəsiz ki, VCT-lərin üzbəüz təmaslara əsaslanan təşviqat tədbirləri (məsələn, dəyirmi masalar, görüşlər və digər ictimai tədbirlər) keçirmələrinin maliyyələşdirilməsinin məhdudluğu səbəbindən VCT-lərin ictimai maraqları müdafiə etmək potensialı məhduddur. Regionlarda tədbirlər keçirmək (fəaliyyət həyata keçirmək) üçün icazə almaq tələbi bu durumu daha da ağırlaşır. Amma nisbətən sərbəst sosial mediadan istifadə edilməsi bu durumu müəyyən qədər balanslaşdırır, belə ki, Azərbaycan göstəricisini 2018-ci ildəki 60 baldan 2021-ci ildə 35-ə çatdıraraq yaxşılaşdırıb.[97] Yerli və beynəlxalq təşkilatlar 2021-ci ildə hökuməti tənqid edən VCT-lərə qarşı təzyiq halları barədə məlumat verməyiblər. Eyni sözlər 2022-ci ildəki vəziyyətə də aiddir. Hesabat dövründə yeni heç nə baş verməyib.

### 5-ci sahə üzrə xüsusi tövsiyələr:

- Hökumət milli səviyyəli dövlət orqanlarının və yerli icra hakimiyyəti orqanlarının üzərinə ictimai şuralar yaratmaq, habelə şuranın fəaliyyətləri barədə ictimaiyyətə hesabat vermək vəzifəsi qoymalıdır;
- Hökumət məlumat təqdim etməkdən imtina üçün texniki (formal) səbəblərin əsas gətirilməsini aradan qaldırmalıdır;
- Hökumət vahid onlayn resurs yaratmalı və qanun layihələrinin Milli Məclis tərəfindən məcburi ictimai müzakirələrindən əlavə, milli səviyyəli bütün dövlət orqanlarının və bütün yerli icra hakimiyyəti orqanlarının üzərinə yardımçı normativ hüquqi aktların layihələrini ictimaiyyət və VCT-lər tərəfindən nəzərdən keçirilmək üçün dərc etmək vəzifəsi qoymalıdır;
- Parlament "İnformasiya əldə etmək haqqında" qanunda dəyişiklik edilərək icra hakimiyyəti orqanlarının üzərinə məlumat verməkdən imtinanı əsaslandırmaq

---

[96] "Qrant haqqında" Qanun, maddə 4.1, 17 aprel, 1998-ci il.

[97] Bax: 2021-ci il üçün internet şəbəkəsində azadlığa dair hesabat; sayt: https://freedomhouse.org/sites/default/files/2021-09/FOTN_2021_Complete_Booklet_09162021_FINAL_UPDATED.pdf.

vəzifəsi qoymalı, eləcə də əsassız imtinaya görə cəza İnzibati Xətalar Məcəlləsinə daxil edilməlidir;

- Hökumət Nazirlər Kabinetində VCT-lərlə məsləhətləşmələrin, xüsusən də VCT-lərə təsir edən qərarlarla bağlı məsləhətləşmələrin aparılmasını təmin etməlidir.

## 3.6 İfadə azadlığı

**Sahə üzrə ümumi bal: 4.2 /7**

| Qanunvericilik: 4.8 /7 | Praktika: 3.5/7 |
|---|---|

2022-ci ildə Azərbaycanda ifadə azadlığı olduqca problemli olmaqda davam edir. VCT-lərin bu sahədəki fəaliyyəti əsasən onlayn sosial şəbəkələrlə məhdudlaşır və VCT-lər hökuməti tənqid etməkdə çox ehtiyatlıdırlar. Azərbaycandakı VCT-lər öz fəaliyyətləri üçün Facebook, Instagram və YouTube-dan geniş istifadə edirlər. Eyni zamanda VCT-lər məlumat verənlərin müdafiəsi ilə bağlı maddənin hazırlanmasında fəal iştirak ediblər. Buna baxmayaraq, böhtan cinayət olaraq qalır.

Əsasən yeni qəbul edilmiş "Media haqqında" qanunla əlaqədar hesabat dövründə bu sahə üzrə bütün ballar aşağı düşüb. "Media haqqında" yeni qanun Azərbaycanda ifadə azadlığı üçün daha məhdudlaşdırıcı hüquqi mühit yaradır ki, bu da ifadə azadlığını praktikada da məhdudlaşdıra bilər. Bundan əlavə, ifadə azadlığı sahəsində vəziyyət illər ərzində davamlı olaraq dəyişməz qalmış və bu da öz növbəsində ballara mənfi təsir göstərmişdir. Qeyd olunan səbəblərdən istər qanunvericilikdə, istərsə də praktikada keçən illə müqayisədə ballar azalmışdır. Ümumi bal 2021-ci ildəki 4,3-dən 2022-ci ildə 4,2-yə, qanunvericilik üzrə bal 2021-ci ildəki 5,0-dan 2022-ci ildə 4,8-ə, praktika üzrə bal isə 2021-ci ildəki 3,6-dan 2022-ci ildə 3,5-ə enib. Buna görə də, onlayn media resurslarının bloklanmasının ciddi şəkildə qanunvericiliyə uyğun aparılması, diffamasiyanın dekriminallaşdırılması və onun cinayət deyil, inzibati xəta kimi qiymətləndirilməsi və praktikada senzuranın aradan qaldırılması və tənqidi fikirlər səsləndirən jurnalistlərə və VCT fəallarına təzyiqin dayandırılması kimi əsas tövsiyələr daxil olmaqla əvvəlki illərdə verilmiş bütün tövsiyələr 2022-ci il üçün hələ də aktualdır.

### Standart I. Hər kəs fikir və ifadə azadlığı hüququna malikdir.

Azərbaycan Respublikasının Konstitusiyası fərdlərin və qrupların, o cümlədən VCT-lərin fikir və ifadə azadlığı hüququnu təmin edir (47-ci maddə). Bu hüquqa həm də ölkənin BMT-yə, AŞ-yə və ATƏT-ə üzvlüyü, həmçinin insan hüquqlarına dair əsas beynəlxalq və regional müqavilələrə qoşulması vasitəsilə götürdüyü öhdəliklərlə təminat verilir.[98] Konkret olaraq VCT-lərin və vətəndaşların məlumatları axtarmaq, əldə etmək və yaymaq hüququ Konstitusiyada təmin edilir (50-ci maddə) və bu sahəyə

[98] İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyası (10-cu maddə), 25 dekabr 2001-ci ildə ratifikasiya olunub, https://www.echr.coe.int/Documents/Convention_ENG.pdf; İnsan hüquqları haqqında Avropa Konvensiyasının 15 saylı Protokolu, 2014-cü ildə ratifikasiya olunub, https://www.echr.coe.int/Documents/Protocol_15_ENG.pdf.

aid bir neçə qanunda daha təfsilatlı şəkildə əks olunur.[99] Ayrı-seçkiliyə, düşmənçiliyə və ya zorakılığa təhrikçiliyi özündə ehtiva edən nifrətin təbliği qanunla açıq-aydın qadağan edilib və Cinayət Məcəlləsinin bir neçə maddəsinə (101, 214-2, 220.2 və 281) əsasən buna görə iki ildən on iki il müddətinədək azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulur.[100]

İfadə azadlığı Azərbaycanda həssas məsələ olaraq qalmaqda davam edir.[101] VCT-lərin çoxu özünüsenzura tətbiq edir və "qırmızı xətti" keçmir, bu səbəbdən onlar rəylərini ifadə etdiklərinə görə problemlərlə qarşılaşmırlar.[102] Bundan fərqli olaraq, vətəndaş cəmiyyəti jurnalistlərlə müqayisədə daha çox söz azadlığına malikdir və rəylərini ifadə etməkdə sərbəstdir.

Cinayət Məcəlləsində nifrət aşılayan çıxışlara görə sanksiyalar nəzərdə tutulub (283-cü maddə) və cəzalar 1.000 manatdan 2.000 manatadək (təxminən 550 avrodan 1.100 avroyadək) cərimədən tutmuş iki ilədək islah işlərinə və iki ildən dörd ilədək azadlıqdan məhrumetmə cəzasınadək geniş diapazonda dəyişir. Nifrət aşılayan çıxışların qeydə alındığı hallar barədə məlumat yoxdur.

2020-ci il martın 17-də "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər qəbul edilib.[103] Nəticədə, yeni əlavə edilmiş 13-2.3.10-1-ci maddədə deyilir:

> İnternet informasiya ehtiyatının və onun domen adının sahibi və ya informasiya-telekommunikasiya şəbəkəsinin istifadəçisi həmin informasiya ehtiyatında (informasiya-telekommunikasiya şəbəkəsində) aşağıdakı yayılması qadağan edilən informasiyanın yerləşdirilməsinə yol verməməlidir: insanların həyat və sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının törədilməsi, ictimai təhlükəsizliyin kütləvi şəkildə pozulması, həyat təminatı obyektlərinin, maliyyə, nəqliyyat, rabitə, sənaye, energetika və sosial infrastruktur obyektlərinin fəaliyyətinin pozulması və ya başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhdidini törədən yalan məlumatlar.

Bəzi VCT üzvləri[104] yeni əlavə edilmiş dəyişikliklərin geniş həcmdə şərh oluna biləcəyi və hökumət tərəfindən sosial şəbəkələrdə ifadə azadlığının qarşısının alınmasında rol oynaya biləcəyi ilə bağlı narahatlıqlarını ifadə ediblər.

---

99 "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" qanun, 10 iyun 1999-cu il, http://www.e-qanun.az/framework/31281; "İnformasiya əldə etmək haqqında" qanun, 30 sentyabr 2005-ci il, http://www.e-qanun.az/framework/11142.
100 Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, 30 dekabr 1999-cu il, www.e-qanun.az.
101 Hədəf qrupu.
102 Hədəf qrupu.
103 http://e-qanun.az/framework/44788.
104 http://www.turan.az/ext/news/2020/3/free/Interview/az/122579.htm.

Qanunlarda əks olunan hüquq normaları çox vaxt Azərbaycanda sərt siyasi məhdudiyyətlərə məruz qalan ifadə azadlığı ilə bağlı real vəziyyətə uyğun gəlmir. 2022-ci ildə bu sahədə mühit dəyişməyib.

### Standart II. Dövlət fikir və ifadə azadlığına şərait yaradır və onu qoruyur.

Dövlət həm ifadə və fikir azadlığına şərait yaratmaq üçün hüquqi bazada dəyişiklik edib, həm də bu sahədə vəziyyəti daha da pisləşdirmək üçün "Media haqqında" qanun qəbul edib.

"Dövlət rüsumu haqqında" qanuna edilən dəyişikliyə əsasən, ümumrespublika yerüstü televiziya yayımçısına lisenziyanın alınmasına görə dövlət rüsumu 10 dəfə azaldılıb və 5000 manat (təqribən 2900 avro) müəyyən edilib. Əvvəllər eyni lisenziyaya görə dövlət rüsumu 50 000 manat (təxminən 29 000 avro) idi. Dəyişiklik 2022-ci il aprelin 15-də qəbul edilib və 2022-ci il mayın 6-da qüvvəyə minib.[105]

8 fevral 2022-ci ildə qüvvəyə minmiş "Media haqqında" qanun ifadə azadlığı ilə bağlı vəziyyəti daha da pisləşdirdi və 20 iyun 2022-ci ildə Venesiya Komissiyası və Avropa Şurasının İnsan Hüquqları və Qanunun Aliliyi Baş Direktorluğu (DGI) "Media haqqında" Azərbaycan Respublikasının Qanununa dair birgə rəylərini[106] açıqladılar. Rəydə Azərbaycanda "Media haqqında" yeni qanunu beynəlxalq standartlar baxımından təhlil edilir və hökumətə ona yenidən baxılması tövsiyə olunur. Sonda Komissiya qeyd edir ki, "bir çox müddəalar ifadə və media azadlığına dair Avropa standartlarına uyğun gəlmir və medianın "ictimai nəzarətçi" rolunu səmərəli şəkildə həyata keçirməsinə imkan vermir.

Baxmayaraq ki, 2017-ci ilin martında edilmiş dəyişikliklərlə diffamasiya barəsindəki qanunvericilik onlayn və sosial mediaya da şamil olunur, qanun internetin sərbəst istifadəsinə heç bir məhdudiyyət qoymur.[107] Sosial şəbəkələr Azərbaycanda nisbətən sərbəst müzakirə platforması təşkil edir; məsələn, internetdə hesab yaratmaq və ya materiallar yerləşdirmək üçün xüsusi icazə və ya konkret inzibati təlimatlara riayət etmək tələb olunmur.

2022-ci ildə sosial mediada paylaşımlar edilməsinə görə formal təqib halları olmayıb.

Azərbaycan qanunvericiliyi onlayn resursların bloklanmasının hüquqi əsaslarını nəzərdə tutur. Nəqliyyat, Rəqəmsal İnkişaf və Rabitə Nazirliyi sayt rəhbərliyinə xəbərdarlıq etməlidir ki, səkkiz saat ərzində təhqiredici materialı silsin, əks halda sayt

---

105 https://e-qanun.az/framework/49556

106 https://www.venice.coe.int/webforms/documents/?pdf=CDL-AD(2022)009-e

107 "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 iyun tarixli Fərmanında dəyişikliklər edilməsi haqqında 16 mart 2017-ci il tarixli Prezident Fərmanı, http://e-qanun.az/framework/35125.

bloklanacaq.[108] Prosessual normalar pozulmaqla ənənəvi və onlayn medianın bloklanması halları barədə məlumatlar var.

Cinayət Məcəlləsinin 147, 148-1 və 323-cü maddələrində şəxsiyyətin şərəf və ləyaqətinə zərər yetirən məlumatların yayılmasına görə cinayət məsuliyyəti müəyyən edilir.[109] Diffamasiyanın dekriminallaşdırılması prosesi, belə görünür ki, Hökumətin prioritetləri sırasında deyil. Müsbət məqam ondan ibarətdir ki, hesabat dövründə vətəndaş cəmiyyəti haqsız təzyiqə məruz qalmamışdır.

"Media haqqında" yeni qanunun birbaşa VCT-lərlə bağlı olmamasına baxmayaraq, hökumətin ifadə azadlığına şərait yaratdığını söyləmək mümkün deyil. Ümumi vəziyyət

### 6-cı sahə üzrə xüsusi tövsiyələr:

- Hökumət və məhkəmələr onlayn media resurslarının bloklanmasının ciddi şəkildə qanunvericiliyə uyğun həyata keçirilməsi təmin etməlidirlər;
- Parlament qanunvericilikdə dəyişiklik edərək diffamasiyanı dekriminallaşdırmalı və cinayət əməli deyil, inzibati xəta kimi müəyyən etməlidir;
- Hökumət praktikada senzuranı aradan qaldırmalı və tənqidi fikirlər səsləndirən jurnalistlərə və VCT fəallarına qarşı təzyiqləri dayandırmalıdır.

## 3.7 Şəxsi həyatın toxunulmazlığı hüququ

Sahə üzrə ümumi bal: 4.4 /7

| Qanunvericilik: 4.9 /7 | Praktika: 3.8 /7 |
|---|---|

Azərbaycan Respublikasının qanunvericiliyi VCT-lər və VCT-lərin üzvləri də daxil olmaqla hər kəsin şəxsi həyatının toxunulmazlığı hüququnu təmin edir və bu sahədə VCT-lərə qarşı heç bir ayrı-seçkilik yoxdur. 2017-2021-ci illərdə VCT sektoru üzvlərinin şəxsi həyatının toxunulmazlığı hüququna qanunsuz müdaxilə halları olmayıb. Eynilə, dövlət tərəfindən VCT-lərin və VCT nümayəndələrinin fərdi məlumatlarının qorunması hüququnu pozan müdaxilə, eləcə də VCT-lərin ofislərinə müdaxilə halları (istər hüquqi, istərsə də praktiki) aşkar edilməyib.

VCT-lərdən idarə heyətinin yeni üzvləri, o cümlədən sədri haqqında idarə heyətinin seçkilərindən sonra 40 gün ərzində Ədliyyə Nazirliyinə məlumat vermələri tələb olunsa da, onların üzvləri və əlaqəli şəxslər haqqında fərdi məlumatların təqdim edilməsi tələb olunmur.

---

[108] "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 iyun tarixli Fərmanında dəyişikliklər edilməsi haqqında 16 mart 2017-ci il tarixli Prezident Fərmanı, http://e-qanun.az/framework/35125.

[109] Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, 30 dekabr 1999-cu il, www.e-qanun.az.

2022-ci ildə şəxsi həyatının toxunulmazlığı hüququ ilə bağlı VCT mühiti əvvəlki illə müqayisədə dəyişməyib və ballar da dəyişməyib.

Hökumət 2021-ci il üçün VCT Ölçü Meyarı hesabatında nəzərdə tutulan tövsiyələrin icrası istiqamətində heç bir tədbir görməyib və buna görə də 2022-ci il üçün də bütün tövsiyələr aktualdır. Əsas tövsiyələr sosial şəbəkələrdə saxta profillərdən istifadənin dekriminallaşdırılması və VCT-lərin donorların pasport məlumatlarını təqdim etməsi tələbinin ləğv edilməsidir.

**Standart I. Hər kəs şəxsin həyatının toxunulmazlığı və məlumatlarının qorunması hüququna malikdir.**

Şəxsi həyatın toxunulmazlığı hüququ Azərbaycan Respublikasının Konstitusiyasında (32-ci maddə) şəxsi toxunulmazlıq hüququ kimi təmin edilmişdir. Hər kəsin şəxsi və ailə həyatının sirrini saxlamaq hüququ vardır və qanunla nəzərdə tutulan hallardan başqa şəxsi həyata müdaxilə etmək qadağandır. Hər kəsin şəxsi və ya ailə həyatına qanunsuz müdaxilədən müdafiə hüququ vardır. Bundan əlavə, öz razılığı olmadan kimsənin şəxsi həyatı haqqında məlumatın toplanılmasına, saxlanılmasına, istifadəsinə və yayılmasına yol verilmir. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, heç kəs xəbəri olmadan izlənilə, videoya alına, fotosu çəkilə, səsyazması aparıla və ya digər analoji hərəkətlərə məruz qala bilməz. Hər kəsin yazışma, telefon danışıqları, poçt, teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatın sirrini saxlamaq hüququna dövlət təminat verir. Bu hüquq qanunla nəzərdə tutulmuş qaydada cinayətin qarşısını almaqdan və ya cinayət işinin istintaqı zamanı faktları aşkara çıxarmaqdan ötrü məhdudlaşdırıla bilər.[110]

"İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının 30 sentyabr 2005-ci il tarixli Qanununa əsasən, şəxsi və ailə həyatına aid bir sıra müxtəlif informasiyalar, məsələn, siyasi baxışları, dini etiqadları əks etdirən məlumatlar, etnik mənşə və ya irqi mənsubiyyət barədə, sağlamlıq vəziyyəti, cinsi həyat haqqında, övladlığa götürmə barədə məlumatlar və s. şəxsi məlumat sayılır və bu informasiyaların əldə edilməsi məhdudlaşdırılır.

Şəxsi həyatın toxunulmazlığı hüququnun təmin edilməsi üçün Azərbaycan Respublikasının qanunvericiliyində inzibati sanksiyalar və cinayət məsuliyyəti müəyyən edilmişdir. Məsələn, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 155-ci maddəsində yazışma, telefon danışıqları, poçt, teleqraf və digər məlumatların sirrini pozmağa görə cinayət məsuliyyəti nəzərdə tutulur. Analoji olaraq, Cinayət Məcəlləsinin 156-cı maddəsində şəxsi həyatın toxunulmazlığını pozmağa görə (şəxsi və ailə həyatının sirri olan məlumatların, belə məlumatları əks etdirən sənədlərin, video və foto çəkilişi materiallarının, səs yazılarının qanunsuz toplanılması, habelə satılması və ya başqasına verilməsi) cinayət məsuliyyəti nəzərdə tutulur.

Həmçinin Azərbaycan Respublikasının Mülki Məcəlləsində də müəyyən təminatlar nəzərdə tutulub. Məsələn, Mülki Məcəllənin 23.1-ci maddəsinə əsasən, fiziki şəxs onun şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən, şəxsi həyatının sirrini və

[110] Azərbaycan Respublikası Konstitusiyasının 32-ci maddəsi.

ya şəxsi toxunulmazlığını pozan məlumatların məhkəmə qaydasında təkzib olunmasını tələb edə bilər, bu şərtlə ki, həmin məlumatları yaymış şəxs onların həqiqətə uyğun olduğunu sübuta yetirməsin (maddə 23.1). Bundan əlavə, Mülki Məcəlləsinin 21-ci maddəsi şəxsi həyatın toxunulmazlığı hüququnun pozulması nəticəsində fiziki və ya hüquqi şəxsə dəymiş hər hansı maddi və ya mənəvi ziyana görə kompensasiya hüququnu nəzərdə tutur.

Eyni zamanda, «Fərdi məlumatlar haqqında» Azərbaycan Respublikasının 11 may 2010-cu il tarixli Qanununda[111] fərdi məlumatların toplanmasının, emalının və qorunmasının qanunverici əsası və ümumi prinsipləri müəyyən edilir. Bundan əlavə, Azərbaycan Respublikası "Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında" Konvensiyanı imzalayıb və 30 sentyabr 2009-cu il tarixli qanunla (№ 879-IIIQ) ratifikasiya edib.[112]

Cinayət Məcəlləsinin 148.1-ci maddəsində internet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək kütləvi nümayiş etdirməklə böhtan atma və ya təhqir etməyə görə 1.000 manat (təxminən 560 avro) cərimədən başlayaraq iki ilədək azadlıqdan məhrumetməyə qədər cinayət məsuliyyəti nəzərdə tutulur. Bu maddədəki sanksiyalar 31 may 2017-ci il tarixli qanununla daha da sərtləşdirilib.[113]

2022-ci ildə VCT sektoru üzvlərinin şəxsi həyatının toxunulmazlığı hüququna qanunsuz müdaxilə halları olmayıb, bu sahədə qanunvericilik və praktika əvvəlki ildə olduğu kimi statik olaraq qalıb.

### Standart II. Dövlət VCT təmsilçilərinin və VCT-lərlə əlaqəli şəxslərin şəxsi həyatının toxunulmazlığı hüququnu qoruyur.

VCT-lərdən idarə heyətinin yeni üzvləri, o cümlədən sədri haqqında ƏN-ə məlumat verməlri tələb olunur. Amma onların üzvləri və əlaqəli şəxslər haqqında fərdi məlumatların ƏN-ə təqdim edilməsi tələb olunmur.

VCT-lər həmçinin il ərzində onlara ianə verən şəxslərin pasport məlumatlarını MN-ə təqdim etməyə borcludurlar. VCT-lər tərəfindən Vergilər Nazirliyinə, Dövlət Sosial Müdafiə Fonduna, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, MN-ə və Dövlət Statistika Komitəsinə təqdim edilən digər hesabatlar əsasən maliyyə məlumatlarına, vergilərə və sosial ödəmələrə aiddir və özü-özlüyündə şəxsi həyatın toxunulmazlığı hüququnu pozmur.

VCT-də yoxlamalar zamanı dövlət orqanı (ƏN, Vergilər Nazirliyi və s.) VCT-nin müvafiq sənədlərini yoxlayır və yoxlamanın nəticələri üzrə qərar qəbul edir, VCT

---

[111] "Fərdi məlumatlar haqqında" 11 may 2010-cu il tarixli Azərbaycan Respublikasının Qanunu, http://www.e-qanun.az/framework/19675.

[112] Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında" Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu, http://www.e-qanun.az/framework/18625.

[113] Cinayət Məcəlləsinin 148-1-ci maddəsi.

həmin qərardan məhkəməyə şikayət edə bilər. Məsələn, Vergi Məcəlləsinin 38.1-ci maddəsinə əsasən, elektron yoxlamalar da daxil olmaqla səyyar vergi yoxlamaları (növbəti (planlaşdırılan) və ya növbədənkənar yoxlamalar) vergi orqanının qərarı əsasında həyata keçirilir və həmin orqan bu barədə vergi ödəyicisinə ən azı 15 gün qabaqcadan yazılı bildiriş göndərir. Araşdırma zamanı dövlət orqanlarının şəxsi məlumatlara çıxışı qanunla məhdudlaşdırılır. Qanuna əsasən, VCT-lər də daxil olmaqla bütün hüquqi şəxslər dövlət orqanları tərəfindən aparılan yoxlamalar barədə qabaqcadan məlumatlandırılmalıdırlar.

Qanunvericilikdə araşdırma zamanı dövlət orqanlarının fərdi məlumatlara çıxışı üçün əlavə məhdudiyyətlər nəzərdə tutulur. Məsələn, Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinin 199.2-ci maddəsinə əsasən, prosessual hərəkətlərin gedişində hər hansı şəxsin şəxsi həyatına aid məlumatların, habelə onun gizli saxlanılmasını lazım bildiyi digər şəxsi xarakterli məlumatların lüzumsuz toplanılmasına, yayılmasına və onlardan istifadə edilməsinə yol verilmir. Müstəntiqin, prokurorun və ya məhkəmənin tələbi ilə ibtidai araşdırma və məhkəmə prosesində iştirak edən şəxslər belə məlumatları yaymamağa və bu barədə yazılı öhdəlik götürməyə borcludurlar.[114]

Poçt, teleqraf və digər göndərişlərin üzərinə həbs qoyma, onu yoxlama və götürmə, telefon və digər qurğularla aparılan danışıqların və başqa rabitə və texniki kanallar vasitəsi ilə ötürülən məlumatların və başqa məlumatların tutulması Cinayət Prosessual Məcəlləsi ilə müəyyən edilmiş hallarda və yalnız məhkəmənin qərarı ilə həyata keçirilə bilər.[115] Cinayət təqibi gedişində heç kəsin şəxsi (özünün və ailəsinin) həyatın sirrinin, yazışma, telefon danışıqları, poçt-teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatların və başqa məlumatların sirrinin saxlanılması hüququ yalnız Cinayət Prosessual Məcəlləsində nəzərdə tutulmuş hallarda məhdudlaşdırıla bilər.

Dövlət orqanlarının VCT ofislərinə icazəsiz daxil olması və ya orada müşahidə aparması halları barədə heç bir məlumat verilməmiş və şəxsi həyatın toxunulmazlığı hüququ ilə bağlı vəziyyət 2022-ci ildə dəyişməmişdir.

### 7-ci sahə üzrə xüsusi tövsiyələr:

- Parlament və Prezident Azərbaycan Avropa Şurasının "Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında" Konvensiyasının Əlavə Protokolunu imzalamalıdır, nəzarət orqanları və transsərhəd məlumat axını ilə əlaqədar olan həmin Protokol fərdi məlumatların monitorinqi və nəzarəti üçün müstəqil dövlət qurumunun

[114] Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinin 199.2-ci maddəsi.
[115] Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinin 16-cı maddəsi.

- Maliyyə Nazirliyi VCT-lərin donorların pasport məlumatlarını MN-ə təqdim etmələri tələbini ləğv etməlidir.

## 3.8 Dövlətin müdafiəni təmin etmək vəzifəsi

**Sahə üzrə ümumi bal: 4.6 /7**

| Qanunvericilik: 5.0 /7 | Praktika: 4.2 /7 |
|---|---|

VCT-lər və onların üzvləri də daxil olmaqla hər kəs məhkəmələrdə öz maraqlarını təmsil etmək və hüquqlarını müdafiə etmək hüququna malikdir (Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsi). Hesabat dövründə dövlət məmurları tərəfindən VCT-lərə qarşı hər hansı neqativ media kampaniyası və ya ictimai bəyanatlar olmayıb.

Ekstremizm, terrorizm, çirkli pulların yuyulması və ya korrupsiya ilə mübarizə ilə əlaqədar qanunvericilik tələbləri VCT-lər üçün ağır yükdür və bir çox təşkilatlar onları yerinə yetirmək üçün resurslara malik deyillər. Bu səbəbdən Azərbaycanda VCT-lərə münasibətdə bu qanunvericilik, demək olar ki, icra edilmir.

Ümumi vəziyyət 2021-ci il üçün olduğu kimi qalıb və 2021-ci il üçün tövsiyələr 2022-ci il üçün də aktualdır, əsas tövsiyələr ondan ibarətdir ki, VCT-lərə qarşı cəzalar yenidən nəzərdən keçirilməli və azaldılmalı və VCT-lərin ekstremizmə, terrorizmə, çirkli pulların yuyulmasına və ya korrupsiyaya qarşı mübarizə ilə bağlı öhdəliklərinə risk əsaslı yanaşma əsasında yenidən baxılması təmin edilməlidir.

**Standart I. Dövlət VCT-ləri və VCT-lərlə əlaqəli şəxsləri müdaxilə və hücumlardan qoruyur.**

Hər kəs dövlət orqanlarının, siyasi partiyaların, hüquqi şəxslərin, bələdiyyələrin və onların vəzifəli şəxslərinin hərəkətlərindən və ya hərəkətsizliyindən inzibati qaydada və ya məhkəmələrə şikayət edə bilər.

2016-cı ildən etibarən dövlət qurumlarının qərarlarından və hərəkətlərindən fiziki və hüquqi şəxslərin, o cümlədən VCT-lərin verdikləri şikayətlərə baxan və ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərən kollegial orqan kimi apellyasiya şuraları mövcuddur.[116] Beləliklə, hüquqi şəxslər və VCT-lər üçün alternativ şikayət mexanizmi yaradılıb. Apellyasiya şuralarının qərarlarına məhkəmə tərəfindən yenidən baxıla bilər.

Ümumiyyətlə, məhkəmə qərarlarından şikayət verilməsi üçün müddətlər ağlabatandır və tərəflər qərarı rəsmi qaydada əldə etdikləri andan etibarən 20 gündən iki ayadək dəyişir. Qərardan şikayət vermək müddəti bitməyənədək qərar qüvvəyə minmir.

116 "Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 3 fevral 2016-cı il tarixli fərmanı.

Digər fiziki şəxslər kimi VCT üzvləri də nifrət aşılayan çıxışlara qarşı müdafiə edilirlər, belə ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində böhtan və təhqirə görə cinayət məsuliyyəti nəzərdə tutulub.[117]

Azərbaycan Respublikasının qanunvericiliyi qeyri-formal birliklərin yaradılmasına və mövcud olmasına icazə versə də, onlar hüquqi şəxs olmadıqlarına görə müəyyən hüquqlardan istifadə etmək hüququna malik deyillər. Məsələn, onlar məhkəmədə iddiaçı ola, öz mülkiyyətinə malik ola, bank hesabı aça və ya vergi ödəyicisinin eyniləşdirmə nömrəsini ala bilməzlər. VCT Ədliyyə Nazirliyində qeydiyyatdan keçməyibsə, dövlət həmin qeydiyyatsız VCT-nin ad hüququnu qoruya bilməz.

Mənəvi ziyana və əmlaka dəymiş zərərə görə hər kəs üçün kompensasiya Mülki Məcəllə ilə və müvafiq qanunvericiliklə təmin edilir.

2014-cü ildən Azərbaycanda VCT-lər daxilində hökuməti tənqid edənlər xeyli azalıb və son illərdə sektor üzərində dövlət inhisarçılığı və nəzarəti nəticəsində VCT sektoru əsasən ya hökumətyönlü, ya da neytral VCT üzvlərindən ibarətdir. Buna görə də hökumətin 2014-cü ildə olduğu kimi VCT fəaliyyətlərinə müdaxilə etməsinə və VCT-lərə hücum etməsinə sadəcə ehtiyac qalmayıb və belə hallar olmayıb. Vəziyyət 2021-ci ilə bənzər şəkildə statik olaraq qalır.

### Standart II. Ekstremizm, terrorizm, çirkli pulların yuyulması və ya korrupsiya ilə mübarizədə istifadə edilən tədbirlər konkret hədəfli və mütənasibdir, risk əsaslı yanaşmaya və birləşmək, toplaşmaq və ifadə azadlığı ilə əlaqədar olan insan hüquqları standartlarına uyğundur.

Bu sahə əsasən 2009-cu ildə qəbul edilmiş “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Qanunla tənzimlənir. Bu qanun: a) Azərbaycanda olan VCT-ləri, eləcə də xarici VCT-lərin filial və nümayəndəliklərini “monitorinq iştirakçıları” kimi müəyyən edir (maddə 4.1.9); və b) onların üzərinə “cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı daxili nəzarət sistemini hazırlamaq və həyata keçirmək” vəzifəsi qoyur (5 və 12-ci maddələr). Həmçinin VCT-lərdən tələb olunur ki, bu sahəyə görə məsul şəxs və daxili auditor təyin etsinlər, müştərilərin eyniləşdirilməsi və verifikasiyasını həyata keçirsinlər, şübhəli əməliyyatlar barədə Monitorinq Xidmətinə məlumatlar təqdim etsinlər və lazımi təlimlər keçirsinlər. Maliyyə çətinlikləri səbəbindən VCT-lər bu tələbləri yerinə yetirmək iqtidarında deyillər. Təəccüblü deyil ki, bu qanuna əməl etməməyə görə yüksək cərimələrə (800 AZN-dən 15.000 AZN-dək (təxminən 450 avrodan 8.400 avroyadək))[118] baxmayaraq, VCT-lərin çoxunun bu qanundan xəbəri yoxdur.[119] Bu tələblər və müvafiq cəza eyni

[117] Cinayət Məcəlləsinin 147 və 148-ci maddələri.
[118] Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 598.2-ci maddəsi.
[119] Hədəf qrupu.

dərəcədə xarici VCT-lərin Azərbaycan Respublikasındakı filial və ya nümayəndəliklərinə və dini qurumlara da şamil edilir.

Maliyyə Tədbirləri üzrə İşçi Qrupunun (FATF) Tövsiyələrində vurğulanır ki, "bu məqsədlə görülən tədbirlərin xeyriyyəçilik fəaliyyətinin təqsirsiz və legitim benefisiarları üçün hər hansı mənfi nəticələr doğurmasına mümkün qədər yol verilməməlidir".[120] Bundan başqa, hazırda Azərbaycan qanunvericiliyində VCT-lər tərəfindən "daxili nəzarət sistemlərinin" yaradılmasına dair hər hansı konkret rəhbər prinsiplər yoxdur.[121] Ədliyyə Nazirliyinin təşəbbüsü ilə müstəqil VCT qanunvericiliyi mütəxəssislərindən və keçmiş QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvlərindən ibarət işçi qrupu VCT-lər üçün çirkli pulların yuyulmasına və terrorizmin maliyyələşdirilməsinə qarşı mübarizəyə dair qanunvericiliyə necə əməl etmələri ilə bağlı təlimatlar hazırlayıb.

Hökumət çirkli pulların yuyulmasına və terrorizmin maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində VCT-lərə hələ də risk əsaslı yanaşma tətbiq etmir və bununla bağlı qanunvdericilikdə dəyişiklik edilməyib. Hesabat dövründə bu standart üzrə tələblərlə bağlı yeni heç nə baş verməyib.

"Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"[122] qəbul edilib. Plana əsasən, korrupsiyaya qarşı mübarizə tədbirlərinə vətəndaş cəmiyyəti institutları ilə dövlət orqanları (qurumları) arasında əməkdaşlığın daha da gücləndirilməsi və birgə layihələrin həyata keçirilməsi, kollegial qərarların qəbulu prosedurlarında vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinin iştirakı üçün şərait yaradılması, dövlət orqanlarında (qurumlarında) prosedurların aparılması, korrupsiyaya qarşı mübarizə sahəsində fəaliyyət göstərən VCT-lərlə birlikdə maarifləndirici layihələrin həyata keçirilməsi daxildir. Planda həmçinin dövlət orqanları (qurumları) tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin qiymətləndirilməsi məqsədilə rəsmi internet saytları və sosial şəbəkələr vasitəsilə mütəmadi olaraq elektron məmnunluq sorğularının keçirilməsi, vətəndaş cəmiyyəti institutları və ictimai şuraların bu prosesə cəlb edilməsi nəzərdə tutulur. Bununla belə, Milli Fəaliyyət Planının VCT-lərlə bağlı müddəalarının həyata keçirilməsi üçün heç bir müsbət və ya əsaslı addım atılmayıb. Milli Fəaliyyət Planları VCT-lərə münasibətdə əsasən formal sənədlər olaraq qalır və nadir hallarda VCT-lərə münasibətdə pozitiv şəkildə həyata keçirilir.

---

[120] Bax: http://www.fatf-gafi.org/media/fatf/documents/recommendations/pdfs/FATF_Recommendations.pdf, səh. 95 (keçiddəki məlumata sonuncu dəfə 2 noyabr 2021-ci ildə baxılmışdır).

[121] Azərbaycanda terrorizmə və çirkli pulların yuyulmasına qarşı mübarizədə QHT-lərin öhdəliklərinin icmalı, 17 may 2016-cı il, ICNL.

[122] https://e-qanun.az/framework/49349

8-ci sahə üzrə xüsusi tövsiyələr:

- Parlament VCT-lərə qarşı cəzalara yenidən baxmalı, onlar azaldılmalı və hüquq pozuntusuna mütənasib qaydada tətbiq edilməlidir; və
- Parlament və hökumət VCT-lərin ekstremizm, terrorizm, çirkli pulların yuyulması və ya korrupsiyaya qarşı mübarizə ilə əlaqədar öhdəliklərinə yenidən baxmalı və həmin öhdəliklər VCT-lərə risk əsaslı yanaşmaya uyğun olaraq və müəyyən bir hədd müəyyənləşdirilməklə tətbiq edilməlidir (məsələn, illik dövriyyəsi 50.000 manatdan (təxminən 27.900 avro) artıq olan VCT-lərə şamil olunmalıdır).

## 3.9 Dövlətin dəstəyi

**Sahə üzrə ümumi bal: 4.2 /7**

**Qanunvericilik: 4.4 /7** | **Praktika: 3.9 /7**

Azərbaycanda bir sıra ictimai maliyyələşdirmə mexanizmləri (subsidiyalar, dövlət maliyyələşdirməsi, sosial xidmətlər və s.) mövcuddur. Ən geniş yayılmış forma qrantlardır və hər bir maliyyələşdiricinin özünün qrantlara dair qaydaları vardır. Onların bəziləri digərlərinə nisbətən daha şəffaf və VCT-lər üçün daha əlçatandır. VCT-lərin narahatlığı prosedur aspektləri ilə deyil, qrantların ümumi sayı və məbləği ilə bağlıdır.

Qrantlar, ianələr və üzvlük haqlarının vergidən azad olunmasına baxmayaraq, xarici maliyyələşdirmənin ƏN-də qeydiyyatı ilə bağlı problemlərə görə vergi mühiti VCT-lər üçün "əlverişli" deyil.

Azərbaycanda könüllülük populyardır, baxmayaraq ki, əcnəbi könüllülər üçün yaşayış icazəsi almaqda müəyyən çətinliklər var və hər bir könüllü ilə, hətta kiçik yardım üçün belə, yazılı müqavilə imzalanmalıdır.

Bu sahədə 2022-ci ildə vəziyyət dəyişməyib və qanunvericilik üzrə ballar 2021-ci ildəki 4,6-dan 4,4-ə, praktika üzrə 4-dən 3.9-a düşüb. Bu, 2021-ci ildəki 4.3 bal ilə müqayisədə ümumi balın 4.2-yə enməsinə səbəb olub. Yeni qəbul edilmiş vergi dəyişiklikləri, ümumi əlverişsiz vergi mühiti və qanunvericilikdəki hesabat öhdəlikləri, habelə illər ərzində VCT-lər arasında əsasən kiçik həcmli maliyyə vəsaitlərinin paylanması VCT mühitinə mənfi təsir kimi nəzərə alına bilər. Hökumət əsasən hökumət tərəfdarı olan VCT-ləri dəstəkləyir və öz çətiri altında VCT-ləri formalaşdırmağa və onlara nəzarət etməyə çalışır. Bütün bu qeyd olunan amillər həm qanunvericilik, həm də praktika üzrə balların azalmasına səbəb olub.

İllər ərzində dövlət dəstəyi sahəsində mühit dəyişmədiyinə görə tövsiyələr 2021-ci ildə olduğu kimi qalmışdır. Əsas tövsiyələr VCT-lərin fərdi və korporativ donorları üçün əhəmiyyətli vergi güzəştlərinin tətbiqi, bir gündən çox olmayan xüsusi hallar üçün könüllülərlə yazılı müqavilənin olması tələbinin ləğvi, VCT-lərə verilən fərdi qrantların həcminin artırılmasıdır.

### Standart I. VCT-lərə dövlətin maliyyə və natural formada dəstəyi üçün bir sıra müxtəlif və səmərəli mexanizmlər mövcuddur.

Baxmayaraq ki, "Dövlət satınalmaları haqqında" qanuna əsasən, dövlət VCT-lər də daxil olmaqla istənilən təşkilatdan malları və xidmətləri satın ala bilər,[123] Azərbaycan qanunvericiliyində dövlət satınalmalarında iştirak üçün həddən artıq ağır maliyyə şərtləri müəyyən edilir ki, bu da dövlət kontraktları üçün tenderlərdə VCT-lərin iştirakını mahiyyət etibarilə mümkünsüz edir. Konkret olaraq, "Dövlət satınalmaları haqqında" Qanun hüquqi və ya fiziki şəxsin satınalma tenderlərində iştirak edə bilməsi üçün həm iştirak haqqını, həm də tender xərclərini ödəməsini tələb edir. Tenderdə iştirak haqqının ümumi məbləği tender predmetinin ehtimal olunan qiymətinin 0,3 faizindən və tender xərclərinin 1,2 mislindən çox olmamaq şərti ilə satınalan təşkilat tərəfindən müəyyənləşdirilir.[124] Bu, hətta iri VCT-lərin belə, tələb olunan iştirak haqqını ödəməsini mümkünsüz edir.

Azərbaycanda müxtəlif dövlət qurumları VCT-lərə qrantlar verə bilər.[125]

QHT-lərə Dövlət Dəstəyi Şurası 2021-ci ildə QHT-lərə Dövlət Dəstəyi Agentliyi ilə əvəz edilənə qədər milli səviyyədə VCT-lərə dövlət qrantlarının verilməsinin əsas mexanizmi idi. QHT-lərə Dövlət Dəstəyi Şurası insan hüquqları, qaçqınların hüquqları, məcburi köçkünlərə, uşaqlara, qadınlara, gənclərə yardım, səhiyyə, elm, təhsil, mədəniyyət, insan alverinə, korrupsiyaya, terrorizmə qarşı mübarizə, VCT-lər haqqında qanunvericilik və Azərbaycanın dünya birliyinə inteqrasiyası kimi sahələrdə VCT-lərin fəaliyyətlərinə dəstək göstərir.

2021-ci ilin iyun ayında QHT-lərə Dövlət Dəstəyi Agentliyi qrant müsabiqəsi qaydalarını hazırlayıb və təsdiq olunmaq üçün Nazirlər Kabinetinə təqdim edib.[126] 2021-ci ilin dekabrında Prezident QHT-lərə Dövlət Dəstəyi Agentliyinə müvəqqəti qrant verilməsi qaydalarını təsdiq etmək səlahiyyəti verdi və bu, Agentlik tərəfindən 2021-ci ilin dekabrında ilk qrantın verilməsinə səbəb oldu. Bundan sonra 2022-ci ildə keçirilən kiçik qrant müsabiqəsində QHT-lərə Dövlət Dəstəyi Agentliyi tərəfindən keçirilən kiçik qrant müsabiqəsində 400 VCT-yə ümumi məbləği 3.259.000 manat (1.844.727 avro) təşkil edən vəsait verilib və 2022-ci ildə keçirilən "Şuşa ili" adlı xüsusi qrant müsabiqəsində QHT-lərə Dövlət Dəstəyi Agentliyi ümumilikdə 23 VCT-yə ümumi məbləği 619.000 manat (350.379 avro) təşkil edən vəsait təqdim edib.[127]

2021-2022-ci illər ərzində 15-ci qrant müsabiqəsi çərçivəsində Gənclər Fondu yerli və xarici layihələrə 517.320 manat (292.000 avro) vəsait təqdim edib. Bundan başqa, "Şuşa ili" çərçivəsində yerli və xarici layihələr üzrə 21 təşkilata müsabiqədənkənar 465.000

---

123 "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanunu, 27 dekabr 2001-ci il, № 245-IIQ (bundan sonra "Dövlət satınalmaları haqqında" Qanun adlandırılacaq).

124 "Dövlət satınalmaları haqqında" Qanunun 29.1-ci maddəsi.

125 "Qrant haqqında" Qanunun 2-ci maddəsi.

126 https://www.musavat.com/news/qht-lere-dovlet-desteyi-agentliyi-yeni-qrant-qaydalari-hazirlayir_810851.html

127 QHT-lərə Dövlət Dəstəyi Agentliyinin məktubu.

manat (263.000 avro) verilib. 1 sentyabr 2021-ci il – 30 sentyabr 2022-ci il tarixləri arasında Gənclər Fondu gənclər təşkilatlarının 3 (üç) internet saytının yaradılması və ya yenilənməsi üçün 22.850 manat (13.000 avro) məbləğində vəsait təqdim edib. Gənclər Fondu tərəfindən qrant müsabiqələri Nazirlər Kabinetinin 16 oktyabr 2018-ci il tarixli 451 nömrəli "Gənclər siyasəti ilə bağlı proqram və layihələrin qrant maliyyələşdirilməsi üçün müsabiqələrin keçirilməsi qaydası haqqında" Qərarına əsasən keçirilir.[128]

1 sentyabr 2021-ci il – 30 sentyabr 2022-ci il tarixləri arasında ƏN 93 yerli QHT-ni, 1 xarici QHT-nin nümayəndəliyini qeydiyyatdan keçirib, iki QHT-nin fəaliyyətinin dayandırılması barədə qeyri-kommersiya təşkilatlarının reyestrinə qeydlər daxil edib, iki QHT-yə xəbərdarlıq edib. Hesabat dövründə heç bir QHT-nin fəaliyyəti dayandırılmayıb. 1 sentyabr 2021-ci il – 30 sentyabr 2022-ci il tarixləri arasında Ədliyyə Nazirliyi 1.553 qrant, 175 xidmət müqaviləsi, 847 ianə qeydə alıb. Qeydə alınmış müqavilələrin və ianələrin məbləği təqribən 280 milyon manat (təqribən 158 milyon avro) təşkil etmişdir. Hesabat dövründə heç bir QHT cəzalandırılmayıb və yalnız bir QHT "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" qanuna əsasən nəzarətə götürülüb.[129]

Yalnız az sayda VCT-lər dövlət büdcəsindən birbaşa subsidiyalar alırlar (məsələn, Bəstəkarlar İttifaqı, Yazıçılar İttifaqı və ya Rəssamlar İttifaqı), bu da ona dəlalət edir ki, qrantlarla müqayisədə subsidiyalar Azərbaycanda VCT-lər üçün dövlət maliyyələşdirməsinin daha az populyar olan mexanizmdir.

"Sosial xidmət haqqında" Qanun dövlət orqanlarının VCT-lərdən sosial xidmətləri satın almaq üçün dövlət büdcəsi vəsaitlərindən istifadə etmələrinə icazə verir.[130] Nazirlər Kabinetinin iki qərarı ("Dövlət sosial xidmət müəssisələrində və evlərdə qismən ödənişli və tam ödənişli şərtlərlə sosial xidmətin göstərilməsi Qaydası"[131] və "Sosial xidmət sahəsində dövlət sifarişlərinin bələdiyyələrə, fiziki və hüquqi şəxslərə, o cümlədən qeyri-hökumət təşkilatlarına verilməsi Qaydası"[132]) sosial sifarişlərin büdcədən maliyyələşdirilməsi, tender komissiyaları üçün prosedurlar, həmin komissiyalarda üzvlük, VCT-lərin tenderlərdə iştirakı və prosesə görə məsuliyyət daşıyanların və prosesə nəzarət edənlərin təyin edilməsi kimi məsələləri tənzimləyir. Sosial müqavilələrin dəyəri adətən hər layihə üçün 20.000 AZN-dən (təxminən 11.200

---

[128] https://e-qanun.az/framework/40320
[129] Ədliyyə Nazirliyinin rəsmi məktubu.
[130] "Sosial xidmət haqqında" Qanunun 26-cı maddəsi.
[131] "Dövlət sosial xidmət müəssisələrində və evlərdə qismən ödənişli və tam ödənişli şərtlərlə sosial xidmətin göstərilməsi Qaydası"nın təsdiq edilməsi barədə Nazirlər Kabinetinin 328 nömrəli qərarı (30 dekabr 2012-ci il); http://e-qanun.az/alpidata/framework/data/25/f_25059.htm.
[132] "Sosial xidmət sahəsində dövlət sifarişlərinin bələdiyyələrə, fiziki və hüquqi şəxslərə, o cümlədən qeyri-hökumət təşkilatlarına verilməsi Qaydası"nın təsdiq edilməsi barədə Nazirlər Kabinetinin 330 nömrəli qərarı (30 dekabr 2012-ci il); http://www.e-qanun.az/framework/25063.

avrodan) aşağıdır və həssas qruplara qulluq göstərən mərkəzlərin fəaliyyətini, onlara müxtəlif sosial xidmətlərin göstərilməsini və sairəni əhatə edir.

VCT-lərə qrant verə biləcək 13 dövlət orqanı var. Buna baxmayaraq, müxtəlif dövlət mexanizmləri ilə ayrılan maliyyə heç vaxt xarici donorlar tərəfindən verilən məbləği əvəz edə və beləliklə Azərbaycanda VCT sektorunun tələblərini ödəyə bilməz.

Praktikada az sayda VCT-lər (məsələn, idman assosiasiyaları, əlillərlə işləyən təşkilatlar və s.) ödənişsiz ofis yeri alırlar. Bəzi VCT-lər vaxtaşırı hökumətdən natural formada digər dəstək alır, buraya pulsuz nəqliyyat, məkandan ödənişsiz istifadə, icmalarla əlaqə saxlamaqda yardım və s. daxildir.[133]

Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının dəstəyi ilə 1 sentyabr 2021-ci il – 30 sentyabr 2022-ci il tarixləri arasında QHT-lər üçün 4 təlim kursu təşkil edilmişdir. Gənclər Fondu təlim kursları ilə yanaşı, dəyirmi masalar, konfranslar və s. keçirmişdir. Tədbirlər zamanı qanunvericilik dəyişiklikləri, təşkilatların gələcək illər üçün fəaliyyət strategiyasının müəyyən edilməsi və gənclər siyasəti ilə bağlı digər məsələlərə aid görüşlər keçirilmiş və müzakirələr aparılmışdır.[134]

Yuxarıda qeyd olunan hadisələrə baxmayaraq, illər ərzində dövlət VCT-lərin əlverişli vergi mühitindən istifadə etməsi və müxtəlif mexanizmlərdən istifadə etməklə maliyyə mənbələrini şaxələndirməsi üçün hüquqi və ya praktiki mühit yaratmayıb. Bu sahədə statik mühit illər ərzində VCT-lərin özləri üçün maliyyə dayanıqlığı yaratmalarına mane olur.

### Standart II. VCT-lərə dövlət dəstəyi aydın və obyektiv meyarlarla tənzimlənir və şəffaf və rəqabətli prosedur vasitəsilə ayrılır.

Hədəf qruplarının iştirakçıları fərdi qaydada ayrılan qrantların VCT-lərin vəzifələrini yerinə yetirmələri və məqsədlərinə nail olmaları üçün yetərli olmadığını hesab edirlər.

Bütün dövlət orqanlarında qrantların verilməsi üzrə aydın və şəffaf qaydalar yoxdur və 2022-ci ildə vəziyyət nə müsbət, nə də mənfi istiqamətdə dəyişməyib.

Prezidentin 21 oktyabr 2015-ci il tarixli 654 nömrəli Fərmanına[135] əsasən, ümumilikdə on üç dövlət orqanı VCT-lərə qrant verə bilər. Bu qurumların hər biri öz monitorinq və qiymətləndirmə mexanizmlərini hazırlayır. “Dövlət orqanları tərəfindən qeyri-hökumət təşkilatlarına qrant verilməsinin Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası ilə razılaşdırılması Qaydası”na[136] əsasən, dövlət orqanları onların qrant müsabiqələrinin mövzuları, habelə bu müsabiqələr üzrə VCT-lərin təqdim etdiyi layihə təklifləri ilə bağlı QHT-lərə Dövlət Dəstəyi Şurasının rəyini öyrənməlidirlər. Sənədlər www.e-qanun.az internet saytında və qrant verən dövlət orqanlarının internet səhifələrində ictimaiyyət üçün

---

[133] Hədəf qrupu.
[134] Gənclər Fondunun rəsmi məktubu.
[135] https://e-qanun.az/framework/31056
[136] Prezidentin 652 nömrəli fərmanı, 21 oktyabr 2015-ci il, http://www.e-qanun.az/framework/31055.

açıqdır. Bundan əlavə, hər dəfə qrant müsabiqəsi elan edildikdə qrant müsabiqəsi elanlarında qrant qaydaları ictimaiyyətə açıqlanır.

İl ərzində qəbul edilmiş daha bir mühüm sənəd 15 sentyabr 2022-ci il tarixində təsdiq edilmiş "Turizm sahəsində layihələrin qrant maliyyələşdirilməsi üzrə müsabiqələrin keçirilməsi Qaydası"dır,[137] əvvəllər bu sahəyə aid sənəd mövcud olmayıb və o, qrant almağa namizədlər kimi müraciət edə bilən bütün növ hüquqi şəxslərin iştirak etdiyi müsabiqələrdə hökumət tərəfindən qrantların verilməsi prosesinə şəffaflıq gətirə bilər.

### Standart III. VCT-lər əlverişli vergi mühitindən bəhrələnirlər.

Azərbaycanda VCT-lər üçün vergi mühiti o qədər də əlverişli deyil. VCT-lərə yüksək dərəcələrlə müxtəlif vergilər tətbiq edilir, məsələn, mənfəət vergisi (20 faiz), işçilərin gəlir vergisi (14 faiz), əmlak vergisi, torpaq vergisi, əlavə dəyər vergisi (ƏDV) və s. 2019-cu ildə Vergi Məcəlləsində edilmiş dəyişikliklərə əsasən, VCT dövlət tərəfindən maliyyələşdirilmədiyi təqdirdə 8.000 manatadək (təxminən 4.470 avro) əmək haqları 7 il ərzində gəlir vergisindən azaddır.

Qrantlar müvafiq qaydada qeydiyyata alındığı təqdirdə gəlir vergisindən azaddır. Həmçinin qeyri-kommersiya təşkilatlarının aldıqları əvəzsiz köçürmələr, üzvlük haqları və ianələr mənfəət vergisindən azaddır.[138] Xeyriyyə təşkilatlarının topladıqları ianələrdən vergi ödəmələri tələb olunmur, lakin xeyriyyə təşkilatı statusu əldə etmək üçün heç bir prosedur yoxdur.

VCT-lər, o cümlədən xeyriyyə təşkilatları sahibkarlıq fəaliyyətindən əldə edilən gəlirlərdən vergi ödəməlidirlər. Bu, kənd təsərrüfatı məhsulları istehsal edən sosial müəssisələrə şamil edilmir, çünki onlar 2023-cü ilə qədər gəlir vergisindən azaddırlar. Eyni zamanda, VCT-lərdən sahibkarlıq fəaliyyəti ilə bağlı gəlir və xərclərin ayrıca uçotu tələb olunur. Bundan əlavə, VCT-lərdən xarici maraqlı tərəflərin qrant müqavilələrini, ianələrini və xidmət müqavilələrini qeydiyyatdan keçirmək tələb olunur.

Azərbaycan Respublikası Prezidentinin 21 mart 2020-ci il tarixli Fərmanına[139] uyğun olaraq ƏDV-nin qaytarılması qaydası təsdiq edilib. Fərmana əsasən, yalnız fərdi müştərilərə (fiziki şəxslərə), Azərbaycan Respublikasının vətəndaşlarına, habelə Azərbaycan bankında hesabı olan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə nağd ödənişlərə görə 10 faiz, kartla ödənişlərə görə 15 faiz ƏDV-nin qaytarılmasından yararlana bilərlər. Qaydalar pərakəndə ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan pərakəndə satıcılardan alınan mallara şamil edilir. Neft və qaz məhsullarına şamil edilmir. Qanun VCT işçilərinin bu mexanizmdən əldə etdikləri kiçik gəlirləri VCT-nin xərclərini (elektrik enerjisi, mobil telefon xərcləri, dəftərxana ləvazimatları və s.) ödəmək üçün istifadə etmələrinə icazə verir.

---

137 https://e-qanun.az/framework/52441
138 Vergi Məcəlləsinin 106.1.2-ci maddəsi.
139 Azərbaycan Respublikasının Prezidenti, https://president.az/articles/36239.

2022-ci il yanvarın 1-dən etibarən Azərbaycanda Vergi Məcəlləsinə bir çox yeni dəyişikliklər qüvvəyə minib.[140] Bu dəyişikliklərin bəziləri VCT-lərə mənfi təsir göstərir və onlar üçün əlavə öhdəliklər yaradır. Məsələn, indi VCT-lərdən bank ödəniş tapşırığında daha artıq məlumat təqdim etmələri tələb olunur; VCT-lər mühasibat uçotu aparmaq üçün mütəxəssis cəlb etməlidirlər (əks halda onlar mənfəət vergisi üzrə güzəşt hüququna malik olmayacaqlar və 5% vergi əvəzinə 20% ödəyəcəklər); ezamiyyət üçün mehmanxana qəbzi olmadıqda, xərclərin yalnız 50%-i gəlirdən çıxılan xərc kimi qəbul edilir və s. 2021-ci il yanvarın 1-dən etibarən fondlara ianələr 8 il müddətinə vergidən azad edilib, bu şərtlə ki, bu fondlar müvafiq icra hakimiyyəti orqanı tərəfindən ictimai və sosial məqsədlər üçün yaradılmış olsun.

Bundan başqa, dəyişikliyə əsasən, bütün fərdi vergi ödəyiciləri (yəni ekspertlər, məsləhətçilər və s.) pensiya fonduna daha çox aylıq ödəniş etməli (Bakıda 62 AZN-dən (36 avro) 75 AZN-dək (44 avro)) və icbari tibbi sığorta üçün daha çox vəsait ödəməli olacaqlar (10 AZN (6 avro) məbləği 12 AZN-dək (7 avro) artırılıb).

"Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa[141] əsasən, 2022-ci il yanvarın 1-dən neft-qaz sektorunda fəaliyyət göstərməyən və qeyri-dövlət sektorunda fəaliyyət göstərən işçilərin icbari tibbi sığorta haqları 1%-dən 2%-ə artırılacaq. Bu, əmək müqaviləsi ilə işləyənlərə aiddir və işçilər xalis əməkhaqqından təxminən 1% az məbləğ alacaqlar.

Vergi Məcəlləsinə edilən dəyişikliklər əlverişli vergi mühiti ilə bağlı müsbət dəyişikliklərdən danışmağa imkan vermir və ümumilikdə vergi mühiti 2021-ci illə müqayisədə dəyişməyib.

### Standart IV. Kommersiya müəssisələri və fiziki şəxslər VCT-lərə verdikləri ianələrə görə vergi imtiyazından bəhrələnirlər.

VCT-yə ianə vermək istəyən kommersiya müəssisələri və fiziki şəxslər üçün vergi güzəştləri sistemi Azərbaycanda yetərincə inkişaf etməyib.

Vergi Məcəlləsinin yeni 106.1.18-ci maddəsinə əsasən,[142] hesabat ilinin mənfəətinin 10 faizindən çox olmayan hissəsinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən meyarlara cavab verən elm, təhsil, səhiyyə, idman və mədəniyyət sahəsində fəaliyyət göstərən müəssisə, idarə və təşkilatlara köçürülən hissəsi 2019-cu il 1 yanvar tarixdən 10 il müddətinə vergidən azaddır. Bu qayda yalnız nağdsız qaydada ödənilən xərclərə münasibətdə tətbiq edilir və onun tətbiqi üçün mexanizm hələ Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən qəbul edilməlidir. VCT-lərə ianə verən kommersiya müəssisələri və fiziki şəxslər üçün

---

[140] https://static.president.az/upload/Files/2021/12/29/1z1b02gfc5_QANUN_VERG_M_C_LL_YENI.pdf

[141] https://e-qanun.az/framework/80

[142] Dəyişiklik 30 noyabr 2018-ci ildə qəbul edilib və 1 yanvar 2019-cu ildən qüvvəyə minib.

digər vergi güzəştləri yoxdur. Azərbaycan Respublikasının Nazirlər Kabineti 12 mart 2020-ci il tarixdə sahibkarlıq subyektləri üçün mənfəətin yuxarıda qeyd olunan 10 faizinin bölüşdürülməsi üçün korporativ sosial məsuliyyət (KSM) mexanizminin tətbiqi haqqında 88 nömrəli qərar qəbul edib. Əfsuslar olsun ki, Nazirlər Kabineti bu qərarı VCT-lər və digər maraqlı tərəflərlə məsləhətləşmədən qəbul edib və təəssüf ki, nəticədə kommersiya müəssisələrindən vəsaitləri yalnız mədəniyyət sahəsindəki VCT-lər ala biləcəklər, çünki sosial, elm, təhsil və idman sahələrindəki VCT-lər üçün nəzərdə tutulan meyarlara bu sahələrdəki VCT-lərin uyğun olması qeyri-mümkündür.[143]

Vergi Məcəlləsində kommersiya qurumlarından tutmuş VCT-lərə qədər yuxarıda qeyd edilən vergi güzəşti mexanizmi VCT-lərə böyük təsir göstərmir və ianələrə vergi güzəştlərinin tətbiqinə baxmayaraq, VCT-lərə ianələr verilməsi praktikası məhdudlaşdırıcı hüquqi mühitə görə VCT sektorunda geniş yayılmayıb.

### Standard V. Qanunvericilik və siyasət könüllülərin fəaliyyətlərini stimullaşdırır.

Könüllülərin hüquqi statusu həm onları cəlb təşkilatlarla, həm də dövlətlə münasibətlərində hüquqlarının müdafiəsi “Könüllü fəaliyyət haqqında” 9 iyun 2009-cu il tarixli Qanunla tənzimlənir.[144] Könüllülər dövlət orqanları, dövlət büdcəsindən maliyyələşdirilən təşkilatlar, yerli özünüidarə orqanları və QHT-lərdə işləri (xidmətləri) yerinə yetirə bilərlər. Qanun könüllü fəaliyyətin aşağıdakı sahələr üzrə həyata keçirilməsinə icazə verir: əlillərə, kimsəsizlərə, qocalara, aztəminatlı ailələrə, qaçqınlara və məcburi köçkünlərə kömək edilməsi; hüquqi və mədəni maarifləndirmə; uşaq və gənclərin təhsili, tərbiyəsi, fiziki və əqli inkişafı; idmanın inkişafı; cəzaçəkmə müəssisələrindən azad edilən, narkotik asılılığa düçar olan və məişət zorakılığına məruz qalan şəxslərə kömək edilməsi; və Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə zidd olmayan digər fəaliyyət sahələri.

Könüllü ilə onu cəlb etmiş təşkilat arasında münasibətlər yazılı müqavilə ilə tənzimlənir.[145] Təəssüf ki, könüllünün xırda və qısamüddətli işi yerinə yetirdiyi hallar üçün istisnalar nəzərdə tutulmayıb. İnzibati Xətalar Məcəlləsinin 579-cu maddəsi hüquqi şəxslərin konüllü ilə müqavilə imzalamadan konüllünün yardımından istifadə etməsinə görə 2.500 manatdan 3.000 manatadək (təxminən 1.400 avrodan 1.700 avroyadək) cərimə müəyyən edir.

Könüllülərin hüquqlarının siyahısı genişdir, buraya aşağıdakılar da daxildir: təhlükəsiz  və sağlam iş mühitinin yaradılmasını tələb etmək; könüllü fəaliyyətin şərtləri və xarakteri haqqında informasiya əldə etmək; gündəlik nəqliyyat xərclərinin ödənilməsini tələb etmək; könüllü fəaliyyəti həyata keçirərkən həyatına və

sağlamlığına dəymiş zərərin əvəzini almaq; və öz əmlakından istifadəyə görə kompensasiya almaq.

VCT-lər əcnəbi könüllülərdən istifadə edə bilərlər, lakin Miqrasiya Məcəlləsinə əsasən yalnız könüllü fəaliyyət müqaviləsi əsasında yaşayış icazəsi verilmədiyindən, praktikada VCT-lərin əcnəbi könüllü üçün yaşayış icazəsi alması asan deyil.

Hazırda Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi (ASAN) və bir sıra digər dövlət qurumları gündəlik fəaliyyətlərində könüllülərin yardımından faydalanırlar. 2020-ci il Azərbaycanda "Könüllülər ili" elan edilmişdir.

Məhdud hüquqi və maliyyə mühiti ilə əlaqədar VCT-lərin öz fəaliyyətlərinə könüllüləri cəlb etmək imkanları xeyli azalıb və 2022-ci ildə vəziyyət əvvəlki ildən fərqlənmir.

### 9-cu sahə üzrə xüsusi tövsiyələr:

- Hökumət və Parlament donor olan fiziki və hüquqi şəxslər üçün səmərəli vergi güzəştləri müəyyən etməlidirlər;
- Parlament müddəti bir gündən artıq olmayan ayrıca işlər üçün könüllü ilə yazılı müqavilə bağlamaq tələbini ləğv etməlidir;
- Hökumət VCT-lərə verilən fərdi qrantların miqdarı artırmalıdır ki, onlar institusional potensiallarını qura bilsinlər (məsələn, 10000 AZN);
- Hökumət VCT-lər tərəfindən təşkil edilən tədbirlərin keçirilməsi üçün dövlət mülkiyyətində olan obyektlərin VCT-lərə ödənişsiz və ya simvolik icarə haqqı müqabilində icarəyə verilməsi praktikasının genişləndirilməsinə yönələn tədbirlər görməlidir;
- Hökumət hər il sosial müqavilə üçün nəzərdə tutulan maliyyələşdirmənin ümumi məbləğini ən azı iki dəfə, hər VCT-yə düşən məbləğ isə ən azı 50% artırmalıdır.;
- Parlament və hökumət xarici könüllülərin müvafiq yaşayış icazəsi alması mexanizmini təmin etməlidirlər;
- Parlament və hökumət mənfəət vergisinin 10%-nin VCT-lərə ayrılmasını yeni sahələrə şamil etməlidirlər.

## 3.10 Dövlət-VCT əməkdaşlığı

**Sahə üzrə ümumi bal: 4.1 /7**

| Qanunvericilik: 4.3 /7 | Praktika: 3.9 /7 |
|---|---|

Dövlət-VCT əməkdaşlığı əsasən QHT-lərə Dövlət Dəstəyi Agentliyinin kanalları vasitəsilə həyata keçirilir, onlar isə məhduddur və Nazirlər Kabineti səviyyəsində qərarların qəbulu prosesində VCT-lərin iştirakını nəzərdə tutmur. Hökumət onların iştirakı ilə geniş müzakirələr təşkil etməklə VCT-lərlə əməkdaşlıq etmək iradəsini nümayiş etdirsə də, həmin görüşlərin nəticələri beynəlxalq hesabatlarda əks olunan Azərbaycanda VCT-lərin üzləşdiyi maneələrin aradan qaldırılmasında heç bir ciddi nəticəyə gətirib çıxarmayıb.

VCT-lərin ictimai müzakirələrə və hökumətin qərar qəbul etmə prosesinə cəlb edilməsi formal və məhdud olmaqda davam edir. VCT-lərin qərar qəbul etmə prosesinə cəlb edilməsi üçün məhdud hüquqi baza əsasən qeyri-aktiv normaları olan və praktikada zəif tətbiq olunan "İctimai iştirakçılıq haqqında" Qanundan ibarətdir və illər ərzində dəyişməz qalır. 2022-ci ildə ümumi balın azalmasının müəyyən səbəblərindən biri də bu ola bilər. Müvafiq olaraq, VCT-lərlə bağlı qərarların qəbulu prosesində qanunvericiliyin tətbiqinin səviyyəsi aşağıdır və hökumət VCT-lərə şübhəli münasibət bəsləyir.

Bu, ötən ilki ballarla müqayisədə ən ciddi azalma qeydə alınan sahədir. Bu həm qeyd olunan tendensiyaların, həm də digər 5 ŞT ölkələri ilə müqayisəli şəkildə yenidən qiymətləndirmənin nəticəsidir. Bu onunla nəticələnib ki, bu sahədə qanunvericilik üzrə ümumi bal 2021-ci ildəki 4,7-dən 2022-ci ildə 4,3-ə enib. Həmçinin praktika üzrə bal 2022-ci ildə 4,3-dən 3,9-a enib. Sahə üzrə ümumi bal 2021-ci ildəki 4,5-dən 2022-ci ildə 4,1-ə düşüb.

Hökumətin əvvəlki ildə VCT Ölçü Meyarı hesabatında ifadə edilmiş tövsiyələrini nəzərə aldığına dair heç bir nəzərə çarpan sübut yoxdur. Əsas tövsiyələr "İctimai iştirakçılıq haqqında" Qanunda nəzərdə tutulan ictimai iştirakçılıq mexanizmlərinin tətbiqində səmərəliliyin artırılmasından və dövlət məmurları üçün VCT-dövlət əməkdaşlığı üzrə təlimlərin təşkilindən ibarətdir.

### Standart I. Dövlət siyasəti VCT-lərlə əməkdaşlığa şərait yaradır və onların inkişafını təşviq edir.

**VCT-lərin inkişafına və dövlətlə VCT-lər arasında əməkdaşlığa yönələn siyasətə dair sənədlər qəbul edilir və qanunvericiliyə daxil edilir.**

Bu sahədə əsas sənədlərdən biri "QHT-lərə dövlət dəstəyi konsepsiyasının təsdiq edilməsi haqqında" Prezidentin sərəncamıdır (2007-ci il). Konsepsiyada VCT-lərə dövlət dəstəyinin aşağıdakı növləri nəzərdə tutulur: informasiya, konsultativ, metodiki, texniki-təşkilati, maliyyə və digər dəstək formaları. Digər mühüm siyasət sənədi "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"dır (aşağıya bax). Monitorinq hesabatına əsasən, 2021-ci ilin dekabr ayınadək planın 73%-i icra olunub.[146]

[146] Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planının icrasına dair monitorinq hesabatı (müəlliflərin sərəncamındadır).

Planlar və proqramlar da daxil olmaqla müxtəlif sahələr üzrə siyasət sənədlərində (məsələn, Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı) hökumətin VCT-lərlə əməkdaşlığı nəzərdə tutulur.

Dövlətin yuxarıda qeyd olunan sənədlərdə VCT-dövlət əməkdaşlığını nəzərdə tutmasına baxmayaraq, dövlət tərəfindən həmin sənədlərin müddəalarının həyata keçirilməsi üçün hələ də kifayət qədər istək yoxdur. Bu illər ərzində VCT-dövlət əməkdaşlığı əhəmiyyətli dərəcədə yaxşılaşmamışdır.[147]

### Standart II. Dövlət VCT-lərlə əməkdaşlığı dəstəkləmək üçün xüsusi mexanizmlər yaradıb.

VCT-lərlə əməkdaşlığın dəstəklənməsi üçün müxtəlif mexanizmlər mövcuddur. 2022-ci ildə hökumət əvvəlki illərlə müqayisədə VCT-lərlə əməkdaşlıqda daha çox istəkli olduğunu nümayiş etdirmişdir.

İctimai şuralar, ictimai dinləmələr və ictimai müzakirələr, qanunvericilik layihələrinin ictimai müzakirəsi, qanunvericilik aktlarının layihələrinə dair yazılı rəylərin təqdim edilməsi və ictimai rəyin öyrənilməsi "İctimai iştirakçılıq haqında" 2015-ci il tarixli Qanunda nəzərdə tutulmuş VCT-lərlə əməkdaşlıq mexanizmlərinə aid nümunələrdir.

İctimai şuralar haqqında mərkəzləşdirilmiş məlumatları təqdim edən yeganə sayt olan www.ictimaishura.az saytının məlumatına görə, 2022-ci ilə kimi Azərbaycanda həm rayonlarda, həm də Bakı şəhərində mərkəzi və yerli icra hakimiyyəti orqanları yanında 39 ictimai şura fəaliyyət göstərir. [148] Nazirlər Kabinetinin 171 nömrəli qərarı ilə təsdiq edilmiş "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin[149] və Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş "Mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin keçirilməsi Qaydası"nın[150] qəbulu sayəsində ictimai şuraların fəaliyyəti və şəffaflığı üçün ətraflı prosedurlar daha da təkmilləşdirilib. Bununla belə, VCT-lər məlumat verirlər ki, müəyyən dövlət orqanlarının məşvərətçi qurumlarının VCT-lər tərəfindən seçilməsi prosesi şəffaf deyil və buna görə də ictimai şuraların fəaliyyəti o qədər də səmərəli deyil.

7 sentyabr 2022-ci il tarixində ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAİD) Açıq Hökumət Tərəfdaşlığı Platforması ilə əməkdaşlıq şəraitində Şəffaflıq Naminə Vətəndaş Cəmiyyəti (ECSOFT) layihəsi çərçivəsində "Hökumət-QHT-biznes tərəfdaşlığı:

---

[147] Məşvərət Şurasının iclası.
[148] https://ictimaishura.az/councils/az.
[149] Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə", 30 may 2014-cü il, http://e-qanun.az/framework/27803.
[150] Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş "Mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin keçirilməsi Qaydası", 30 may 2014-cü il, http://e-qanun.az/framework/27804.

beynəlxalq təcrübə" mövzusunda konfrans keçirmişdir. Konfransın keçirilməsində məqsəd müxtəlif xarici ölkələrin dövlət orqanlarının vətəndaşlar, ictimai təşkilatlar və biznes qurumları ilə əməkdaşlıq üzrə qabaqcıl təcrübələrini öyrənmək olmuşdur. Tədbirdə dövlət qurumlarının, biznes qurumlarının, yerli QHT-lərin nümayəndələri iştirak etmişlər.[151]

Açıq Hökumətin Təşviqinə dair Milli Fəaliyyət Planı və USAID-in ECSOFT layihəsi çərçivəsində bir sıra dövlət qurumları və QHT-lər üçün "Çirkli pulların yuyulmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə QHT-lərin öhdəlikləri"[152] və "Korrupsiya hüquqpozmaları və etik davranış qaydaları" mövzusunda seminarlar keçirilmişdir.

QHT-lərə Dövlət Dəstəyi Agentliyinin rəsmiləri "QHT ziyarətləri" layihəsi çərçivəsində bir sıra VCT-lərin regionlardakı və Bakı şəhərindəki ofislərində olmuş, onların fəaliyyəti ilə yaxından tanış olmuşlar. Səfərlərdə Prezident Administrasiyasının QHT-lərlə iş və kommunikasiya şöbəsinin müdiri Vüsal Quliyev də iştirak edib.[153]

18 iyul 2022-ci il tarixində QHT-lərə Dövlət Dəstəyi Agentliyində QHT-lərin fəaliyyətini tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı ictimai müzakirə keçirilib.[154]

Noyabrın 1-də Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin iclası keçirilib. İclasda "Parlament-QHT əməkdaşlığının gücləndirilməsi" mövzusunda müzakirələr aparılıb.[155]

2022-ci ilin iyul ayında Mingəçevir şəhərində Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin təşkilatçılığı ilə QHT-lərin 1-ci İnkişaf və Mübadilə Proqramının açılış mərasimi keçirilib. Mübadilə Proqramı QHT-lərin layihələrin yazılması və idarə olunması sahəsində bacarıqlarının daha da təkmilləşdirilməsini, qeyri-hökumət təşkilatlarının fəaliyyətinin gücləndirilməsini, davamlılığının təmin edilməsini və təşəbbüslərinin artırılmasını nəzərdə tutur.[156]

2022-ci ildə hökumətin VCT-lərlə əməkdaşlığında müsbət tendensiya müşahidə olunub, bölgələrdə VCT və dövlət qurumlarının nümayəndələrinin iştirakı ilə geniş görüşlər keçirilib. Məsələn, Prezident Administrasiyasının QHT-lərlə iş və kommunikasiya şöbəsinin müdiri Vüsal Quliyev 2022-ci il mayın ortalarından iyunun

---

151 https://www.qht.az/index.php?action=static_detail&static_id=46058&fbclid=IwAR15pB_386DMIm5AQQpnHpNDuB2B0PUeO_0xUPnhVJNOi6hGq2i-JjKzc9M
152 http://www.fiu.az/news/133
153 https://azertag.az/xeber/QHT_ziyaretleri_layihesi_davam_edir-2192615
154 https://azertag.az/xeber/QHT_fealiyyetini_tenzimleyen_qanunvericiliyin_tekmillesdirilmesi_ile_bagli_ictimai_muzakire_kechirilib-2219609
155 https://www.qht.az/index.php?action=static_detail&static_id=56793
156 https://report.az/daxili-siyaset/mingecevirde-qht-lerin-1-ci-inkisaf-ve-mubadile-proqrami-kecirilir/

ortalarına kimi regionlarda vətəndaş cəmiyyəti nümayəndələri ilə görüşüb. O həmçinin VCT nümayəndələrinin həyata keçirdiyi layihələri və onların nəticələrini nəzərdən keçirib, "QHT ziyarətləri" layihəsi çərçivəsində onların problemlərini dinləyib. Görüşlərin regionlarda fəaliyyət göstərən bütün təşkilatları əhatə etməsi nəzərdə tutulmuşdu.[157]

26 may 2022-ci il tarixində Gəncə şəhər icra hakimiyyətinin dəstəyi və QHT-lərə Dövlət Dəstəyi Agentliyinin təşkilatçılığı ilə Gəncə şəhərində "QHT-dövlət əməkdaşlığında yeni çağırışlar: ictimai nəzarət mexanizmlərinin gücləndirilməsi" mövzusunda respublika zona konfransı keçirilmişdir. Konfrans Gəncə, Mingəçevir və Naftalan şəhərləri ilə yanaşı, Kəlbəcər, Göygöl, Samux, Daşkəsən və Goranboy rayonlarını əhatə edib. Konfransda Prezident Administrasiyasının məsul nümayəndəsi bildirib ki, bu gün bu sahəni daha da təkmilləşdirmək üçün bütün VCT-lərin daha geniş şəbəkəsinin formalaşdılmasına zəmin yaradılmalıdır.

Parlamentin İnsan hüquqları komitəsi 2022-ci ilin yanvarında insan hüquqları sahəsində çalışan VCT-lərdən ibarət İşçi Qrupunun yaradılması barədə qərar qəbul edib.[158] Lakin işçi qrupunun tərkibi, sayı və konkret fəaliyyəti barədə ictimaiyyətə məlumat verilməyib.

Lakin həmin görüşlərin nəticələri nəzərə çarpmır və onlar VCT-lərin Azərbaycanda üzləşdikləri maneələrin aradan qaldırılmasında əhəmiyyətli və müsbət nəticələrə səbəb olmayıb. VCT-lərin ictimai müzakirələrdə və hökumətin qərar qəbul etmə prosesində iştirakı formal və məhdud səviyyədə qalmaqda davam edir. Hökumət yalnız loyal VCT-lərə güvənir.

### 10-cu sahə üzrə xüsusi tövsiyələr:

- Hökumət "İctimai iştirakçılıq haqında" qanunda nəzərdə tutulmuş mexanizmlərə uyğun olaraq istər mərkəzi, istərsə də yerli səviyyələrdə dövlət orqanları ilə VCT-lər arasında əməkdaşlığın asanlaşdırılmasına yönələn tədbirlər görməlidir;
- Hökumət "İctimai iştirakçılıq haqında" qanunda nəzərdə tutulmuş ictimai iştirakçılıq mexanizmlərinin tətbiqinin səmərəliliyini artırmalıdır;
- Hökumət dövlət qulluqçuları üçün VCT-hökumət əməkdaşlığına dair təlim təşkil etməlidir.

[157] https://www.aznews.az/news/take_a_look/292372.html

[158] https://apa.az/az/daxili-siyaset/mm-de-insan-huquqlari-ile-bagli-cevik-qrup-yaradilacaq-723267

# 3.11 Rəqəmsal hüquqlar

**Sahə üzrə ümumi bal: 4.6 /7**

| Qanunvericilik: 4.8 /7 | Praktika: 4.3 /7 |
|---|---|

Qanunvericilik VCT-lərin rəqəmsal hüquqlarının və VCT təmsilçilərinin insan hüquqlarının geniş çərçivədə müdafiəsini, məsələn, süni intellekt sahəsində zəruri hüquqi mühiti təmin etmir. Bununla belə, VCT-lərin rəqəmsal hüquqları qorunur. Kibercinayətkarlığa və ya rəqəmsal sahədə digər cinayətlərə dair qanunvericilik əsasən dəqiq şəkildə göstərilən qanunsuz hərəkətlərlə məhdudlaşır.

Elektron fərdi pəncərə sistemini tətbiq etməklə hökumət VCT-lərin öz rəqəmsal hüquqlarından istifadə etməsi üçün mühiti bir qədər yaxşılaşdırsa da, müxalif tənqidi fikirlər səsləndirən subyektlər kimi tanınan media subyektlərinə münasibətdə rəqəmsal məhdudiyyətlərin qalması və bəzi müxalif VCT üzvlərinin rəqəmsal hüquqlarının məhdudlaşdırılması və paralel olaraq "Media haqqında" yeni qanunun onlayn mediaya aid tələbləri bu sahədə yaxşılaşmanın qarşısını alır. Nəticədə qanunvericilik üzrə bal 2021-ci ildəki 4,9-dan 2022-ci ildə 4,8-ə, praktika üzrə isə 2021-ci ildəki 4,4 baldan 2022-ci ildə 4.3-ə düşüb ki, bu da ümumi balın 4.7-dən 2022-ci ildə 4.6-ya düşməsinə səbəb olub.

Hökumət bu sahə üzrə əvvəlki hesabatdakı tövsiyələri nəzərə almayaraq heç bir real addım atmamışdır və bu hesabat dövrü üçün tövsiyələr dəyişməz qalır, əsas tövsiyələr rəqəmsal alətlərin və elektron demokratiyanın təşviqinə və tətbiqinə yönələn siyasət və qaydaların; habelə insan hüquqları sahəsində lazımi səylərin göstərilməsi üçün qanunların və ya normativ aktların qəbul edilməsindən ibarətdir.

### Standart 1: Rəqəmsal hüquqlar qorunur və rəqəmsal texnologiyalar insan hüquqları standartlarına uyğundur.

Azərbaycan Respublikasının qanunvericiliyi təhlükəsiz və əlverişli onlayn mühitin mövcudluğuna, rəqəmsal hüquqların qorunmasına və həyata keçirilməsinə müəyyən təminatlar verir. Bununla belə, o, rəqəmsal hüquqların bütün aspektlərini əhatə etmir, məsələn, süni intellekti tənzimləyən qanunvericilik aktlarını özündə ehtiva etmir və ya süni intellektə həsr olunmuş ayrıca qanunlar yoxdur. 2022-ci ildə bu sahədə müvafiq qanunlar qəbul edilməmişdir ki, bu da əvvəlki illərdə olduğu kimi bu standart üzrə statik vəziyyətin qalmasına səbəb olmuşdur.

Kibercinayətkarlığa və ya rəqəmsal sahədə digər cinayətlərə dair qanunvericilik əsasən dəqiq şəkildə göstərilən qanunsuz hərəkətlərlə məhdudlaşır. Kompüter sisteminə qanunsuz daxil olma,[159] kompüter məlumatlarını qanunsuz ələ keçirmə,[160] kompüter sisteminə və ya kompüter məlumatlarına qanunsuz müdaxilə,[161]

---

[159] Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 271-ci maddəsi.
[160] Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 272-ci maddəsi.
[161] Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 273-cü maddəsi.

kibercinayətlərin törədilməsi üçün hazırlanmış vasitələrin dövriyyəsi,[162] kompüter məlumatlarının saxtalaşdırılması[163] Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş cinayət əməlləridir.

Vətəndaşların rəqəmsal hüquqlarına dair əsas qanun "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunudur[164] (qısaca: "Məlumatların mühafizəsi haqqında" Qanun). Bu Qanun informasiya sahəsində dövlət siyasətinin əsaslarını, informasiya ehtiyatlarının hüquqi rejimini, internet informasiya ehtiyatlarının yaradılması və uçotunu, internet informasiya ehtiyatlarında və ya informasiya-telekommunikasiya şəbəkəsində məlumatların yayılmasını, internet informasiya ehtiyatlarında qadağan olunmuş məlumatların yerləşdirilməsinin qarşısının alınmasını və onların yayılmasına görə məsuliyyəti müəyyən edir.

Azərbaycan Respublikasında sosial şəbəkələrin fəaliyyətinə heç bir məhdudiyyət yoxdur və vətəndaşların sosial şəbəkələrdə məlumatlar yerləşdirməsi üçün əvvəlcədən səlahiyyətli orqanlardan razılıq almalarına ehtiyac yoxdur.

Azərbaycan Respublikasının müxtəlif qanunlarında informasiyalardan istifadə həm dövlət orqanlarının, həm də vətəndaşların həmin informasiyaları əldə etməsi prinsipləri müəyyən edilsə də, praktikada vətəndaşlar həmin qanunların və öz rəqəmsal hüquqlarının pozulması halları ilə üzləşirlər.[165]

"Məlumatların mühafizəsi haqqında" Qanunun 13-2-ci maddəsinə əsasən, internet informasiya ehtiyatının və onun domen adının sahibi və ya informasiya-telekommunikasiya şəbəkəsinin istifadəçisi həmin informasiya ehtiyatında aşağıdakıların yerləşdirilməsinə yol verməməlidir: zorakılığı və dini ekstremizmi təbliğ edən məlumatlar, hakimiyyətin zorla ələ keçirilməsinə və ya saxlanmasına, kütləvi iğtişaşların təşkilinə çağırışlar, terrorçuluğun təbliği və maliyyələşdirilməsi haqqında məlumatlar, dövlət sirri təşkil edən məlumatlar, pornoqrafiyaya aid məlumatlar, təhqir və ya böhtan xarakteri daşıyan, habelə şəxsi həyatın toxunulmazlığını pozan məlumatlar, əqli mülkiyyət hüquqlarını pozan məlumatlar və Azərbaycan Respublikasının qanunları ilə yayılması qadağan edilən digər informasiyalar. "Məlumatların mühafizəsi haqqında" qanunun 13-3-cü maddəsinə əsasən, müvafiq icra hakimiyyəti orqanı yayılması qadağan edilən informasiyanın internet informasiya ehtiyatında yerləşdirilməsi hallarını bilavasitə aşkar etdikdə və ya fiziki, hüquqi şəxslərdən, yaxud dövlət qurumlarından daxil olmuş əsaslandırılmış

[162] Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 273-1-ci maddəsi.
[163] Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 273-2-ci maddəsi.
[164] 3 aprel 1998-ci il tarixli qanun; bax: http://www.e-qanun.az/framework/3525.
[165] Misal üçün bax: https://freedomhouse.org/country/azerbaijan/freedom-net/2021.

məlumatlar əsasında müəyyən etdikdə, bu barədə internet informasiya ehtiyatının və onun domen adının sahibinə və host provayderə yazılı xəbərdarlıq edir. Xəbərdarlıq edildiyi vaxtdan 8 saat ərzində yayılması qanunla qadağan edilən informasiya internet informasiya ehtiyatından götürülmədikdə və ya internet informasiya ehtiyatına və ya onun müvafiq hissəsinə müraciət məhdudlaşdırılmadıqda, müvafiq icra hakimiyyəti orqanı informasiyanın internet informasiya ehtiyatından götürülməsi və ya internet informasiya ehtiyatına və ya onun müvafiq hissəsinə müraciətin məhdudlaşdırılması barədə ərizə ilə rayon (şəhər) məhkəməsinə müraciət edir. Dövlətin və cəmiyyətin qanunla qorunan maraqlarına təhdid yarandığı və ya insanların həyat və sağlamlığı üçün real təhlükə olduğu təxirəsalınmaz hallarda internet informasiya ehtiyatına və ya onun müvafiq hissəsinə müraciət müvafiq icra hakimiyyəti orqanının qərarı əsasında müvəqqəti olaraq məhdudlaşdırılır.[166]

Müvafiq icra hakimiyyəti orqanı internet informasiya ehtiyatında "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən yayılması qadağan edilən informasiyanın yerləşdirilməsi hallarını müəyyən etdikdə, internet informasiya ehtiyatına müraciətin məhdudlaşdırılması üçün məhkəməyə müraciət edir.[167]

2022-ci il fevralın 8-də qüvvəyə minmiş "Media haqqında" yeni qanunun 60-cı maddəsinə əsasən, onlayn media subyektləri gündə ən azı 20 media materialı dərc etdikdə fəaliyyətləri davamlı hesab olunur ki, bu da onlayn media subyektləri üçün yük ola bilər və onlayn medianın fəaliyyətinin davamlılığının ölçülməsinin məntiqi izahı aydın deyil. Beləliklə, qanun VCT-lərin rəqəmsal hüquqları ilə bağlı yeni məhdudiyyətlər müəyyən edir.

### Standart 2: Dövlət rəqəmsal hüquqlardan istifadə üçün şərait yaradır.

İnternetin istifadəsi hər kəs üçün sərbəstdir, lakin qanunda dövlət tərəfindən konkret təminatlar nəzərdə tutulmayıb. İnternet provayderləri ayrı-seçkilik yolu ilə konkret şəxsə və ya quruma xidmətdən imtina etdikdə vətəndaşların məhkəməyə müraciət etmək hüququ vardır. Rəqəmsal hüquqların müxtəlif aspektləri ilə bağlı digər pozuntulara gəlincə, insanlar müvafiq dövlət orqanında pozuntuları inzibati qaydada və ya məhkəmə yolu ilə aradan qaldıra bilərlər.

Rəqəmsal hüquqlarla bağlı dövlət siyasətinə və strateji sənədə gəldikdə isə, dövlət hələ də bütün maraqlı tərəflərlə, o cümlədən vətəndaş cəmiyyəti ilə onların tərtib edilməsi və qəbulu üçün inklüziv prosesi formalaşdırmayıb.

---

[166] "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanunun 13-3-cü maddəsi.
[167] Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin 355-20.1-ci maddəsi.

Dövlət öz vətəndaşları ilə əlaqələr üçün rəqəmsal texnologiyalardan istifadə edir. Əsas elektron hökumət portalı[168] əksər dövlət qurumlarının elektron qaydada çoxsaylı xidmətlərini təqdim etdikləri yerdir, orada ASAN imza və ya elektron imza sistemlərindən istifadə edilir. Məsələn, VCT-lər də bu sistemdən müxtəlif məqsədlər üçün, o cümlədən bəzi onlayn hesabatlar üçün istifadə edirlər.

2022-ci ildə hökumət 150.000 ev təsərrüfatına genişzolaqlı internetə çıxışı təmin etməyi vəd etməklə[169] və 2021-ci ilin sonunda bir neçə kənddə Giqabayt Passiv Optik Şəbəkə (GPON) texnologiyasını qurmağa başlamaqla ölkədə internetə çıxışı və onun keyfiyyətini yaxşılaşdırmaq istəyini nümayiş etdirmişdir.[170] Bununla belə, müxalif siyasi xadimlər və fəallar müxalifətin keçirdiyi rəsmi və qeyri-rəsmi mitinqlərdən bir neçə saat əvvəl əlaqə problemləri ilə üzləşdiklərini bildiriblər.[171]

Hökumət hələ də nə məhdudiyyətləri aradan qaldırır, nə də Azərbaycanda bloklanan Azadlıq.info, Azadlıq Radiosu (Azad Avropa/Azadlıq Radiosunun Azərbaycan dilindəki xidməti), Meydan TV və s. kimi media subyektlərinin tam siyahısını ictimaiyyətə təqdim edir. Məlumatlar var ki, bəzi internet istifadəçiləri və media subyektləri "internetdə qadağan olunmuş məlumatları yaymaqda" ittiham edilərək cərimələniblər.[172]

Hökumət VCT-lərlə məsləhətləşmə aparmasa da və onları bu işə cəlb etməsə də, konfidensiallıq məsələləri və alqoritmlərin gözlənilməz nəticələri ilə bağlı VCT-lərin narahatlıqlarını nəzərə almışdır. Ədliyyə Nazirliyi rəsmi olaraq öz internet səhifəsində VCT-lər üçün "fərdi elektron pəncərə" sistemini sınaqdan keçirməyə başladığını elan etmişdir.[173] VCT-lər bu sistemdən qrant qeydiyyatı üçün onlayn müraciət etmək və reyestr məlumatlarında dəyişiklik etmək (məsələn, idarə heyətində dəyişiklik, hüquqi ünvanın dəyişdirilməsi və s.) üçün istifadə edə bilərlər. 1 mart 2022-ci il tarixində USAİD-in ECSOFT layihəsi çərçivəsində VCT nümayəndələri üçün Ədliyyə Nazirliyinin "fərdi elektron pəncərə" sistemindən istifadəyə həsr olunmuş iki vebinar keçirilmişdir. Vebinarlarda Bakı, Gəncə, Mingəçevir, Şirvan, Quba, Qusar, Saatlı, Sabirabad, Neftçala, Lənkəran və Zaqatalada fəaliyyət göstərən 42 VCT nümayəndəsi (hər vebinarda 21 iştirakçı) iştirak edib. Vebinarda VCT nümayəndələrinə "fərdi elektron pəncərə" sisteminin funksional imkanlarının ətraflı izahı təqdim edilib.

---

[168] "Elektron hökumət portalı" haqqında Əsasnamə"nin təsdiq edilməsi və elektron xidmətlərin genişləndirilməsi ilə bağlı tədbirlər barədə Azərbaycan Respublikası Prezidentinin 5 fevral 2013-cü il tarixli Fərmanı.
[169] https://sputnik.az/20220127/aztelecom-ve-baktelecom-birlesdirilir-438554743.html
[170] https://developingtelecoms.com/telecom-technology/optical-fixed-networks/11183-aztelekom-introduces-gpon-technology-in-villages-of-azerbaijan.html?utm_source=related_articles&utm_medium=website&utm_campaign=related_articles_click
[171] https://freedomhouse.org/country/azerbaijan/freedom-net/2022
[172] https://freedomhouse.org/country/azerbaijan/freedom-net/2022#B
[173] https://justice.gov.az/news/2472

İkincisi, 2021-ci ilin noyabrında hökumət https://rih.gov.az/ internet səhifəsini istifadəyə verdi ki, bu da "rəqəmsal icra hakimiyyəti"dir, yəni icra hakimiyyəti orqanlarının əhaliyə rəqəmsal xidmətləri üçün vahid platformadır və 2022-ci ildə də mövcudluğunu davam etdirmişdir. Vətəndaşlar bu portaldan icra hakimiyyətinin göstərdiyi bir sıra xidmətlər üçün, o cümlədən yaşayış sahəsi olmayan vətəndaşların qeydiyyatı, yetkinlik yaşına çatmayanların himayəyə verilməsi ilə bağlı rəyin alınması, uşağın adının və ya soyadının dəyişdirilməsinə icazə verilməsi, fermerlərə subsidiyaların alınması, tikintiyə icazələrin alınması və s. üçün istifadə edə bilərlər.[174] Bu platformada icra hakimiyyətinin qərar qəbul etmə proseslərində vətəndaşların elektron qaydada iştirak etməsi imkanı da vardır. Bu platformanın effektivliyi onun populyarlaşmasından sonra qiymətləndiriləcək. Bununla belə, müxalif tənqidi fikirlər səsləndirən subyektlər kimi tanınan media subyektlərinə münasibətdə rəqəmsal məhdudiyyətlərin qalması və bəzi müxalif VCT üzvlərinin rəqəmsal hüquqlarının məhdudlaşdırılması və paralel olaraq "Media haqqında" yeni qanunun onlayn mediaya aid tələbləri VCT-lərə mənfi təsir göstərib.

### 11-ci sahə üzrə xüsusi tövsiyələr:

- Hökumət və Parlament rəqəmsal alətləri və e-demokratiyanı təşviq etmək və aktivləşdirmək üçün siyasət və ya qaydalar qəbul etməlidirlər;
- Parlament və hökumət bu sahədə qanunlar və normativ aktlar qəbul edilərkən insan hüquqlarını lazımınca nəzərə almalı, o cümlədən onların insan hüquqlarına təsirlərini qiymətləndirməli və rəqəmsal texnologiyaların işlənib hazırlanması, inkişafı və tətbiqi prosesində şəffaflığı təmin etməli və rəqəmsal texnologiyaların tətbiqindən əvvəl və sonra VCT-lər və potensial təsirə məruz qalan qruplarla səmərəli məsləhətləşmələr aparmalıdırlar.

[174] https://www.digital.gov.az/az/media/press/ehim-yerli-icra-hakimiyyetlerile-rih-gov-az-portali-haqqinda-muzakireler-aparib

# IV. ƏSAS PRİORİTETLƏR

Azərbaycanda VCT-lər hələ də çətin bir mühitdə fəaliyyət göstərirlər və əsas problemlər maliyyələşmə, hesabat vermə, cəza sanksiyaları, ifadə azadlığı və dinc toplaşmaq azadlığı ilə bağlıdır ki, bunlar da həm qanunvericilikdən, həm də praktikadan irəli gəlir (ifadə, toplaşmaq, birləşmək azadlığı, maliyyələşməyə çıxış, dövlət dəstəyi, dövlət-VCT əməkdaşlığı). Bu məsələlər VCT-lərin qeydiyyatı və fəaliyyəti ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsi, vergitutmanın sadələşdirilməsi yolu ilə VCT-lərin potensialının artırılması, onlar üçün maliyyələşdirilmə mühitinin yaradılması, habelə qərarların qəbulu prosesində onların effektiv iştirakının təmin edilməsi kimi əsas prioritetləri formalaşdırır.

Hesabatda qeyd olunan problemlərin, demək olar ki, hamısı ötən ildə olduğu kimi, bu il də öz həllini tapmayıb. Hökumət bu hesabatda qeyd olunan tövsiyələrə birbaşa istinad etməsə də, keçən ildən fərqli olaraq, 2022-ci ildə regionlarda VCT-lərin iştirakı ilə bir neçə böyük görüş keçirməklə dövlət-VCT əməkdaşlığının genişləndirilməsində maraqlı olduğunu nümayiş etdirib. Baxmayaraq ki bu, VCT Ölçü Meyarı hesabatındakı tövsiyələrin birbaşa icra edilməsi deyil, hesabatda dövlət-VCT əməkdaşlığı ilə bağlı qeyd olunan tövsiyələrin həyata keçirilməsi istiqamətində müsbət addım kimi qiymətləndirilə bilər.

VCT-lərin Azərbaycanda demokratikləşmə prosesinə, hüquqi və iqtisadi islahatlara, sosial rifaha, o cümlədən azlıqların, qadınların, uşaqların, əlillərin, məcburi köçkünlərin və qaçqınların insan hüquqlarının müdafiəsinə töhfə vermək potensialı var.

Bu hesabatda 11 sahə üzrə cəmi 38 tövsiyə müəyyən edilib. Prioritet tövsiyələr aşağıda sadalanır. Onların hamısı hökumətə və yaxud Milli Məclisə (qanunvericilikdə dəyişikliklərə ehtiyac olduqda) ünvanlanır:

1. Ədliyyə Nazirliyi, Parlament və hökumət müddətləri azaltmaqla və Ədliyyə Nazirliyi tərəfindən subyektiv yanaşmanı aradan qaldırmaqla VCT-lərin qeydiyyat prosedurunu sadələşdirməlidirlər;
2. Ədliyyə Nazirliyi və Parlament VCT-lərə münasibətdə qeydiyyat prosesində və onların fəaliyyətləri zamanı kommersiya qurumları ilə müqayisədə bərabər rəftarı təmin etməlidirlər;
3. Parlament ölçüsündən və dövriyyəsindən asılı olaraq VCT-lərin hesabat öhdəliklərini sadələşdirməlidir;

4. Prezident Administrasiyası regionlarda tədbirlərin keçirilməsi üçün icazə almaq tələbini ləğv etməlidir;
5. Ədliyyə Nazirliyi və Nazirlər Kabineti qrantların və ianələrin qeydiyyatını sadələşdirməlidirlər (məsələn, qeydiyyatla bağlı qərarlarda subyektivliyin aradan qaldırılması, prosesin əlçatan və sürətli olması üçün rəqəmsallaşdırılması və s.);
6. Parlament və Nazirlər Kabineti xidmət müqavilələrinin qeydiyyata alınması tələbini ləğv etməlidirlər;
7. Parlament və Nazirlər Kabineti kiçik ianələr (məsələn, ildə bir donora 200 AZN/110 avro) haqqında hesabat vermək tələbini aradan qaldırmalıdırlar.

# V. METODOLOGİYA

VCT Ölçü Meyarı Şərq Tərəfdaşlığı (ŞT) ölkələrində VCT-lərin fəaliyyət göstərdiyi mühitin mütəmadi və ardıcıl monitorinqini dəstəkləyir. O, həm qanunvericiliyi, həm də praktikanı qiymətləndirmək üçün 11 müxtəlif sahədə bir sıra standartlardan və göstəricilərdən (indikatorlardan) ibarətdir. O, beynəlxalq standartlara və ən qabaqcıl təcrübələrə əsaslanır. VCT Ölçü Meyarı ECNL-dən olan əsas ekspertlər qrupu və altı ŞT ölkəsindən olan yerli tərəfdaşlar tərəfindən hazırlanmışdır.

ECNL ŞT ölkələri və illər üzrə VCT-lər üçün müxtəlif sahələrdə əlverişli mühitin həm keyfiyyət, həm də kəmiyyət baxımından müqayisəsini təmin etmək üçün 2020-ci ildən etibarən RESIS metodologiya ekspertləri ilə VCT Ölçü Meyarı metodologiya paketinin uyğunlaşdırılması üzərində işləmişdir. Təklif olunan model elektron poçtu və onlayn tədbirlər vasitəsilə geniş tərkibli regional VCT Ölçü Meyarı mərkəzi ilə razılaşdırılmış və sınaqdan keçirilmişdir. Yenilənmiş müqayisə modeli vasitəsilə biz: (1) 11 sahənin hər birində vətəndaş cəmiyyəti üçün mühiti qiymətləndirməyi; (2) hər bir ölkədə illər üzrə inkişafın/tərəqqinin izlənilməsini təmin etməyi və (3) regional səviyyədə mühitləri müqayisə etməyi hədəfləyirik.

Ölkələrdəki tərəfdaşlar VCT Ölçü Meyarı mərkəzinin bir hissəsi olan digər VCT-lərlə birlikdə monitorinq prosesini həyata keçirmiş və ölkələr üzrə hesabat layihəsini hazırlamışlar. Onlar həmçinin hər bir ölkədə əsas yerli maraqlı tərəflərin ekspert nümayəndələrindən ibarət Məşvərət Şuraları yaratmışlar. Şura üzvlərinin iki əsas vəzifəsi var: təsviredici hesabatları nəzərdən keçirmək və təsviredici hesabatlar əsasında hər bir Standart üzrə ballar təyin etmək.

Hazırkı hesabat 2022-ci ilin yanvarından noyabrın 30-dək olan dövrü əhatə edir.

## Monitorinq prosesi

Monitorinq prosesi hədəf qrupları ilə görüşlərin keçirilməsi, müsahibələrin aparılması, medianın, sosial şəbəkələrin izlənilməsi, qanunların və qanun layihələrinin təhlili yolu ilə həyata keçirilmişdir.
Hesabat Şərq Tərəfdaşlığının bütün altı ölkəsi üçün birgə metodologiyaya uyğun olaraq layihənin Azərbaycandakı yerli tərəfdaşı MG Consulting tərəfindən hazırlanmışdır. Müəlliflər 8 müsahibə və iki hədəf qrupu ilə görüşlər (biri Bakıda fəaliyyət göstərən VCT-lər üçün, digəri isə regional VCT-lər üçün) keçirmişlər. Mətndə hədəf qruplarına istinadən qeyd edilənlərin mənbəyi mətnaltı qeydlərdə "Hədəf qrupu" kimi göstərilib.

Məlumatların toplanması və hesabatın yekunlaşdırılması dövrü arasında vətəndaş cəmiyyəti ilə bağlı baş vermiş mühüm hadisələr hesabatın "Qısa icmal" bölməsinə daxil edilmişdir. Lakin ballar təyin edilərkən bu hadisələr nəzərə alınmamışdır.
Ölkə üzrə təsviredici hesabatın layihəsi dekabrın 15-də Azərbaycandakı Məşvərət Şurasının üzvləri tərəfindən yenidən nəzərdən keçirilmişdir.

## Qiymətləndirmə prosesi

## Ballarla qiymətləndirmə prosesi

Azərbaycanda ümumi ölkə balının azalması böyük ölçüdə regional səviyyədə bütün ölkə ballarının yenidən nəzərdən keçirilməsi prosesinin nəticəsi olmuşdur. 2021-ci ildə bütün ölkələr üzrə təqdim edilən bütün ballarla bağlı vəziyyətin qiymətləndirilməsindən sonra tədqiqatçılardan bəzi sahələr üzrə balları yenidən qiymətləndirmələri xahiş edilmişdir, çünki Azərbaycanda vəziyyət digər ŞT ölkələrindəki vəziyyətdən daha yaxşı hesab edilməmişdir. Bu cür yenidən qiymətləndirmə ən çox 6-cı sahəyə (İfadə azadlığı), 9-cu sahəyə (Dövlətin dəstəyi) və 10-cu sahəyə (Dövlət-VCT əməkdaşlığı) təsir göstərmişdir.

Ölkə üzrə tədqiqatçılar və Azərbaycandakı Məşvərət Şurasının 9 üzvü hesabat dövründə həm Qanunvericilikdə, həm də Praktikada hər bir Standart üzrə baş vermiş dəyişiklikləri qiymətləndirmişlər. Sonra hər bir standart üzrə yekun bal tədqiqatçıların verdiyi balların 50 faizinin və Məşvərət Şurası üzvlərinin verdiyi balların orta hesabla 50 faizinin iştirak etdiyi düstur əsasında hesablanmışdır. Daha sonra hər bir sahənin balı hər bir standart üzrə yekun balların orta kəmiyyəti kimi hesablanmış və təqdimat məqsədləri üçün onda bir (1/10) kəmiyyətlər səviyyəsində yuvarlaqlaşdırılmışdır.

Qiymətləndirmə proseduru üçün 7 ballıq şkaladan istifadə olunur. Şkalanın ekstremal kəmiyyətləri ekstremal/ideal vəziyyətlər və ya mühitlər kimi qəbul edilir. Məsələn, (1) son dərəcə əlverişsiz (avtoritar), (7) isə VCT-lər üçün son dərəcə əlverişli (ideal demokratik) mühitdir. VCT Ölçü Meyarı aləti, qiymətləndirmə prosesi və hesablama haqqında ətraflı məlumat üçün lütfən https://csometer.info/ saytına daxil olun.